# QARABAĞ AZƏRBAYCANDIR!

RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 248 (8564) CÜMƏ, 27 noyabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az


# İLHAM ƏLİYEV HÜNƏRİ




**Nə böyük xoşbəxtlikdir İlham Əliyev kimi möhkəm iradəli, qətiyyətli, uzaqgörən, müdrik və cəsarətli Prezidentin rəhbərlik etdiyi ölkədə yaşamaq!**

**Fəxr edirik ki, vədinə sadiq, əməlində düz, dediyini edən Prezidentimiz var!**

**İlham Əliyev dövlət başçısı seçildiyi gündən indiyədək verdiyi bütün sözləri ləyaqətlə yerinə yetirib!**

*Demişdi ki, bir qarış torpağımızı belə düşmənə güzəştə getməyəcəyik!*

*Demişdi ki, Azərbaycan ərazisində ikinci erməni dövlətinin yaranmasına yol verməyəcəyik!*

*Demişdi ki, məcburi köçkünlər doğma yurd-yuvalarına qayıdacaqlar!*

*Demişdi ki, "Qarabağ Azərbaycandır!"*

*Dediklərinin hamısını etdi!*

Cəsarətlə!

Hünərlə!

Şücaətlə!

Özünəməxsus qəhrəmanlıqla!

**Bəli, cənab İlham Əliyev xüsusi hünər sahibidir!**

❖ ❖ ❖

*İlham Əliyev hər bir azərbaycanlıya, hər bir azərbaycansevərə sonsuz fərəh və xoşbəxtlik sevincini gətirən bu zəfərə bizi inadla, ardıcıllıqla, düşünülmüş və hesablanmış siyasət yeritməklə, addımlar atmaqla gətirdi!*

Səbrlə, dönmədən, dayanmadan, ən çətin maneə və əngəlləri dəf edə-edə gətirdi!

Azərbaycanı ucaltmaqla, dünyada tanınıb söz sahibinə çevirməklə, dünya ictimaiyyətini xalqımızın haqq işinə inandırmaqla gətirdi!

**Ən nəhayət, özü də ucalaraq, müasir dünyanın tanınmış, ən mötəbər qurumlarına uğurla sədrlik etməyi bacaran dünya miqyaslı siyasi liderə çevrilməklə gətirdi!**

❖ ❖ ❖

Azərbaycan ilk dəfə 1918-ci ildə - müstəqillik yoluna qədəm qoyduğu gündən torpaq itkisinə məruz qalıb!

Öz dövlətini yaratmaq xatirinə kənardan gələn özgə millətlərə "torpaq payı" verməli olub!

Arxalı köpək qurd basar - demişlər!

Köpəyin qudurmuşu isə daha pis olur!

Çörək verənini, qapısında saxlayanını dalamağa başlayır.

Torpaqlarımız hesabına özünə dövlət quran xain xislətli ermənilərin iştahası getdikcə artırdı. Sovet hakimiyyəti simasında özünə yeni ağa taparaq 1948-1953-cü illərdə minlərlə azərbaycanlını dədə-baba torpaqlarından çıxarmaqla qədim ərazilərimizin daha bir hissəsini ələ keçirdilər.

İkinci dəfə dövlət müstəqilliyi qazanılanda - ötən əsrin doxsanıncı illərinin əvvəllərindən Azərbaycana maymaq, qətiyyətsiz, təcrübəsiz və səriştəsiz insanlar başçılıq etməyə başlayanda əllərinə yeni fürsət düşdü.

Havadarlarına güvənərək qısa müddətdə Dağlıq Qarabağı və ətrafındakı daha yeddi rayonu işğal etdilər.

*Sonra 27 il işğal dövrü davam etdi...*

*Həmin 27 il mənasız danışıqlar, atəşkəsin vaxtaşırı pozulması, şəhidlər verilməsi və bütün bunların səbəbkarı olan erməni həyasızlığı və ikili standartlarla yadda qaldı...*

**Bu 27 ilin 17 ili cənab İlham Əliyevin Prezidentliyi dövrünə düşür.**

**Əslində, hadisələrin gedişi, tarixin gərdişi torpaqların azadlığı missiyasını da cənab İlham Əliyevin üzərinə qoymuş oldu!**

**Məlum səbəblərdən itirdiyimiz torpaqları geriyə qaytarmaq axan çayı tərsinə axıtmaqdan daha çətin idi...**

*Amma İlham Əliyev bunu bacardı!*

*Özünün polad iradəsi, uzaqgörən siyasəti, yorulmadan çalışması, düşünülmüş və hesablanmış addımları, cəsarətli və qətiyyətli fəaliyyəti ilə reallaşdırdı!*

*Ardı 3-cü səh.*

## Azərbaycan Respublikası Milli Məclisinin BƏYANATI

Fransada fəaliyyət göstərən ayrı-ayrı türkofob və islamofob siyasi dairələrin və erməni etnik qruplarının təhriki ilə Fransa Respublikası Senatının 2020-ci il noyabrın 25-də qəbul etdiyi qətnamə ilə əlaqədar Azərbaycan Respublikasının Milli Məclisi aşağıdakıları bəyan edir:

- Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan Respublikasının 1988-1994-cü illərdə işğal edilmiş ərazilərində qeyri-qanuni yaradılan və heç bir dövlət tərəfindən tanınmayan "Dağlıq Qarabağ respublikası" adlı oyuncaq qurumun mövcudluğuna 2020-ci ilin noyabr ayında son qoyulmuşdur;
- Fransa Senatı tərəfindən bu oyuncaq qurumun tanınması zərurətinin irəli sürülməsi Fransa hökumətini beynəlxalq hüququn əsas norma və prinsiplərini pozmağa təhrik etmək cəhdidir;
- Fransa Senatının bu addımı Avropa İttifaqının xarici və təhlükəsizlik siyasəti üzrə qlobal strategiyası, o cümlədən Avropa İttifaqı Şurasının dövlətlərin ərazi bütövlüyü barədə 2016-cı ildən bəri ardıcıl qəbul etdiyi sənədlər çərçivəsində Fransa Respublikasının üzərinə götürdüyü öhdəliklərlə bir araya sığmır;
- Sözügedən qətnamənin müddəalarının həyata keçirilməsi Avropa İttifaqına və onun "Şərq Tərəfdaşlığı" proqramına sarsıdıcı zərbə vurmaq potensialı daşıyır;
- Cənubi Qafqazın və bütövlükdə Avropanın təhlükəsizliyi üçün təhdid törətmiş Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin 30 ilə yaxın bir müddətdə həll edilməməsinin əsas səbəblərindən biri sülh danışıqlarında beynəlxalq vasitəçi rolunu oynamış dövlətlərin, xüsusən Fransanın təcavüzkarı öz adı ilə çağırmaması, işğalçı ilə işğala məruz qalan arasında fərq qoymaması olmuşdur;
- Cənubi Qafqaz regionunda qeyri-sabitliyin davam etməsində maraqlı olan xarici qüvvələrin dəstəyindən cəsarətlənən, sülh danışıqlarını birdəfəlik pozmaq və Azərbaycan torpaqlarının işğalını legitimləşdirmək istəyən Ermənistan 2020-ci il sentyabrın 27-də Azərbaycana qarşı növbəti təxribata əl atmış, lakin BMT Nizamnaməsinin 51-ci maddəsinə əsasən özünümüdafiə hüququndan istifadə edən Azərbaycanın həyata keçirdiyi 44 günlük əks-hücum əməliyyatı təcavüzkar Ermənistanı sülhə məcbur etmişdir;
- Fransa Senatının qətnaməsində Azərbaycan tərəfindən əks-hücum əməliyyatında Türkiyə Silahlı Qüvvələrinin iştirak etdiyinə və Yaxın Şərqin bəzi münaqişəli bölgələrindən muzdluların Ermənistana qarşı istifadə olunduğuna, Dağlıq Qarabağda mülki əhaliyə qarşı müharibə cinayətləri törədildiyinə dair əsassız və saxta iddialar irəli sürülmüş, lakin bu iddialarla bağlı heç bir dəlil göstərilməmişdir;
- Bununla belə Ermənistan tərəfindən xarici ölkələrdən, o cümlədən Fransadan şovinist, irqçi və terrorçu muzdlu dəstələrin müharibə zonasına gətirilərək Azərbaycana qarşı istifadə edildiyinə, Azərbaycanın hərbi əməliyyatlar zonasından uzaqda yerləşən yaşayış məntəqələrində dinc əhaliyə və mülki obyektlərə qarşı ağır müharibə cinayətləri törədildiyinə dair təkzibedilməz faktlar mövcuddur;
- Ermənistan silahlı qüvvələri 1992-1994-cü illərdə Azərbaycana qarşı işğalçılıq müharibəsinin gedişində də dinc azərbaycanlılara qarşı bir sıra qətliamlar, o cümlədən XX əsrin ən dəhşətli faciələrindən olan Xocalı soyqırımını törətmişlər;
- Özünü insan hüquqlarına və demokratik dəyərlərə hörmətin "nümunəsi" sayan Fransa Respublikası dinc azərbaycanlılara qarşı bu cinayətlər qarşısında səssiz qalmağa üstünlük vermişdir;
- Müstəmləkə hakimiyyəti dövründə Fransa silahlı qüvvələri etnik və dini mənsubiyyətinə görə yüz minlərlə dinc sakini kütləvi surətdə qətlə yetirmişlər. Törədilmiş soyqırımı cinayətləri Fransanın siyasi tarixində silinməsi mümkün olmayan qara bir ləkədir;
- 2020-ci il noyabrın 10-da Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistan baş nazirinin imzaladıqları üçtərəfli bəyanat 30 ildən artıq davam edən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə, Azərbaycan torpaqlarının işğalına son qoymuş, Cənubi Qafqaz bölgəsinin gələcək inkişafına yol açmışdır;
- Bu üçtərəfli bəyanat beynəlxalq hüquq normalarının və prinsiplərinin üstünlüyünü bərqərar etmiş, BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və Fransa Respublikasının özünün də dəstəklədiyi 822, 853, 874 və 884 nömrəli qətnamələrin, BMT Baş Məclisinin 2008-ci ildə qəbul etdiyi 62/243 nömrəli qətnamənin, eləcə də Avropa İttifaqının və Avropa Parlamentinin, Avropa Şurası Parlament Assambleyasının, İslam Əməkdaşlıq Təşkilatının, Qoşulmama Hərəkatının, Avropa İnsan Hüquqları Məhkəməsinin və digər mötəbər beynəlxalq qurumların ayrı-ayrı illərdə qəbul etdikləri sənədlərin icrasını təmin etmişdir.

Azərbaycan Respublikasının Milli Məclisi Cənubi Qafqaz bölgəsində Azərbaycanın hərtərəfli səyləri nəticəsində yaradılmış yeni reallıqların bütün beynəlxalq təşkilatlar və dövlətlər, o cümlədən Fransa Respublikası tərəfindən qəbul edilməli olduğunu vurğulayır, bu reallıqların bölgədə nüfuz sahibi olan Rusiya və Türkiyə tərəfindən dəstəkləndiyini və Ermənistan tərəfindən qəbul edildiyini xatırladır və yuxarıda şərh edilənləri nəzərə alaraq, Azərbaycan Respublikası Hökumətinə aşağıdakılarla bağlı çağırış edir:

1. Son günlərdə tutduğu mövqe və verdiyi bəyanatlar ilə bitərəfliyini şübhə altına qoyan Fransa Respublikasının ATƏT-in Minsk qrupunun həmsədrliyindən geri çağırılması üçün ATƏT-in rəhbərliyinə müraciət edilsin;
2. Azərbaycan Respublikası ilə Fransa Respublikası arasında mövcud olan siyasi münasibətlərə yenidən baxılsın;
3. Azərbaycan Respublikası ilə Fransa Respublikası arasında mövcud olan iqtisadi əlaqələr dərindən təhlil edilərək lazımi tədbirlər görülsün.

*26 noyabr 2020-ci il*

## Parlament hökuməti Fransa ilə siyasi münasibətlərə yenidən baxmağa çağırdı

Noyabrın 26-da Milli Məclisin növbəti plenar iclası keçirildi. Parlamentin sədri Sahibə Qafarova öncə onu bildirdi ki, Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistanın baş nazirinin imzaladıqları üçtərəfli bəyanata uyğun olaraq, noyabrın 25-də Kəlbəcər rayonu erməni işğalçılarından azad olunub.

"Eşq olsun Ali Baş Komandan İlham Əliyevə! Eşq Olsun Müzəffər Azərbaycan Ordusuna!" deyən spiker bu münasibətlə təbriklərini çatdırdı. Qeyd olundu ki, dekabrın 1-dək Laçın rayonu da işğaldan azad ediləcək.

Daha sonra Fransa Senatında qəbul edilən bədnam qətnamə ilə bağlı fikirlərini bildirən Milli Məclisin sədri dedi: "Fransa Senatında Azərbaycana qarşı çirkin siyasi aksiya təşkil olunub və təxribat xarakterli bir qətnamə qəbul edilib. Bu sənədə ötəri nəzər saldıqda belə onun nə qədər qərəzli bir yanaşmaya əsaslandığını görmək olar. Qətnamədə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin mahiyyəti kobudcasına təhrif edilib, xalqımızın apardığı Vətən müharibəsinin üzərinə kölgə salmağa cəhd göstərilib, ölkəmizə böhtanlar atılıb.

*Ardı 2-ci səh.*



## Noyabr Azərbaycan üçün düşərli aydır

### Bu ay ölkəmizin dövlətçilik, hərb və neft-qaz sənayesi tarixində mühüm hadisələrlə zəngindir

Bu ilin noyabr ayında ən ümdə arzumuza çatdıq, ən böyük muradımıza yetdik. Prezident, Ali Baş Komandan İlham Əliyevin müdrik rəhbərliyi ilə çoxdandır həsrətini çəkdiyimiz doğma Qarabağa qovuşduq. Ümumiyyətlə, noyabr Azərbaycan üçün düşərli aydır. Müxtəlif illərin həmin ayında dövlətimizin, xalqımızın həyatında çox önəmli hadisələr baş verib.

*Ardı 4-cü səh.*

Milli Məclisin iclasında

# Parlament hökuməti Fransa ilə siyasi münasibətlərə yenidən baxmağa çağırdı




*Əvvəli 1-ci səh.*

İş o yerə çatmışdır ki, Fransa Senatının üzvləri Fransa hökumətini artıq mövcud olmayan qondarma "Dağlıq Qarabağ Respublikası"nı tanımağa, bölgədə 1994-cü ildə mövcud olmuş sərhədləri qaytarmağa çağırıblar.

Sədr bildirdi ki, Milli Məclis Fransa Senatının bu qətnaməsi ilə bağlı ciddi bir bəyanat qəbul etməlidir və gündəliyin birinci məsələsi məhz bu bəyanatla bağlıdır.

Məlum olduğu kimi, 30 ilə yaxındır ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc yolla nizama salınması üçün danışıqlar aparılırdı. 1994-cü ildən Fransa bu danışıqlarda vasitəçilik edən ATƏT-in Minsk qrupunun həmsədridir. Azərbaycan torpaqlarının işğalına son qoyulması üçün aparılan danışıqlarda heç bir nəticə olmamasının əsas səbəblərindən biri məhz beynəlxalq vasitəçilərin, xüsusən də Fransanın təcavüzkarı öz adı ilə çağırmaması, işğalçı ilə işğala məruz qalan ölkələr arasında fərq qoymaması idi.

Son vaxtlar biz Fransa dövlətinin siyasi və dövlət xadimlərinin, hakimiyyət orqanlarının Azərbaycana qərəzli münasibətinin dəfələrlə şahidi olmuşuq. Fransa prezidenti, xarici işlər naziri öz bəyanatları ilə göstərirdilər ki, Cənubi Qafqazda və bütün Avropada sülh üçün əsas təhdid mənbəyi olan və indi məğlub duruma düşən Ermənistanı birtərəfli qaydada müdafiə edəcəklər. Bütün bunlar Fransanın həmsədr kimi bitərəfliyini şübhə altına alırdı və BMT Təhlükəsizlik Şurasının daimi üzvü kimi onun niyyətləri barəsində bir sıra suallar doğururdu.

Azərbaycanın səyləri nəticəsində bu gün regionda tamamilə yeni bir reallıq yaranıb. Noyabrın 10-da imzalanmış üçtərəfli bəyanatla Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə, Azərbaycan torpaqlarının işğalına son qoyuldu. Bu reallığı bölgədə nüfuz sahibi olan Rusiya və Türkiyə dəstəklədi. Bu reallıq Fransanın vəkillik etməyə çalışdığı Ermənistan tərəfindən də qəbul edilibdir. Düşünürəm ki, Fransa özü də yaranmış vəziyyətlə barışmalı, haqsızı müdafiə etməkdən əl çəkməli, haqqın və haqlının tərəfində dayanmalıdır. Azərbaycana qarşı çirkin siyasi oyunlar quran qüvvələr təzyiq, şər-böhtan yolu ilə nəyəsə nail olacaqlarına ümid etməsinlər. Azərbaycan xalqı bundan sonra da möhtərəm Prezidentimizin ətrafında yumruq kimi birləşərək dövlətimizə və xalqımıza qarşı yönələn bütün qəsdləri dəf edəcək".

Sahibə Qafarovanın təklifi deputatlar tərəfindən razılıqla qarşılandı və Fransa Senatının qəbul etdiyi qətnaməyə etiraz bəyanatının mətnini hazırlamaq üçün Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov rəhbər olmaqla deputatlar Cavanşir Feyziyev, Əminə Ağazadə və Fazil Mustafadan ibarət komissiya təşkil olundu.

İclasda Fransanın Azərbaycana qarşı bu ədalətsiz və qərəzli addımı ilə bağlı geniş müzakirələr keçirildi. Milli Məclis sədrinin müavini Fəzail İbrahimli, komitə sədrləri Zahid Oruc, Bəxtiyar Əliyev, Tahir Rzayev, deputatlar Nigar Arpadarai, Kamal Cəfərov, Anar İsgəndərov, Erkin Qədirli, Fazil Mustafa, Əli Məsimli, Fəzail Ağamalı, Kamilə Əliyeva, Aqil Abbas, Vahid Əhmədov, Məlahət İbrahimqızı, Sahib Alıyev, Qüdrət Həsənquliyev, Aydın Mirzəzadə, Razi Nurullayev və digərləri çıxış edərək Fransanın bu hərəkətini Azərbaycanın ərazi bütövlüyünə və beynəlxalq hüquqa qarşı hörmətsizlik kimi qiymətləndirdilər.

Sonra deputat Cavanşir Feyziyev hazırlanmış bəyanatın mətnini oxudu. Səsvermədə bəyanata müsbət münasibət bildirildi *(Bəyanatın mətni qəzetin bugünkü sayında dərc olunub).*

İclasda gündəlikdəki digər məsələlərin müzakirəsi keçirildi. Əvvəlcə Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Vətən müharibəsində qələbə münasibətilə" Azərbaycanın orden və medallarının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" qanunda dəyişiklik edilməsi barədə və "Vətən Müharibəsi Qəhrəmanı" adının təsis edilməsi haqqında" qanun layihələrini üçüncü oxunuşda təqdim etdi. Layihələrin birinci və ikinci oxunuşlarda müzakirələri zamanı səslənən təkliflərə münasibətini bildirən Əli Hüseynli dedi ki, hazırlanan sənədlər orden və medallarla bağlı formalaşmış qanunvericiliyə tam uyğundur. Qanun layihələrinin əsasnaməsində və təsvirində Azərbaycan dövlətçiliyi, Qarabağın tarixi, milli və hərbi atributlarla bağlı bütün elementlər öz əksini tapıb.

Deputatlardan Fəzail Ağamalı, Aydın Mirzəzadə və Qüdrət Həsənquliyev qanun layihələri ilə bağlı fikirlərini səsləndirdilər və sənədlərin mükəmməl şəkildə hazırlandığını bildirdilər.

Hər iki qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq üçüncü oxunuşda qəbul olundu.

İclasda "Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin 100 illiyi (1920-2020)" yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" qanunda dəyişiklik edilməsi barədə də qanun layihəsinə üçüncü oxunuşda baxıldı. Əli Hüseynli qanun layihəsinin əvvəlki oxunuşlarda müzakirəsi zamanı və ondan sonra komitəyə heç bir yeni təklifin daxil olmadığını söylədi. Qanun layihəsi üçüncü oxunuşda qəbul olundu.

Parlamentin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov üçüncü oxunuşda "Ətraf mühitin mühafizəsi haqqında" qanuna təklif olunan dəyişiklikdən bəhs etdi. Qeyd olundu ki, layihə ölkə Prezidentinin qanunvericilik təşəbbüsü ilə Milli Məclisə daxil olub. "Azərbaycanda plastik qablaşdırma tullantılarının ətraf mühitə təsirinin azaldılmasına dair 2019-2020-ci illər üçün Tədbirlər Planı"na əsasən hazırlanan qanun layihəsi qalınlığı 15 mikrona qədər olan polietilen torbaların idxalı, istehsalı, həmçinin ticarət, ictimai iaşə və digər xidmət obyektlərində istehlakçıya satılması və ya verilməsi ilə bağlı qadağaları özündə ehtiva edir. Sənəd 2021-ci il yanvarın 1-dən qüvvəyə minəcək. Layihəyə görə, birdəfəlik istifadə üçün nəzərdə tutulan plastik qarışdırıcı çubuq, çəngəl, qaşıq, bıçaq, boşqab və stəkanların sahibkarlar tərəfindən idxalı, istehsalı, həmçinin ticarət, ictimai iaşə və digər xidmət obyektlərində istehlakçıya satılması və ya verilməsi də 2021-ci il iyulun 1-dən məhdudlaşdırılacaq. Komitə sədri qeyd edib ki, qanun layihəsinin ikinci oxunuşda müzakirəsindən sonra komitədə yeni bir təklif qeydə alınmayıb. Layihə səsə qoyularaq üçüncü oxunuşda təsdiq edildi.

İnzibati Xətalar Məcəlləsinə dəyişiklik edilməsi barədə qanun layihəsini üçüncü oxunuşda təqdim edən Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirdi ki, dəyişiklik uyğunlaşdırma xarakteri daşıyır. Layihə üçüncü oxunuşda qəbul olundu.

"Avtomobil nəqliyyatı haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi ilə bağlı İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Əli Məsimli məlumat verdi. Deputat bildirdi ki, qanuna təklif olunan dəyişiklik uyğunlaşdırma xarakteri daşıyır. Avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarının təhlükəsizliyinə, istifadə edilən avtonəqliyyat vasitələrinin istismarına və saxlanılmasına, bu sahədə dövlət tənzimləməsinə nəzarəti Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyatı Xidməti, publik hüquqi şəxs statusuna malik Bakı Nəqliyyat Agentliyi, aidiyyəti şəhər icra hakimiyyətlərinin tabeliyində olan "Sumqayıt Nəqliyyat" və "Gəncə Nəqliyyat" MMC-lər həyata keçirir. Bu sahədə fəaliyyət göstərən orqanların icra hakimiyyəti orqanı və publik hüquqi şəxs, məhdud məsuliyyətli cəmiyyət olmasını nəzərə alaraq, qanunun 26.4-cü maddəsində "müvafiq icra hakimiyyəti orqanı" sözlərinin "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz olunması təklif olunur. Layihə təsdiq edildi.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# *Hikmət HACIYEV:* "Fransa Senatının bu qətnaməsi Azərbaycan üçün adi kağız parçasından başqa bir şey deyil"

## Senatın bu təxribatçı addımı Fransa siyasi dairələrinin ənənəvi Ermənistan təəssübkeşliyinin təzahürüdür

Prezidentin köməkçisi Hikmət Hacıyev Fransa Senatında qondarma "Dağlıq Qarabağ respublikasının" tanınmasına dair qətnamə layihəsinin qəbuluna münasibət bildirib.



AZƏRTAC xəbər verir ki, Hikmət Hacıyevin bununla bağlı şərhində deyilir:

"Noyabrın 18-də Fransa Senatının Rəyasətində erməni diasporunun və lobbisinin təsiri altında olan bir qrup senator tərəfindən qondarma "Dağlıq Qarabağ Respublikasının tanınmasının zəruriliyinə dair" 145 nömrəli qətnamə layihəsi təqdim olunub, noyabrın 25-də müzakirə edilərək qəbul olunub.

İlk olaraq vurğulamaq istərdik ki, bu qətnamə Azərbaycan üçün adi kağız parçasından başqa bir şey deyil. Dar siyasi ambisiyalar naminə qəbul olunmuş bu kağız parçası beynəlxalq hüquq normaları, BMT Nizamnaməsi və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin kobudcasına pozulması ilə yanaşı, Fransanın istər Minsk qrupunun həmsədr ölkəsi, istərsə də BMT TŞ-nin daimi üzvü kimi məramı və obyektiv fəaliyyəti ilə bağlı ciddi suallar doğurur.

Senatın bu təxribatçı addımı Fransa siyasi dairələrinin ənənəvi Ermənistan təəssübkeşliyinin təzahürüdür.

Vasitəçi ölkənin bitərəf və ədalətli olmalı olduğunu unudan Fransanın açıq ermənipərəst mövqeyi münaqişənin sülh yolu və beynəlxalq hüququn norma və prinsipləri əsasında həllinə mane olan əsas amillərdən biri olmuşdur. Məhz onun belə dəstəyi təcavüzkar Ermənistanı status-kvonu davam etdirməyə və işğal faktını gücləndirməyə həvəsləndirmişdir.

Böyük təəssüf doğuran məqam odur ki, Fransa Senatı Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin işğal olunması, mülki əhalinin qətlə yetirilməsi, işğalçı dövlətin torpaqlarımızda etnik təmizləmə, ekoloji terror, qeyri-qanuni məskunlaşma və qanunsuz iqtisadi fəaliyyətlər aparmasına qarşı 30 il susqun mövqe nümayiş etdirmişdir.

Qətnamənin mətnində Azərbaycan və qardaş Türkiyənin ünvanına yer alan saxta ittiham və böhtanları qəti şəkildə rədd edirik, münaqişənin tarixi, siyasi və hüquqi aspektlərini təhrif etmək cəhdlərini kəskin qınayırıq.

Türkiyə və Azərbaycanın guya xaricdən muzdlu terrorçuları döyüşlərə cəlb etməsi ilə bağlı indiyə qədər heç bir sübutla təsdiq olunmamış iddialar əsassızdır. Ermənistan silahlı qüvvələri sıralarında Fransa vətəndaşları olan muzdluların Azərbaycan ərazilərində döyüşlərdə iştirak etməsi barədə faktlar və dəlillər aidiyyəti qurumlarımız tərəfindən Fransanın diqqətinə çatdırılmışdır.

Qətnaməni Fransada artmaqda olan islamofobiyanın bariz nümunəsi hesab edirik. Fransada ifrat dünyəvilik və mətbuat azadlığı pərdəsi altında islam dininə və müsəlmanlara qarşı həyata keçirilən ayrı-seçkilik və təqiblər bizə vaxtı ilə bu ölkədə hökm sürmüş və bu gün də davam edən antisemitizmi xatırladır.

Fransa Senatı məqsədyönlü şəkildə döyüşlərin davam etdiyi 44 gün ərzində münaqişə bölgəsinə yaxın və oradan uzaqda olan dinc sakinlər, mülki obyektlər, enerji və nəqliyyat infrastrukturuna qarşı Ermənistan hərbi təxribatlarını qınamaqdan çəkinir, daha çox sayda mülki əhalisi qətlə yetirilmiş, kəndləri, qəsəbələri və şəhərləri raket atəşinə tutulmuş Azərbaycanı vicdansızcasına ittiham edir.

Ermənipərəst Fransa siyasi dairələri anlamalıdır ki, Azərbaycan öz torpaqlarında xarici işğalçı hərbi qüvvələrə qarşı müharibə aparmışdır və həmin ərazilər Azərbaycanın beynəlxalq hüquqda tanınan suveren əraziləridir. Heç bir qüvvə Azərbaycanı buna görə ittiham edə və Azərbaycanın hərbi birləşmələrinin bu ərazilərdən çıxarılmasını tələb edə bilməz.

2020-ci il noyabrın 10-da Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş nazirinin imzaladığı birgə bəyanatla Ermənistan və Azərbaycan arasında hərbi eskalasiyaya son qoyulmuş və regionda sülhün bərqərar olunması istiqamətində praktiki işlərə başlanmışdır. Təəssüflə qeyd edilməlidir ki, ATƏT-in Minsk qrupunun həmsədr ölkələrindən biri olan Fransa nə qədər paradoksal olsa da, bu razılaşmanı pozmağa və münaqişəni yenidən alovlandırmağa çalışır. Fransanın son vaxtlar bir sıra beynəlxalq təşkilatlarda ölkəmizə qarşı riyakar siyasət aparması Azərbaycan tərəfində ciddi narahatlıq və suallar doğurur.

Fransa Senatı əgər ədalət, beynəlxalq hüquq barədə bu qədər "narahatdır"sa, onda onun BMT Baş Assambleyasının qətnamələrinə və Qoşulmama Hərəkatının qərarlarına uyğun olaraq müstəmləkəçiliyin ən son nümunələrindən biri olan Qəmər adalarının Mayot adası məsələsini nəzərdən keçirməsi daha məntiqli olardı.

Bu qətnamənin qəbulunu Fransa siyasəti və parlamentarizmi üçün olduqca utancverici bir addım kimi dəyərləndiririk. Fransa hökuməti bu kimi təxribatçı addımların yolverilməz olmasına dair rəsmi mövqeyini bildirməli və qətnaməni qınayan bəyanat verməklə Azərbaycanın ərazi bütövlüyünə dəstəyini ifadə etməlidir".

# *Əli ƏHMƏDOV:* "Vasitəçiyə inam yoxdursa, demək o, artıq vasitəçi ola bilməz "

Qondarma Dağlıq Qarabağın tanınmasının tövsiyə edilməsinə dair Fransa Senatının qəbul etdiyi qətnamə, mübahisəsiz olaraq dünya miqyasında ən qeyri-obyektiv, zərərli və prinsipsiz sənəd hesab edilə bilər.



Sözügedən qətnamənin timsalında beynəlxalq ictimaiyyət vasitəçinin öz vəzifə borcuna məsuliyyətsiz və qeyri-səmimi yanaşmasının şahidi olub. BMT Təhlükəsizlik Şurasının verdiyi mandata uyğun olaraq Azərbaycan-Ermənistan münaqişəsinin nizama salınmasında vasitəçilik missiyasını öz üzərinə götürən dövlətlərdən biri kimi Fransadan tələb olunan ən mühüm şərt obyektivlik, tərəfsizlik və qərəzsizlikdir. Bütün siyasi nüanslara, simpatiya və antipatiya hallarına rəğmən, vasitəçi münaqişə tərəflərinin hər birinə qərəzsiz münasibət göstərməyi bacarmaq zorundadır. Fransa dövlətinin vaxtilə Prezident Fransua Mitteranın timsalında münaqişənin nizama salınmasında Minsk qrupunun həmsədrlərindən biri kimi tam qərəzsiz mövqe nümayiş etdirəcəyi ilə əlaqədar verdiyi vədlər unudulmayıb. Əslində, vasitəçilik missiyasına razılıq verən dövlətin qərəzsiz mövqedə durması siyasi əxlaq və beynəlxalq hüquqa hörmət məsələsidir. Bu mənada ayrıca vəd verməyə bəlkə də ehtiyac yoxdur. Münaqişə tərəflərinə münasibətdə qərəzsiz davranış sərgiləmək istəməyən və ya bacarmayan dövlət, sadəcə olaraq, vasitəçilik missiyasından imtina edir.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Respublikasının Baş nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədovun Fransa Senatının məlum qərarı ilə bağlı məqaləsində yer alıb.

Əli Əhmədov bildirib ki, Fransa Senatının noyabr ayının 25-də qondarma Dağlıq Qarabağın tanınması haqqında məsuliyyətsiz qətnaməsi bu ölkənin öz üzərinə götürdüyü öhdəliklərə onun qanunverici hakimiyyət orqanı nümayəndələrinin məhəl qoymaq fikrində olmadığını göstərir. Ədalət və bərabərlik kimi dəyərlər üzərində qurulan Fransa Respublikasında bir sıra siyasi xadimlərin, ələlxüsus Senatın üzvlərinin böyük bir hissəsinin ədalət anlayışı ilə bir araya sığmayan hərəkətlərinə təəssüflənməyə bilmirsən.

"Fransa dünyanın ən mühüm beynəlxalq qurumu olan Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının beş daimi üzvündən biridir. Daşıdığı beynəlxalq status Fransadan istənilən mübahisələrdə ədalətli mövqe nümayiş etdirmək məsuliyyəti tələb edir. Öz məsuliyyətini dərk etməyən dövlətin beynəlxalq münasibətlərlə əlaqədar taleyüklü qərar qəbul etmək, hakim rolunu oynamaq səlahiyyəti ciddi suallar doğurur. Fransa Senatının üzvləri erməni silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş torpaqlarından çıxarılması barədə BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi qətnamələrə Təhlükəsizlik Şurasının daimi üzvü kimi Fransa Respublikasının səs verdiyini bilməmiş deyillər. Onlar Fransa Senatının Dağlıq Qarabağ problemi ilə əlaqədar mövqeyinin BMT Təhlükəsizlik Şurasında qəbul edilmiş qətnamələrdə əks olunan beynəlxalq hüquq və prinsiplərinə zidd olduğunu da yaxşı anlayırlar. Görünür, bu qərarı qəbul edən siyasi xadimlər üçün eyni məsələ ilə bir-birinə daban-dabana zidd olan mövqe nümayiş etdirmək, beynəlxalq hüquqa hörmətsizlik göstərmək hər hansı narahatçılıq yaratmır. Əlbəttə, bu, onların seçimidir. Lakin ədalətli olmayan, bəyənilməyən, ölkənin BMT Təhlükəsizlik Şurasının daimi üzvü kimi adına və mövqeyinə yaraşmayan seçimdir.

ATƏT-in Minsk qrupunun öz fəaliyyətini nə vaxt və necə canlandıracağı hələ dumanlı görünür. Lakin Fransa Senatının qəbul etdiyi məlum qətnamənin Minsk qrupunun fəaliyyətinə ağır zərbə vurduğu şəksizdir. Xüsusilə də Azərbaycanın Minsk qrupunun həmsədri kimi Fransanın tərəfsizliyinə inamı ciddi şəkildə sarsılıb. Vasitəçiyə inam yoxdursa, demək o, artıq vasitəçi ola bilməz", - deyə Əli Əhmədov qeyd edib.

# Fransa Senatının qəbul etdiyi sənəd bu ölkənin üzərinə götürdüyü öhdəliklərlə bir araya sığmır

Fransa Senatında "Dağlıq Qarabağ respublikasının tanınmasının zəruriliyinə dair" qətnamənin qəbul edilməsi Fransanın dövlətlərin ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı kimi beynəlxalq hüququn əsas prinsiplərə məhəl qoymamasının əyani sübutudur. Bu addım BMT Nizamnaməsi və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin kobudcasına pozulması ilə yanaşı, dövlət sərhədlərinin tanınması, ərazi bütövlüyünün qorunması barədə "jus cogens" normalarının tələblərinə də tamamilə ziddir.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclis sədrinin müavini Adil Əliyev bildirib.

Adil Əliyev deyib: "Bir məqamı da qeyd etmək istərdim. Məlumdur ki, BMT Təhlükəsizlik Şurasının Azərbaycanın ərazi bütövlüyünü tanıyan və Ermənistan ordusunun işğal etdiyi ərazilərdən qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnaməsi mövcuddur. Həmin qətnamələrin qəbulunda iştirak edən Təhlükəsizlik Şurasının 5 daimi üzvündən biri də məhz Fransadır. Fransa bu 4 qətnamənin qəbul edilməsinə səs verib. Eyni zamanda, Fransa Ermənistanın təcavüzü nəticəsində baş vermiş münaqişənin həlli ilə əlaqədar yaradılmış ATƏT-in Minsk qrupunun həmsədridir. Bütün bunlara baxmayaraq, Fransanın bu müddət ərzində heç bir mövqe ortaya qoymaması, üstəlik, belə bir sənədin Senat tərəfindən qəbul edilməsi onu deməyə əsas verir ki, bu ölkə heç vaxt bu münaqişənin tənzimlənməsini istəməyib. Fransa bir vasitəçi olaraq üzərinə götürdüyü heç bir öhdəliyi icra etməyib.

Senatın qəbul etdiyi sənədin mahiyyətcə tövsiyə xarakteri daşımasına baxmayaraq, bu onu deməyə əsas verir ki, Fransadakı erməni lobbisi və ermənipərəst qüvvələrin bu təsisata güclü təsiri var. Yəni, Fransa öz devizində nəzərdə tutduğu "bərabərlik, qardaşlıq və azadlıq" ideyalarına yad qərarlar qəbul edir. Fransanın "Azadlıq" anlayışını illərlə Əlcəzair və digər Afrika ölkələrində yürütdüyü müstəmləkəçilik siyasətində görmək mümkündür. Fransanın öz mənfəəti qarşılığında bu dövlətlərin bütün təbii sərvətlərini talan etdiyini, vətəndaşlarına qarşı soyqırımlar törətdiyini bütün dünya bilir. İşğalçılıq, təcavüzkarlıq Fransa və Ermənistanın ortaq dəyərləri olaraq qəbul edilməlidir".

Milli Məclis sədrinin müavini diqqətə çatdırıb ki, Fransa rəsmi olaraq Azərbaycanın ərazi bütövlüyünü tanıyıb. Fransa Respublikasının münaqişənin həlli ilə bağlı mövqeyi dövlətin yüksəksəviyyəli rəsmiləri, o cümlədən ölkə Prezidenti və xarici işlər naziri tərəfindən dəfələrlə səsləndirilib. Fransa Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və bu mövqe istər ikitərəfli çərçivədə, istərsə də Avropa İttifaqı ilə imzalanan sənədlərdə öz əksini tapıb. Lakin Senatın belə bir sənəd qəbul etməsi onu deməyə əsas verir ki, Fransa özünü Ermənistandan daha artıq erməni dövləti hesab edir. Fikrimizcə, bu məsələdə Fransa tərəfsiz olmalı, sülhün bərqərar olmasında Rusiya və Türkiyə kimi yaxından iştirak etməli idi.

"Ermənistan öz məğlubiyyətini qəbul edərək kapitulyasiyanı imzalayıb və bundan irəli gələn öhdəlikləri yerinə yetirir. İlkin olaraq Ağdam şəhəri və rayonun kəndlərindən, dünən isə Kəlbəcər rayonundan düşmən öz qoşunlarını çıxarıb. Bu ərazilər Azərbaycan Ordusunun tam nəzarəti altındadır. Ermənistanın kapitulyasiya şərtlərini və beynəlxalq hüquqa uyğun olaraq üzərinə götürdüyü vəzifələri yerinə yetirdiyi vaxtda Fransanın belə bir sənəd qəbul etməsi onu deməyə əsas verir ki, bu dövlət münaqişənin tənzimlənməsində maraqlı olmayıb. Fransa Senatının qərəzli qətnamələr qəbul etmək əvəzinə, bölgədə sülh, sabitlik və tərəqqiyə xidmət edən fəaliyyətlə məşğul olması daha yaxşı olardı. Belə bir qətnamə qəbul edən ölkə nəinki Azərbaycan, dünyanın digər dövlətləri ilə də bərabər münasibətlər qura bilməz", - deyə Adil Əliyev vurğulayıb.



# İLHAM ƏLİYEV HÜNƏRİ

*Əvvəli 1-ci səh.*

**Sözün həqiqi mənasında böyük hünər, qəhrəmanlıq göstərdi!**

**Həmin on yeddi il ərzində gördüyü işləri, həyata keçirdiyi tədbirləri son nəticədə bu məqsədin gerçəkləşdirilməsinə müvəffəqiyyətlə yönləndirdi!**

Düşmənin öz xoşuna, sülh danışıqları yolu ilə torpaqları geri qaytarmayacağı bəlli idi.

MÜHARİBƏ ÜÇÜN İSƏ:

- güclü dövlət və güclü iqtisadiyyat;
- fəal və çevik diplomatiya;
- beynəlxalq qurum və təşkilatlarla səmərəli iş tələb edirdi;

ÜSTƏLİK:

- dünyanın aparıcı dövlətlərinin maraqları ilə Azərbaycanın maraqlarının uyğunlaşdırılmasını;
- Ermənistanı açıq-aşkar müdafiə edən dövlətlərin zərərsizləşdirilməsini;
- düşmənin səhvlərinin özünə qarşı yönəldilməsini;
- ölkəmizin dostlarının, haqq işimizi müdafiə edənlərin sayının artırılmasını;
- ən nəhayət, güclü və modern ordu yaradılmasını şərtləndirirdi!

**İlham Əliyev bu vəzifələrin öhdəsindən böyük məharətlə gəldi!**

Ancaq Ali Baş Komandanımız torpaqların azad edilməsini hərbi müstəviyə keçirməyə tələsmirdi.

Paşinyanın Ermənistan rəhbərliyinə gəlişi ilə daha da həyasızlaşan düşmən artıq həqarətə, açıq şəkildə danışıqlar prosesini pozmağa başlamışdı.

Əslində, Ermənistanın baş naziri "Qarabağ Ermənistandır" - deməklə torpaqları işğaldan azad etmək niyyətində olmadıqlarını nümayiş etdirdi.

*Cənab İlham Əliyev yenə səbir və təmkin göstərdi, dəfələrlə BMT-yə, ATƏT-ə, münaqişənin sülh yolu ilə həllinə kömək edə biləcək qurum və təşkilatlara müraciət etdi.*

*Faydası olmadı!*

**Bu dəfə Ali Baş Komandanımız yeni ərazilərimizi ələ keçirmək niyyəti ilə təmas xəttində və sərhədimizdə təxribatlara əl atan düşmənə Azərbaycan Ordusunun gücü ilə 2 dəfə - 2016-cı ilin aprelində və 2020-ci ilin Tovuz istiqamətindəki döyüşlərdə dərs verdi.**

**Amma Ermənistan həmin dərslərdən nəticə çıxarmadı!**

**Növbəti təxribatda isə Ali Baş Komandanımız "irəli" əmrini verdi!**

❖ ❖ ❖

*Bu gün İlham Əliyev öz əli ilə dünyada əllinci, MDB məkanında isə ikinci sayılan bir ordu yaradıb!*

*Müasir, modern, güclü ordu!*

*Ordunu ən yeni texnologiyalara əsaslanan silahlarla silahlandırıb.*

*Yüksək təhsilli, peşəkar, öz işini dərindən bilən zabit heyəti və vətənpərvər əsgərlərlə komplektləşdirib.*

*Orduda yüksək vətənpərvərlik və döyüş ruhu yaradıb.*

Bu ordu əks-hücuma başlayanda heç kim onun bu qədər uğurlu və müasir əməliyyatlar keçirə biləcəyini güman etmirdi.

Bəli, Azərbaycan əsgəri düşmənin ən uzaq və əlçatmaz mövqelərinə belə dəqiq, dağıdıcı zərbələr endirir, atəş nöqtələrini və istehkamlarını yerlə yeksan edirdi!

Düşmən göydən başına yağan od-alov qarşısında bayrağını, döyüş texnikasını, sursatını ataraq vahimə içində qaçırdı.

**İnformasiya müharibəsində də cənab İlham Əliyev hamıdan öndə gedirdi, bu cəbhənin də bütün ağırlığını öz üzərinə götürmüşdü.**

Hərbi əməliyyatların davam etdiyi dövrdə bütün dünyaya yayımlanan ən məşhur televiziya kanallarına Azərbaycanın haqq işini, ədalətli mübarizəsini əks etdirən müsahibələr verir, əsil həqiqətləri söyləyirdi.

Xalqımıza atılan böhtanları, deyilən yalanları ifşa edir, Ermənistanın faşist xislətini konkret faktlarla göstərirdi!

Azərbaycanı öz maraqları naminə günahkar çıxarmaq istəyənləri, bu mübarizənin və müharibənin mahiyyətini təhrif etməyə can atanları qətiyyətlə yerində oturdurdu!

*Çoxdan həsrətlə gözlədiyimiz qələbə müjdələrini də məhz Prezident İlham Əliyevin dilindən eşidir, onun Twitter səhifələrindən oxuyurduq.*

*Cənab İlham Əliyevin xalqa müraciətləri, hər bir çıxışı hər birimizin ürəyindən xəbər verir, yüksək emosionallığı, hədəfi vuran fikirləri, üslub və intonasiyası ilə ruhumuza su səpir, ürəyimizdən tikan çıxarırdı.*

*İlham Əliyevin belə çıxış və müraciətləri orduya yeni güc və qüvvət, xalqa böyük ruh yüksəkliyi və əminlik bəxş edirdi.*

**Eyni vaxtda üç cəbhədə döyüşmək, üç istiqamətdə çarpışmaq və hər üçündə də uğur və müvəffəqiyyət qazanmaq hər rəhbərə və sərkərdəyə nəsib olmayan hünərdir!**

Vətənpərvər insanlara xas olan hünər!

❖ ❖ ❖

**İlham Əliyev indiyədək beynəlxalq aləmdə yaradılmağa cəhd göstərilən bir sıra stereotipləri də darmadağın etdi.**

Ermənipərəst qüvvələr və erməniləri müdafiə edənlər sübut etməyə çalışırdılar ki, münaqişənin hərbi yolla həlli variantı yoxdur!

*Ali Baş Komandan İlham Əliyev isə Azərbaycan xalqının Vətən müharibəsində sübuta yetirdi ki, münaqişə əslində hərbi yolla daha sürətlə həll oluna bilərmiş!*

*O halda sülh yolu məqbul olardı ki, Ermənistan silahlandırılmasın, müxtəlif üsul və vasitələrlə müdafiə olunmasın, torpaqları işğalda saxlamaqda ona açıq və gizli dəstəklər verilməsin!*

*Ermənilərlə təkbətək döyüşən Azərbaycan çox qısa müddətdə və böyük şücaətlə 30 ildə ATƏT-in yarada bilmədiyi sülhə şərait yaratdı və boşalda bilmədiyi torpaqları boşaltdı!*

**Bu isə İlham Əliyevin diplomatik məharəti və müharibə aparmaq bacarığı sayəsində mümkün oldu!**

**İlham Əliyev tarixin qarşıya qoyduğu vəzifəni yerinə yetirdi!**

**İlham Əliyev haqqı-ədaləti bərpa etdi!**

**İlham Əliyev Azərbaycan xalqına şərəfli anlar, şərəfli dəqiqələr, şərəfli günlər yaşatdı!**

EYNİ ZAMANDA:

*İlham Əliyev ATƏT-in Minsk qrupunun 30 ildə görə bilmədiyi işləri çox qısa müddətdə gördü.*

*İlham Əliyev BMT-nin 4 qətnaməsini təkbaşına, uğurla icra etdi.*

*İlham Əliyev 30 illik söz-söhbətə, qalaq-qalaq icrasız qalan sənədlərə, standart açıqlamalara, boş və mənasız görüşlərə, erməni tirpaşlığına bir həmlə ilə son qoydu!*

*Erməni işğalçılarını Azərbaycandan iti qovan kimi qovdu!*

**İlham Əliyev hünəri bax, budur!**

**İlham Əliyev həm də Ulu Öndərimizin "Mən ona özüm qədər inanıram və əminəm ki, mənim sona çatdıra bilmədiyim işləri o uğurla başa çatdıracaqdır" sözlərini, xalqımızın etimad və etibarını tamamilə doğrultdu!**

**EŞQ OLSUN HÜNƏRVƏR, QƏHRƏMAN ALİ BAŞ KOMANDANIMIZA!**

**QARABAĞ BİZİMDİR!**

**QARABAĞ AZƏRBAYCANDIR!**

**Bəxtiyar SADIQOV**

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Heydər oğlu Əliyevə

Hörmətli cənab Prezident.

Rusiya Federasiyası Müsəlmanlarının Ruhani İdarəsi, Rusiya Müftilər Şurası adından və şəxsən öz adımdan Sizi səmimi salamlayır, Sizə sülh, Ulu Tanrının mərhəmətini və şəfqətini diləyir, Dağlıq Qarabağda müharibənin dayandırılması barədə bəyanatın imzalanması və uğurla yerinə yetirilməsi münasibətilə təbrik edirəm.

Mən bir din xadimi kimi, ilk növbədə, hərbi əməliyyatların başa çatması, atəşkəsin bərqərar olması və qan tökülməsinə son qoyulması, habelə köçkünlərin əvvəl işğal edilmiş ərazilərə qayıtması üçün şərait yaradılmasını yüksək qiymətləndirirəm. Bu bəyanat beynəlxalq aləmdə tanınmış hüquqi normalar çərçivəsindədir və BMT Təhlükəsizlik Şurasının daha əvvəl qəbul edilmiş qətnamələrinə uyğundur. Bu, həmçinin Rusiya Federasiyasının iştirakı ilə Azərbaycan və Ermənistan tərəfləri arasında bəyanatın könüllü şəkildə imzalanması ilə münaqişənin həll edilməsi faktı Dağlıq Qarabağ regionunun gələcəyinin prinsipial və mübahisəsiz həlli üçün möhkəm təməl olmalı, Dağlıq Qarabağın davamlı inkişafını, onun sakinlərinin təhlükəsizliyini və hüquqlarını təmin etməlidir.

Böyük sevinclə qeyd edirəm ki, Azərbaycan və bütün Azərbaycan xalqı Sizin müdrik rəhbərliyinizlə bu böyük sınaqdan uğurla çıxdı. Respublikanın dövlət hakimiyyəti ona həvalə edilmiş vəzifələri öz xalqı və bütün beynəlxalq birlik qarşısında şərəflə yerinə yetirdi. Münaqişənin sülh yolu ilə nizamlanmasında Rusiya Federasiyasının və şəxsən Vladimir Putinin həlledici rolunu da təbii, tarixi və mənəvi baxımdan haqlı hesab edirəm.

Ulu Tanrıya dua edirəm ki, Azərbaycan Respublikasında və bütün Cənubi Qafqaz regionunda sülh, qarşılıqlı anlaşma, firavanlıq bərqərar olsun. Bunun vacib şərti dini hüquq və azadlıqlara riayət edilməsi, bütün məzhəblərə məxsus insanların mənəvi ehtiyaclarına, müxtəlif dini ənənələrin, məbədlərin qorunub saxlanmasına və sərbəst fəaliyyətinə diqqət yetirilməsidir. Mən həm də tarixi və mədəni abidələrin, o cümlədən Uca Allaha qədim ibadət yerlərinin qaytarılması münasibətilə azərbaycanlı müsəlman qardaşlarımızın sevincinə böyük məmnuniyyətlə qoşuluram. Əminəm ki, bütün ibadət yerləri bərpa olunacaq və Müqəddəs Quranda bizə vəsiyyət edilən böyük ümumi işə xidmət edəcək: "Allahın köməyi və zəfər gəldiyi zaman və insanların dəstə-dəstə Allahın dininə daxil olduqlarını gördüyün zaman, Rəbbini həmd-səna ilə təqdis et və Ondan bağışlanmağını dilə. Həqiqətən, O, tövbələri qəbul edəndir!"

*Hörmətlə və səmimi dualarla,*

***Müfti şeyx Ravil QAYNUTDİN,***
***Rusiya Federasiyası Müsəlmanlarının Ruhani İdarəsinin və Rusiya Müftilər Şurasının sədri,***
***Rusiya Federasiyasının Prezidenti yanında Dini Qurumlarla Qarşılıqlı Əlaqə Şurasının üzvü***

## Natali QULE: "Senatın qəbul etdiyi qətnamənin heç bir əhəmiyyəti yoxdur"



"Mən bu qətnamə təklifini qəbul etmirəm. Bu təklif tarixi, siyasi və diplomatik baxımdan aydın deyil. Düşünürəm ki, bu, yalnız erməni lobbisinin məmnunluğu üçündür və heç bir əhəmiyyəti yoxdur".

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Fransa Senatının üzvü Natali Qule deyib.

Natali Qule bildirib ki, Fransa Minsk qrupunun həmsədri kimi neytral olmalıdır, lakin Ermənistanın tərəfini tutur. Bu, yolverilməzdir. Əsas təəccüb doğuran məqamlardan biri də Azərbaycana aid olan qətnamədə Türkiyəyə qarşı da hücumların olmasıdır.

Senatın üzvü qeyd edib ki, bu ədalətsiz qətnamənin heç bir nəticəsi olmayacaq. Fransa mövcud olmayan bir "respublika"nı tanımayacaq. Heç Ermənistanın özü bu qondarma "respublika"nı tanımayıb.

Natali Qule bildirib ki, qətnamənin qəbul olunmasının digər səbəblərindən biri də bəzi senatorların çoxsaylı erməni elektoratının olmasıdır. Qətnamənin lehinə səs verən senatorların çoxu Qarabağı xəritədə göstərə bilməzlər, çünki onlar heç bilmirlər o haradadır. BMT-nin qətnamələrində Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş ərazilərini tərk etməsi tələb olunurdu, lakin heç kim tərpənmirdi. Otuz il davam edən münaqişəyə etinasız olan, onunla maraqlanmayan siyasətçilər Rusiyanın iştirakı ilə atəşkəsə nail olunandan sonra sanki "qəflət yuxusundan ayıldılar".

# Fransa haqsızlığın və işğalçının yanındadır

## Bu ölkənin qanunverici orqanı bir daha sübut etdi ki, erməni lobbisinin əsiridir

44 gün davam edən müharibənin yekununda Azərbaycanın Ermənistana qalib gələrək ərazi bütövlüyünü təmin etməsi Fransanın siyasi dairələrinin dərin pərişanlığına səbəb olub. Ümumiyyətlə isə, hərbi əməliyyatların ilk günündən başlayaraq, Azərbaycana təsir etmək yolunu tutan bu ölkənin rəhbərliyi öz neytrallığını tamamilə unudaraq ermənipərəst mövqeyini açıq şəkildə büruzə verdi. Noyabrın 25-də Fransa Senatının "Dağlıq Qarabağ Respublikasının tanınması zərurəti" adlı qətnaməni qəbul etməsi də göstərdi ki, bu ölkə öz imperialist xislətinə uyğun olaraq Ermənistanın işğalçılıq siyasətinə açıq dəstək verir, beynəlxalq hüquqa qarşı hörmətsizlik edir.

Xatırladaq ki, qətnamə layihəsi Fransa Senatına erməni diasporunun və lobbisinin təsiri altında olan bir qrup senator tərəfindən noyabrın 18-də təqdim edilmişdi. Sonrakı müddətdə tələsik formada Senat tərəfindən müzakirəyə çıxarılmış və iki gün öncə qəbul olunmuşdu.

Senatın iclası başlayan kimi məlum olub ki, qətnamə layihəsi kimi müzakirələr də qərəzlidir. Bu mənada Senatda qondarma rejimlə diplomatik münasibətlərin qurulmasını nəzərdə tutan qətnamə layihəsinin müzakirəsi fikir mübadiləsindən daha çox 12 senatorun qərəzli, reallıqdan uzaq çıxışı ilə yadda qaldı. Müzakirələr zamanı Azərbaycanın mövqeyini müdafiə edən, Dağlıq Qarabağ münaqişəsində obyektiv fikirlər səsləndirən senatorların çıxışına isə icazə verilmədi. Əsasən, qətnamə layihəsinin müəllifləri çıxış ediblər. Onlar ermənilərin Fransada kompakt yaşadığı regionlardan seçilən senatorlardır. Bu baxımdan sirr deyil ki, həm qətnamənin layihəsinin müəlliflərini, həm də ona səs verənləri daha çox qarşıdan gələn seçkilərdə Fransa ermənilərinin səsləri və erməni lobbisinin dəstəyi maraqlandırır.

Qətnamənin mətnindən də aydın olur ki, onun müəlliflərini Dağlıq Qarabağın erməni əhalisinin taleyindən çox Azərbaycan və Türkiyənin güclənməsi, birlik nümayiş etdirməsi narahat edir. Bundan başqa, Dağlıq Qarabağ münaqişəsinin tərəfləri Azərbaycan və Ermənistan olsa da, Türkiyənin adı qətnamə layihəsində daha çox çəkilib. Məlum olduğu kimi, artıq Qərb və bəzi Avropa ölkələri dünya siyasi arenasında öz dominantlığını itirməkdədir. Bu gün ayrı-ayrı dövlətlər yerləşdikləri bölgənin və regionun nüfuz sahibinə çevrilirlər. Türkiyənin son illərdə bölgədə, ümumilikdə dünyada nüfuzunun və mövqelərinin artdığı faktdır. Bəzi ölkələrdə baş qaldıran siyasi gərginliklər, hakimiyyət dəyişiklikləri fonunda Türkiyənin nüfuz dairəsinin artması dünyada etiraf olunan reallıqdır. Türkiyə həm də NATO-nun üzvü kimi aparıcı mövqeyə malikdir. Təbii ki, imperializm nostalgiyasını hələ unutmayan Fransa Türkiyənin nüfuz savaşındakı qalibiyyətindən rahat ola bilmir. Eyni zamanda iqtisadi böhran dövrünü yaşayan Avrozonanın qonşuluğunda bir müsəlman dövlətinin sürətli inkişafı bəzi Avropa ölkələrində, o cümlədən Fransada siyasi dairələr tərəfindən qısqanclıqla qarşılanır.

Onu da qeyd edək ki, Fransa qondarma erməni soyqırımını hələ 2001-ci ildə tanımaqla türk dünyasına qarşı açıq qərəzini, qeyri-səmimi münasibətini ortaya qoyub. Bu ölkənin siyasi dairələrində Türkiyəyə qarşı qərəzli münasibət həmişə özünü açıq şəkildə göstərib.

Maraqlıdır ki, müzakirələr zamanı məlum olub ki, Senat üzvlərinin bir çoxunun müharibənin başa çatmasından və tərəflər arasında razılıq əldə edilməsindən ümumiyyətlə xəbərləri yoxdur. Çünki bəzi senatorların militarist bəyanatlarını başqa cür izah etmək mümkün deyil. Məsələn, senator Stefan Ravie deyib ki, Fransadakı erməni gənclər vətənlərinə dönərək vuruşmaq istəyirlər və onların yolu açılmalı, QHT-lər də bunlara yardımçı olmalıdır. Beləcə, Dağlıq Qarabağ münaqişəsinin detalları haqqında heç bir təsəvvürü olmayan, münaqişənin hazırkı mərhələsindən xəbərsiz, hətta çıxışları belə dinləməyən senatorlar səs verərək qərəzli qətnaməni qəbul ediblər. Beləliklə, bunun açıq şəkildə əvvəlcədən planlaşdırılmış təxribat olduğu ortadadır.

Azərbaycan Milli Məclisində Fransa Senatının qəbul etdiyi qərəzli qətnaməyə etiraz bəyanatı qəbul olunub. Bəyanatda deyilir ki, işğal edilmiş Azərbaycanın ərazilərində qeyri-qanuni yaradılan oyuncaq qurumun mövcudluğuna noyabrın 10-da son qoyulub. Fransa Senatının qətnaməsində Azərbaycan tərəfindən Ermənistana qarşı Türkiyə Silahlı Qüvvələrinin iştirak etməsinə dair əsassız və saxta iddialar irəli sürülüb. Noyabrın 10-da imzalanmış üçtərəfli bəyanat Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyub, BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi və Fransanın özünün dəstəklədiyi və digər mötəbər qurumların qəbul etdiyi qərarları təmin edib.

Beləliklə, Senatın qətnaməsindən aydın olur ki, bu ölkə həm də Rusiya və Türkiyənin irəli sürdükləri təşəbbüsləri, münaqişənin həlli ilə bağlı atdıqları addımların praktiki nəticələrə səbəb olmasını həzm edə bilmirlər.

Fransanın dünyanın müxtəlif bölgələrində həyata keçirdiyi ekspansionist siyasəti Cənubi Qafqazda da reallaşdırmaq cəhdləri onun demokratiya və humanizm idealları ilə pərdələnmiş simasını bir daha aydın nümayiş etdirir. Bununla da fransız siyasətçilər, ilk növbədə, öz maraqlarına zərbə vururlar. Fransa Senatının isə demokratik dəyərlərə qarşı olduğu çoxdan bəlli idi. Bu qərarla isə Senat bir daha göstərdi ki, dövlətçilik maraqlarından yox, erməni lobbisinin mənafelərindən çıxış edən bir cılız qurumdur.

Fransanın hakim siyasi dairələrinin Ermənistana "sevgisi" anlaşılandır. Bu ölkədə erməni lobbisi bir çox məsələləri həll edə bilir. Fransa Senatının qondarma qurumu tanımaq barədə qətnaməni qəbul etməsi də bir çox məqsədə xidmət edir. Seçkidən-seçkiyə erməni lobbisinin maliyyəsini əldə etmək senatorlar üçün olduqca cəlbedicidir. Amma Fransa dövlətinin xarici siyasətini Senat yox, hökumət müəyyən edir. Senatın qərarları isə tövsiyə xarakteri daşıyır. Sənədin hüquqi qüvvəsi olmasa da, siyasi anlamı var. Senatın belə bir qətnamə qəbul etməsi, Azərbaycanla ikitərəfli münasibətlərə ciddi xələl gətirməklə yanaşı, özünü demokratik dəyərlərin müdafiəçisi elan edən Fransanın tarixinə qara səhifə kimi həkk olunacaq.

Bu qətnamə Azərbaycan üçün tamamilə mənasız və əhəmiyyətsizdir. Amma Fransa göstərdi ki, haqsızlığın və işğalçının yanındadır. Senat isə bir daha sübut etdi ki, erməni lobbisinin əsiridir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Azərbaycan Fransaya nota verib

Noyabrın 26-da Fransanın Azərbaycandakı səfiri Zakari Qros Xarici İşlər Nazirliyinə çağırılıb.

Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsindən bildiriblər ki, görüşdə noyabrın 25-də Fransa Senatı tərəfindən "Dağlıq Qarabağ respublikasının tanınması zərurəti" adlı qətnamənin qəbul edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin etiraz notası səfirə təqdim olunub.

Beynəlxalq hüququn norma və prinsipləri, BMT Nizamnaməsi, Helsinki Yekun Aktı, BMT Təhlükəsizlik Şurasının 1993-cü il tarixli müvafiq qətnamələrinə zidd olan Senatın bu qətnaməsi ilə bağlı qəti etiraz Fransa diplomatının diqqətinə çatdırılıb. Fransa səfiri Azərbaycan XİN-in mövqeyinin rəsmi Parisin diqqətinə çatdırılacağını bildirib.

***AZƏRTAC***

## *Azərbaycan XİN:* "Senatın qəbul etdiyi qətnamənin hüquqi qüvvəsi yoxdur"

Öncə qeyd etmək istərdik ki, Fransa Senatında qəbul edilmiş "Dağlıq Qarabağ Respublikasının tanınması zərurəti" adlı qətnamə təklifi bir qrup qatı ermənipərəst senator tərəfindən irəli sürülüb. Azərbaycan Respublikasının Fransadakı səfiri qətnamənin səsverməsindən bir gün öncə Senatın dinləmə prosedurlarına uyğun olaraq Senat üzvləri qarşısında çıxış edib və qətnamə təklifi ilə bağlı, burada əks olunan birtərəfli və həqiqətə uyğun olmayan məqamlarla bağlı ətraflı məlumat təqdim edib. Buna rəğmən Senat tərəfindən tamamilə qərəzli qətnamənin qəbul edilməsi, yalnız təxribat kimi qiymətləndirilə bilər. Görünür, Fransa erməniləri münaqişə mövzusundan seçki məqsədləri üçün geniş şəkildə istifadə edirlər.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin şərhində yer alıb.

Vurğulamaq istərdik ki, Senatın qəbul etdiyi qətnamənin hüquqi qüvvəsi yoxdur. Lakin qətnamənin siyasi məna kəsb etdiyini nəzərə alaraq, vasitəçi mandatı daşıyan bir ölkənin belə bir qətnamə ilə çıxış etməsi ölkənin bitərəfliliyini ciddi şübhə altına alır. Bu, həmçinin Azərbaycan ictimaiyyətində Fransanın ədalətli vasitəçi nüfuzuna xələl gətirir.

Əlbəttə, onu da qeyd etməliyik ki, Fransa Respublikasının münaqişənin həlli ilə bağlı rəsmi mövqeyi dövlətin yüksəksəviyyəli rəsmiləri, o cümlədən ölkə Prezidenti və xarici işlər naziri tərəfindən səsləndirilib. Fransa Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və bu mövqe istər ikitərəfli çərçivədə, istərsə də Avropa İttifaqı ilə imzalanan sənədlərdə öz əksini tapıb. Fransanın Avropa və Xarici İşlər üzrə Nazirliyinin Senatda keçirilən müzakirələrdə çıxış edən dövlət katibi də rəsmi mövqeyi çıxışında ifadə etdi.

Fransa Senatının qərəzli qətnamələr qəbul etmək əvəzinə bölgədə sülh, sabitlik və tərəqqiyə xidmət edən fəaliyyətlə məşğul olması həm Fransanın maraqlarına cavab verər, həm də bölgənin dayanıqlı inkişafına yardımçı olardı.



## Türkiyə XİN: "Fransa Senatının Azərbaycana öz torpaqlarından çəkilmək çağırışı etməsi gülüncdür"

Fransa Senatının Dağlıq Qarabağla bağlı qəbul etdiyi qətnamə beynəlxalq hüququn, qanunun və ədalətin əsas prinsiplərinə hörmətsizliyin bariz nümunəsidir. Qətnamədə Türkiyəyə qarşı irəli sürülən əsassız iddiaları kəskin şəkildə rədd edirik. Fransa Senatının qətnaməsi bu ölkənin də həmsədr olduğu ATƏT-in Minsk qrupunun niyə bugünə qədər münaqişəni çözmədiyini və tərəfkeşlik etdiyini də açıq şəkildə göstərir.




AZƏRTAC xəbər verir ki, bu fikirlər Türkiyə Xarici İşlər Nazirliyinin açıqlamasında yer alıb.

Açıqlamada deyilir ki, Azərbaycan Ermənistanın əvvəlcə Tovuzda, sonra Qarabağdakı hücumlarına və təxribatlarına qarşı lazımi cavab verib və təxminən otuz il idi ki, işğal altında saxlanılan torpaqlarını azad edərək ərazi bütövlüyünü yenidən təmin edib. Azərbaycanın cəbhədə qazandığı nəticə BMT qətnamələrində əksini tapmış, Fransanın da həmsədr olduğu Minsk prosesində qeydə alınmış, ancaq həyata keçirilməmiş haqlarının təcəssümüdür. BMT-nin qətnamələri Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarından dərhal və qeyd-şərtsiz çəkilməsini tələb edir. Belə olduğu halda, Fransa Senatının Azərbaycanı işğaldan azad etdiyi torpaqlarından çəkilməyə çağırması qeyri-ciddi və gülüncdür, tərəfkeşliyin təzahürüdür. Heç bir gerçəyə uymayan, sağlam düşüncədən uzaq bu qərar Fransanın məsələnin həlli üçün səy göstərmək imkanını da məhdudlaşdırır. Senatın qətnaməsində Fransa hökumətinin də qəbuledilməz hesab etdiyi məqamlar əks olunur. Qətnamədə Türkiyə ilə bağlı fikirlərin yer alması təəccüblü olmasa da, düşündürücüdür.

Türkiyə XİN-in açıqlamasında təxminən otuz il davam edən Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı hazırkı mərhələdə Fransanın artıq düzgün nəticələr çıxararaq bölgənin sabitliyə qovuşması üçün konstruktiv mövqedə olmasının vacibliyi qeyd edilir. Bunun üçün mövcud gerçəkliklərə uyğun hərəkət edərək beynəlxalq hüquq əsasında səylər göstərmək yetərlidir.

## Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında əməkdaşlığın genişləndirilməsinə dair müzakirələr aparılıb

Noyabrın 26-da Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Səudiyyə Ərəbistanı Krallığının xarici işlər naziri Faysal bin Ferhan Al Saud arasında telefon danışığı olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazirlər bölgədəki son vəziyyəti müzakirə edib, o cümlədən tam atəşkəs və hərbi əməliyyatların dayandırılması ilə əlaqədar imzalanmış 10 noyabr tarixli üçtərəfli bəyanatın icrası və bu sənəddən irəli gələn bir sıra məsələlərin həyata keçirilməsinin vacibliyini, onun bölgədə sülh və rifahın təmin edilməsi baxımından əhəmiyyətini vurğulayıblar.

Nazirlər, eyni zamanda, ölkələr arasında mövcud olan ikitərəfli əməkdaşlığın inkişafından bəhs ediblər, habelə çoxtərəfli çərçivələrdə əməkdaşlıq imkanlarının genişləndirilməsinə dair müzakirələr aparıblar.

Tərəflər, eyni zamanda, qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

## Azərbaycan ilə Əfqanıstan arasında əməkdaşlığın genişləndirilməsi imkanları müzakirə olunub

Noyabrın 25-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Əfqanıstan İslam Respublikasının xarici işlər naziri Məhəmməd Hənif Atmar arasında telefon danışığı olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazirlər bölgədəki son vəziyyəti müzakirə ediblər. Noyabrın 10-da imzalanmış üçtərəfli bəyanatın icrasının vacibliyi qeyd olunub. Bəyanatdan irəli gələn bir sıra məsələləri müzakirə edən tərəflər razılaşmanın bölgədə dayanıqlı sülh, təhlükəsizlik və rifahın təmin olunması baxımından vacibliyini vurğulayıblar.

Nazirlər, eyni zamanda, ölkələr arasında ikitərəfli müstəvidə əməkdaşlığın inkişafını məmnunluqla qeyd edib, eləcə də çoxtərəfli platformalarda əməkdaşlığın genişlənməsi imkanlarını müzakirə ediblər.

Tərəflər həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

## Azərbaycan və İndoneziya xarici işlər nazirləri arasında telefon danışığı olub

Noyabrın 26-da Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və İndoneziya Respublikasının xarici işlər naziri Retno Marsudi arasında telefon danışığı olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazirlər bölgədə mövcud vəziyyəti müzakirə edib, o cümlədən tam atəşkəs və hərbi əməliyyatların dayandırılması ilə əlaqədar imzalanmış üçtərəfli bəyanatın icrasının vacibliyini vurğulayıblar. Birgə bəyanatın bölgədə dayanıqlı sülh və inkişafın təmin edilməsi baxımından əhəmiyyətini qeyd ediblər.

Nazirlər, həmçinin ölkələr arasındakı ikitərəfli münasibətləri müzakirə edib, eyni zamanda, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın genişlənməsinə dair fikir mübadiləsi aparıblar.

## *Hulusi AKAR:* "Fransa Qarabağ məsələsində problemin bir hissəsi olduğunu növbəti dəfə göstərdi"

"Fransa Qarabağ münaqişəsinin həllində maraqlı deyil, problemin bir hissəsi olduğunu növbəti dəfə göstərdi".



AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyənin milli müdafiə naziri Hulusi Akar Fransa Senatının qərəzli qətnaməsi ilə əlaqədar açıqlamasında bildirib.

Türkiyəyə məxsus gəmidə aparılan axtarışla əlaqədar Qərbin açıqlamalarına toxunan nazir qeyd edib ki, onlar vəziyyətin hüququzidd olduğunu bildikləri üçün günahı bir-birilərinin üzərinə atmağa çalışırlar.

# Noyabr Azərbaycan üçün düşərli aydır

## Bu ay ölkəmizin dövlətçilik, hərb və neft-qaz sənayesi tarixində mühüm hadisələrlə zəngindir

*Əvvəli 1-ci səh.*

Biz noyabr ayının 12-də Azərbaycan Respublikasının Konstitusiya Gününü, 17-də isə Milli Dirçəliş Gününü qeyd edirik. Bu ayın mühüm hadisələrlə necə zəngin olduğunu neft-qaz sənayesi tariximizə nəzər saldıqda da aydın görmək mümkündür.

**71 il əvvəlin təqvimindəki 7 noyabr** sonralar Neft Daşları adını almış mədən-şəhərin "doğum günü" olmaqla bərabər, həm də tarixə dünyada dəniz nefti erasının başlandığı gün kimi düşüb.

1949-cu ilin həmin günü Xəzərin açıq qoynunda ilk quyunun fontan vurduğu vaxtdan indiyədək buradan fasiləsiz olaraq neft və qaz çıxarılır. Ehtiyatlar isə hələ çoxdur."Neft Daşları" NQÇİ-nin (Neft və Qazçıxarma İdarəsi) əməkçiləri bu karbohidrogenləri dənizin dibindən böyük ustalıqla çıxarırlar.

"Möcüzələr adası" adlandırılan bu məkan polad dirəklər üstündə qərar tutan əfsanəvi dəniz şəhəri kimi 71 ildir dünyanı heyrətə gətirir. Bütün bunlar Xəzərin fırtınalı qoynunda ekstremal şəraitdə işləyən Azərbaycan neftçisinin fədakar əməyinin, ona hərtərəfli qayğısını getdikcə artıran Azərbaycan dövlətinin dəstəyinin nəticəsidir.

**23 il əvvəl noyabr ayının əvvəlində** "Çıraq" platformasından hasilata başlanması ilə AÇG ("Azəri-Çıraq-Günəşli") yataqlarından əməliyyatlara start verilib.

1997-ci il noyabrın 12-də bu münasibətlə platformada təntənəli mərasim keçirildi. Ulu Öndər Heydər Əliyevin tədbirdə iştirak etməsi və AÇG tərəfdaşlarının nümayəndələri, neftçilər, xarici ölkələrdən gəlmiş qonaqlar qarşısında çıxış etməsi bu hadisənin önəmini bir daha təsdiqlədi.

Hər bir yataqdan hasilata başlanması iqtisadi cəhətdən böyük əhəmiyyət daşıyır, ölkənin neft sənayesində mühüm hadisə sayılır. "Çıraq"dan ilk neftin alındığı gün isə bütövlükdə Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı. Çünki bu, həmin vaxt iqtisadi durumu çox zəif olan ölkənin dirçəlişinə və böyük gələcəyinə hesablanmış "Əsrin müqaviləsi" çərçivəsində çıxarılan ilk neft idi.

AÇG Azərbaycanın iqtisadi inkişafının təmin edilməsində misilsiz rol oynadı. Onun ardınca digər neft-qaz və ixrac layihələri ölkənin böyük həcmdə valyuta ehtiyatları əldə etməsinə imkan verdi. Azərbaycan dövləti bu ehtiyatlardan səmərəli istifadə edərək onları ölkənin əsas inkişaf istiqamətlərinə yönəltdi. 1999-cu ildə Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində Azərbaycan Respublikası Dövlət Neft Fondu(ARDNF) yaradıldı.

Neft-qaz gəlirlərindən bəhs edərkən Prezident İlham Əliyev demişdir: "Əsrin kontraktı"nın nəticələri, sadəcə olaraq, Neft Fonduna gələn gəlirlərlə ölçülmür. Bunun çox geniş və çox böyük təsiri olub və bu gün də var. Biz "qara qızıl"ı insan kapitalına çevirə bildik. Biz neft gəlirlərimizdən çox səmərəli şəkildə istifadə etdik və bu gün dünya miqyasında bu, xüsusilə qeyd edilir. Bir çox ölkələrin zəngin neft yataqları var, ancaq o ölkələr səfalət içindədir, yoxsulluq şəraitində yaşayırlar. O ölkələrdə sabitlik pozulur, neft o ölkələrə fəlakət gətirir. Azərbaycanda isə neft rifah, inkişaf, sabitlik, güc gətirir".











**21 il əvvəl noyabrın 18-də** İstanbul zirvə toplantısında Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin marşrutunu müəyyənləşdirən sənəd imzalanıb.

1999-cu il noyabrın 18-də BTC qarşısında yaşıl işıq yandıran bu sazişin imzalanması Ulu Öndər Heydər Əliyevin siyasi uzaqgörənliyi və dünyadakı nüfuzu sayəsində mümkün oldu. Sənədə beş ölkənin - Azərbaycanın, Gürcüstanın, Türkiyənin, ABŞ-ın və Qazaxıstanın dövlət başçıları imza atdılar. Bu, uzun bir yolun, böyük bir yüksəlişin başlanğıcı idi. O vaxt söhbət yalnız BTC-dən getsə də, əslində irəliyə doğru nəhəng addım atılaraq neçə-neçə qlobal layihə üçün təməl qoyulurdu.

Prezident İlham Əliyev bir çox çıxışlarında BTC-nin getdikcə artan əhəmiyyətini dönə-dönə vurğulayıb. Qeyd edib ki, düzgün strategiyanın icra edilməsi, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikilməsi nəticəsində biz artıq pəncərədən başlayaraq böyük qapı açmışıq. Azərbaycan beynəlxalq enerji ailəsinə daxil ola bilib. Bu, Azərbaycanın həm siyasi, həm iqtisadi baxımdan böyük uğurlar əldə etməsinə təkan verib.

Ulu Öndər Heydər Əliyevin adını şərəflə daşıyan kəmər 14 ildən çoxdur Azərbaycan neftini dünya bazarlarına fasiləsiz, təhlükəsiz ixrac edir. Kəmərə eləcə də müəyyən həcmdə Qazaxıstan, Türkmənistan və Rusiya nefti vurulur. BTC-nin daşıdığı neft indiyədək Ceyhan limanında 4595 tankerə yüklənərək dünya bazarlarına yola salınıb.

**Bu il noyabrın 15-də** Trans-Adriatik Qaz Boru Kəməri (TAP) kommersiya əməliyyatlarına başlayıb. Peşəkarlardan ibarət çoxmilli sənaye komandası "Cənub qaz dəhlizi"nin bu hissəsini vaxtında və etibarlı şəkildə sona çatdırıb.

TAP "Cənub qaz dəhlizi"nin Avropa qoludur. Onun tikintisinə Yunanıstanın Saloniki şəhərində dörd il yarım əvvəl başlanmışdı. Bu, Azərbaycandan Avropa bazarlarına 10 milyard kubmetr yeni qaz tədarükünü həyata keçirəcək qovşaq layihəsidir. Kəmərin potensialı onun ötürücülük gücünü iki dəfə artıraraq ildə 20 milyard kubmetrə çatdırmağa imkan verir.

TAP-ın uzunluğu 878 kilometrdir. Kəmər Yunanıstanda 550, Albaniyada 215 kilometr məsafə qət edir. Sonra Adriatik dənizinin dibi ilə 105 kilometr irəliləyərək İtaliyada sahilə çıxır. Burada kəmərin marşrutu 8 kilometr uzanır və "Snam Pete Gas" qazötürmə sisteminə çatır.

Xatırladaq ki, TAP Avropaya Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən nəhəng "Şahdəniz" yatağından hasil olunan təbii qazı nəql edir. Kəmər Türkiyə-Yunanıstan sərhədində - Kipoi məntəqəsində Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) ilə birləşir.

TAP Avropa üçün strateji və iqtisadi əhəmiyyət daşıyır və yeni təbii qaz mənbəyinə etibarlı çıxışı təmin edir. Kəmər Avropanın enerji təhlükəsizliyinin möhkəmlənməsində, təchizatın diversifikasiyasında, həmçinin karbon emissiyasının azaldılmasında mühüm rol oynayır. Sistem keyfiyyət, sağlamlıq, təhlükəsizlik və ətraf mühitin mühafizəsi üzrə beynəlxalq standartlara uyğun fəaliyyət göstərir.

***Flora SADIQLI, "Azərbaycan"***

# Azərbaycan Respublikasının Əmək Məcəlləsində, "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Təhsil haqqında", "Məktəbəqədər təhsil haqqında", "Peşə təhsili haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında" və "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Əmək Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 213; 2001, № 3, maddə 143, № 6, maddə 362, № 11, maddələr 672, 679, № 12, maddə 731; 2002, № 1, maddə 2, № 5, maddə 241, № 6, maddə 328; 2003, № 1, maddələr 9, 23; 2004, № 1, maddə 10, № 2, maddə 57, № 3, maddə 133, № 6, maddə 413, № 7, maddə 505, № 9, maddə 672, № 12, maddə 981; 2005, № 3, maddə 151, № 4, maddə 278, № 7, maddə 560, № 10, maddə 874, № 11, maddə 1001, № 12, maddə 1094; 2006, № 3, maddələr 220, 222, № 5, maddə 385, № 11, maddə 923, № 12, maddələr 1004, 1025, 1030; 2007, № 5, maddələr 401, 437, № 6, maddə 560, № 8, maddə 756, № 11, maddələr 1049, 1053; 2008, № 3, maddə 156, № 7, maddələr 600, 602, № 10, maddə 887, № 11, maddə 960; 2009, № 2, maddə 48, № 5, maddə 294, № 6, maddə 399, № 12, maddələr 949, 969; 2010, № 2, maddələr 70, 75, № 4, maddə 275; 2011, № 1, maddə 11, № 2, maddələr 70, 71, № 6, maddə 464, № 7, maddə 598; 2012, № 11, maddə 1054; 2013, № 2, maddələr 89, 101, № 11, maddə 1268; 2014, № 2, maddə 92, № 10, maddə 1162, № 11, maddə 1339, № 12, maddə 1527; 2015, № 2, maddə 97, № 3, maddə 250, № 6, maddə 680; 2016, № 2 (I kitab), maddələr 190, 201, № 5, maddə 847, № 11, maddə 1767; 2017, № 6, maddələr 1031, 1048, № 12 (I kitab), maddələr 2187, 2189; 2018, № 1, maddə 13, № 6, maddə 1155, № 7 (I kitab), maddələr 1380, 1408, № 12 (I kitab), maddə 2532; 2019, № 1, maddə 35, № 4, maddə 570, № 5, maddələr 796, 804, № 7, maddə 1182, № 8, maddə 1380; 2020, № 1, maddə 1, № 5, maddə 522, № 7, maddə 832) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 12-ci maddənin 2-ci hissəsinə "habelə" sözündən əvvəl "qanunla pedaqoji fəaliyyətlə məşğul olması qadağan edilən şəxslə pedaqoji fəaliyyətlə məşğul olmaq üçün əmək müqaviləsi bağlayan," sözləri əlavə edilsin;

1.2. 66-cı maddənin on ikinci abzasında, 70-ci maddənin "Qeyd" hissəsinin birinci cümləsində "və peşə təhsili (tam orta təhsil üzrə təhsilverənlərə münasibətdə) müəssisələrində" sözləri "müəssisələrində (ümumi təhsil üzrə təhsilverənlərə münasibətdə digər dövlət təhsil müəssisələrində)" sözləri ilə əvəz edilsin;

1.3. 67-1-ci maddənin 5-ci hissəsində "əsas ola bilər" sözləri "əsasdır" sözü ilə əvəz edilsin;

1.4. 67-2-ci maddə üzrə:

1.4.1. adında və 1-ci hissədə "və peşə təhsili (tam orta təhsil üzrə təhsilverənlərə münasibətdə) müəssisələrində" sözləri "müəssisələrində (ümumi təhsil üzrə təhsilverənlərə münasibətdə digər dövlət təhsil müəssisələrində)" sözləri ilə əvəz edilsin;

1.4.2. 4-cü hissədə "əsas ola bilər" sözləri "əsasdır" sözü ilə əvəz edilsin;

1.5. 74-cü maddənin 1-ci hissəsinin "ə)" bəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və həmin hissəyə aşağıdakı məzmunda "f)" bəndi əlavə edilsin:

"f) qanunla pedaqoji fəaliyyətlə məşğul olması qadağan edilmiş şəxslə pedaqoji fəaliyyətlə məşğul olmaq üçün əmək müqaviləsinin bağlandığı aşkar edildikdə.".

**Maddə 2.** "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 442; 2008, № 7, maddə 602; 2011, № 2, maddə 71; 2015, № 2, maddə 83; 2017, № 7, maddə 1258; 2019, № 5, maddə 797; 2020, № 6, maddə 664, № 7, maddə 828) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.0.9-cu maddədə "yaradılmış" sözü "xüsusi dövlət təhsil standartları və proqramları əsasında təhsil prosesini həyata keçirən" sözləri ilə əvəz edilsin;

2.2. 1.0.12-ci maddə aşağıdakı redaksiyada verilsin:

"1.0.12. inklüziv təhsil - sağlamlıq imkanları məhdud olan uşaqların ümumi təhsil müəssisəsində xüsusi şərait yaratmaqla və xüsusi təlim vasitəsilə sağlam şagirdlərlə eyni sinifdə təhsilə cəlb edilməsi;";

2.3. 1.0.15-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 1.0.16-cı və 1.0.17-ci maddələr əlavə edilsin:

"1.016. müəllim köməkçisi - inklüziv təhsilin həyata keçirildiyi ümumi təhsil müəssisələrində pedaqoji prosesin təşkilində müəllimə kömək edən ixtisaslı mütəxəssis;

1.0.17. stasionar təhsil - uzunmüddətli müalicədə olan şəxslər üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş qaydada ümumi təhsilin müalicə müəssisələrində müvafiq təhsil proqramlarına uyğun təşkili.";

2.4. 12-ci maddə üzrə:

2.4.1. adında və 12.1-ci maddədə "inteqrasiyalı" sözü "inklüziv" sözü ilə əvəz edilsin;

2.4.2. 12.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"12.3. İnklüziv təhsilin təşkili qaydasını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) müəyyən edir.";

2.5. 24.3-cü maddədə "yekun qiymətləndirilməsini (attestasiyasını)" sözləri "yekun attestasiyasını" sözləri ilə əvəz edilsin.

**Maddə 3.** "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 1, maddə 8; 2005, № 1, maddə 1, № 8, maddə 700; 2006, № 2, maddə 70; 2008, № 2, maddə 49; 2010, № 4, maddə 265; 2012, № 1, maddə 2, № 7, maddə 651; 2013, № 12, maddə 1479; 2014, № 2, maddə 78, № 7, maddə 769, № 11, maddə 1356, № 12, maddə 1526; 2015, № 11, maddə 1259; 2016, № 4, maddə 644, № 10, maddə 1606; 2017, № 5, maddələr 709, 724, № 10, maddə 1775; 2018, № 12 (I kitab), maddələr 2471, 2531; 2019, № 1, maddələr 16, 21, № 2, maddə 176, № 6, maddə 999, № 7, maddə 1203; 2020, № 6, maddə 675, № 8, maddə 1017) 5.4.9-cu maddəsinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 5.4.10-cu maddə əlavə edilsin:

"5.4.10. təsisçisi (təsisçiləri) əcnəbilər, vətəndaşlığı olmayan şəxslər və ya xarici hüquqi şəxslər olan, o cümlədən nizamnamə kapitalının və ya səhmlərinin 51 faizdən çoxu əcnəbilərə, vətəndaşlığı olmayan şəxslərə və ya xarici hüquqi şəxslərə məxsus təhsil müəssisəsinin rəhbərinin və onun müavininin namizədliyinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla) razılaşdırılması barədə sənəd.".

**Maddə 4.** "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 684; 2011, № 2, maddə 70; 2014, № 1, maddə 3; 2015, № 11, maddə 1266; 2016, № 1, maddə 41, № 11, maddə 1766; 2017, № 2, maddə 145, № 5, maddə 691, № 7, maddələr 1277, 1300, № 12 (I kitab), maddə 2202; 2018, № 7 (I kitab), maddələr 1381, 1409, № 11, maddə 2208; 2019, № 5, maddə 798, № 7, maddə 1190, № 8, maddə 1382, № 11, maddə 1684, № 12, maddə 1881; 2020, № 5, maddə 508, № 6, maddələr 662, 669, № 7, maddələr 824, 830) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 1.0.6-cı, 1.0.6-1-ci maddələrdə, 36-2-ci maddənin adında, 36-2.1-ci, 36-2.2-ci və 36-2.4-cü maddələrdə "və peşə təhsili (tam orta təhsil üzrə təhsilverənlərə münasibətdə) müəssisələrində" sözləri "müəssisələrində (ümumi təhsil üzrə təhsilverənlərə münasibətdə digər dövlət təhsil müəssisələrində)" sözləri ilə əvəz edilsin;

4.2. 2.1-ci maddəyə "Peşə təhsili haqqında" sözlərindən əvvəl "Ümumi təhsil haqqında"," sözləri əlavə edilsin;

4.3. 5.2-ci maddədə "milliyyətindən" sözü "etnik mənsubiyyətindən" sözləri ilə əvəz edilsin;

4.4. 6.7-ci maddəyə "xüsusi" sözündən sonra "təhsilin" sözü əlavə edilsin;

4.5. 7.2-ci maddənin birinci cümləsinə "dövlət təhsil standartları" sözlərindən sonra "və ya beynəlxalq səviyyədə akkreditasiya olunan təhsil proqramları" sözləri əlavə edilsin;

4.6. 13.2-ci maddədə "və fərdi" sözləri ", fərdi təhsil və stasionar" sözləri ilə əvəz edilsin;

4.7. 14-cü maddə üzrə:

4.7.1. 14.5.2-ci maddəyə "inteqrasiya təlimli internat tipli təhsil müəssisələri" sözlərindən sonra ", valideyn himayəsindən məhrum uşaqlar üçün ümumtəhsil internat məktəbləri, inteqrasiya təlimli ümumi təhsil müəssisələri, inteqrasiya təlimli internat tipli təhsil müəssisələri, inteqrasiya təlimli internat tipli gimnaziyalar," sözləri əlavə edilsin;

4.7.2. 14.7-ci maddə aşağıdakı redaksiyada verilsin:

"14.7. Ucqar kənd yerlərində şagirdlərin sayından asılı olmayaraq, ibtidai və ümumi orta ümumtəhsil məktəblərinin azkomplektli formada fəaliyyətinə yol verilir. Şagirdlərin sayı az olan ibtidai siniflərdən komplekt siniflər təşkil olunur.";

4.7.3. 14.10-cu maddəyə "müəssisələrində" sözündən sonra "(dövlət ümumi təhsil müəssisələri istisna olmaqla)" sözləri və aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Dövlət ümumi təhsil müəssisəsində təhsilalanların geyim formaları "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müəyyən edilir.";

4.8. 16.4-cü maddənin ikinci cümləsində "sertifikatın" sözü "şəhadətnamənin" sözü ilə əvəz edilsin;

4.9. 17.2-ci maddənin ikinci cümləsindən "qiymətləndirmənin və ya" sözləri çıxarılsın;

4.10. 19-cu maddə üzrə:

4.10.1. 19.4-cü maddə aşağıdakı redaksiyada verilsin:

"19.4. Azərbaycan Respublikasında ümumi təhsil pilləsi məktəbəhazırlıq mərhələsini, ibtidai, ümumi orta və tam orta təhsil səviyyələrini əhatə edir.";

4.10.2. 19.6-cı maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Ümumtəhsil məktəbi ibtidai, ümumi orta və tam orta məktəb formasında ayrı-ayrılıqda da təşkil oluna bilər.";

4.10.3. 19.7-ci maddədə "fiziki inkişafını təmin etmək və müxtəlif" sözləri "idman və" sözləri ilə əvəz edilsin;

4.10.4. 19.8-ci maddədə "medalla" sözü "nişanla" sözü ilə əvəz edilsin;

4.10.5. 19.9-cu və 19.13-cü maddələr aşağıdakı redaksiyada verilsin:

"19.9. İbtidai təhsilin məqsədi təhsilalanlara oxu, yazı və hesablama bacarıqları, vətənpərvərlik və Azərbaycan xalqının dəyərlərinə, dövlət rəmzlərinə hörmət hissi aşılamaq, onlarda insan, cəmiyyət və təbiət haqqında ilkin biliklər, şəxsiyyətin formalaşdırılmasına yönəlmiş həyati bacarıqlar, sadə əmək vərdişləri, məntiqi təfəkkür elementləri, bədii-estetik keyfiyyətlər və digər xüsusiyyətlər formalaşdırmaqdan ibarətdir.";

"19.13. Ümumi orta təhsilin məqsədi təhsilalanlarda nitq, yazı və ünsiyyət mədəniyyətinin, sağlam həyat tərzinin formalaşdırılmasını, onların dövlətə və dövlətçiliyə, Azərbaycan xalqının dəyərlərinə və ümumbəşəri dəyərlərə sədaqət ruhunda tərbiyə olunmasını, insan hüquq və azadlıqlarına hörmətlə yanaşmasını, idrak fəallığının və məntiqi təfəkkürünün inkişafını, müvafiq təhsil proqramı üzrə əldə etdiyi bilikləri tətbiq etmək, müasir informasiya-kommunikasiya texnologiyalarından istifadə etmək, cəmiyyətdə baş verən hadisələri dəyərləndirmək, öz gələcək həyat yolunu və fəaliyyət istiqamətlərini müəyyənləşdirmək, müstəqil öyrənmə və qərar qəbuletmə bacarığını, peşə seçiminə və əmək fəaliyyətinə hazırlığını təmin etməkdən ibarətdir.";

4.10.6. 19.14-cü maddənin üçüncü cümləsinə "qəbulu," sözündən sonra "şagirdlərin" sözü əlavə edilsin;

4.10.7. 19.16-cı maddə ləğv edilsin;

4.10.8. 19.17-ci, 19.19-cu, 19.20-ci və 19.21-ci maddələr aşağıdakı redaksiyada verilsin:

"19.17. Tam orta təhsil səviyyəsində təhsilalanların istedad və qabiliyyətinin reallaşdırılması, müstəqil həyata hazırlanması, onlarda fəal vətəndaş mövqeyinin və rəqabətqabiliyyətliliyin, ümumbəşəri dəyərlərə tolerant münasibətin formalaşdırılması, müasir informasiya mənbələrindən sərbəst və səmərəli istifadə etməsi, iqtisadi dünyagörüşə yiyələnməsi, xarici dillərdən birində, yaxud bir neçəsində ünsiyyət saxlaması və s. təmin olunur.";

"19.19. Ümumi təhsilin tam orta təhsil səviyyəsində təhsil təmayüllər üzrə (humanitar, texniki, təbiət və s.) təşkil edilir. Təmayül sinifləri şagirdlərin sayı ən azı 15 nəfər olmaqla komplektləşdirilir. Tədris ili ərzində təmayül siniflərində şagird sayının azalması həmin siniflərin fəaliyyətinin davam etdirilməsinə məhdudiyyət yaratmır.

19.20. Ümumi təhsil pilləsinin ümumi orta və tam orta təhsil səviyyələrini başa vuran təhsilalanların təhsildə nailiyyətlərinin qiymətləndirilməsi və dövlət təhsil sənədinin verilməsi məqsədilə ümumi təhsil müəssisələrinin buraxılış siniflərində (IX və XI sinif) müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada təhsilalanların yekun attestasiyası keçirilir və nailiyyətlərinə görə təhsilalanlara attestat, fərqlənmə attestatı və xüsusi nümunəli attestat verilir.

19.21. Ümumi təhsil haqqında dövlət sənədi növbəti səviyyədə və pillədə təhsili davam etdirmək və ya əmək fəaliyyətinə başlamaq üçün əsas sayılır.";

4.11. 29-cu maddə üzrə:

4.11.1. 29.0.2-ci və 29.0.3-cü maddələrdən "milli" sözü çıxarılsın;

4.11.2. 29.0.29-cu maddədə "və peşə təhsili (tam orta təhsil üzrə təhsilverənlərə münasibətdə) müəssisələrində" sözləri "müəssisələrində (ümumi təhsil üzrə təhsilverənlərə münasibətdə digər dövlət təhsil müəssisələrində)" sözləri ilə əvəz edilsin və həmin maddəyə "attestasiyanı" sözündən əvvəl "yekun" sözü əlavə edilsin;

4.11.3. 29.0.33-cü maddədə "tədris" sözü "tədris-metodik" sözləri ilə əvəz edilsin;

4.11.4. 29.0.36-cı maddəyə "texnologiyaları" sözündən sonra ", rəqəmsal tədris resursları" sözləri əlavə edilsin;

4.11.5. 29.0.43-cü maddədə "və peşə təhsili (tam orta təhsil üzrə təhsilverənlərə münasibətdə) müəssisələrinin" sözləri "müəssisələrinin (ümumi təhsil üzrə təhsilverənlərə münasibətdə digər dövlət təhsil müəssisələrinin)" sözləri ilə əvəz edilsin;

4.12. 30-cu maddə üzrə:

4.12.1. 30.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"30.3. Bələdiyyə və özəl təhsil müəssisəsində ali idarəetmə orqanı həmin təhsil müəssisəsinin nizamnaməsi ilə müəyyən olunur.";

4.12.2. 30.4-cü maddə ləğv edilsin;

4.13. 31-ci maddə üzrə:

4.13.1. 31.0.2-ci maddədə "məktəb uşaq birliklərinin" sözləri "uşaq birliyi" sözləri ilə, "təhsil müəssisəsinin kitabxanaçıları" sözləri "laborantlar, kitabxanaçılar, sosial xidmət sahəsinin işçiləri" sözləri ilə əvəz edilsin və həmin maddəyə "məşqçilər," sözündən sonra "təhsil müəssisələrində pedaqoji və idarəetmə fəaliyyəti ilə məşğul olan digər şəxslər, habelə" sözləri əlavə edilsin;

4.13.2. aşağıdakı məzmunda 31.0.2-1-ci maddə əlavə edilsin:

"31.0.2-1. tədrisə köməkçi heyət - tibbi xidmət işçiləri və digər işçilər;";

4.13.3. 31.0.4-cü maddəyə "təhsili" sözündən əvvəl "təsisçilər, həmçinin" sözləri əlavə edilsin;

4.14. 32-ci maddə üzrə:

4.14.1. 32.3.2-ci maddədə "və tədris dilini" sözləri ", tədris dilini və xarici dili" sözləri ilə əvəz edilsin;

4.14.2. 32.3.3-cü maddəyə "dövlət" sözündən əvvəl "mənəvi-psixoloji cəhətdən sağlam pedaqoji mühitdə" sözləri əlavə edilsin;

4.14.3. 32.3.4-cü maddəyə "məşğuliyyəti" sözündən sonra ", o cümlədən dərsdənkənar məşğələni (fakültativ kursları)" sözləri əlavə edilsin;

4.14.4. 32.3.6-cı maddəyə "kitabxanalardan" sözündən əvvəl "laboratoriyalardan," sözü əlavə edilsin;

4.14.5. 32.3.10-cu maddədə "sağlamlıq" sözü "həyat və sağlamlığı" sözləri ilə əvəz edilsin;

4.14.6. 32.3.11-ci və 32.3.18-ci maddələr aşağıdakı redaksiyada verilsin:

"32.3.11. şərəf və ləyaqəti aşağılayan, fiziki, mənəvi və psixoloji zorakılıq hallarından, insan hüquqlarına zidd hərəkətlərdən müdafiə olunmaq;";

"32.3.18. təhsillə bağlı inkişafyönlü tədbirlərdə (olimpiada, bilik yarışları, fənn müsabiqələri, konfrans, seminar, proqram və layihələr) iştirak etmək;";

4.14.7. 32.3.13-cü maddəyə "orqanının" sözündən sonra "müəyyən etdiyi orqanın (qurumun)" sözləri əlavə edilsin;

4.14.8. aşağıdakı məzmunda 32.3.18-3-cü, 32.5.1-1-ci və 32.5.1-2-ci maddələr əlavə edilsin:

"32.3.18-3. bilik və bacarıqlarını təkmilləşdirmək üçün məktəbdənkənar təhsil müəssisələrinin imkanlarından istifadə etmək;";

"32.5.1-1. üzrsüz səbəblərdən dərsdənyayınma hallarına yol verməmək, verilən tapşırıqları vaxtında və keyfiyyətlə yerinə yetirmək;

32.5.1-2. sağlam həyat tərzi keçirmək;";

4.15. 33-cü maddə üzrə:

4.15.1. 33.2.2-ci maddəyə "etmək" sözündən sonra ", təkliflər irəli sürmək" sözləri əlavə edilsin;

4.15.2. 33.2.3-cü maddəyə "seçmək" sözündən sonra ", tədris-metodik vəsaitlərlə təmin olunmaq" sözləri əlavə edilsin;

4.15.3. 33.2.5-ci maddədə "və müvafiq hallarda seçkili" sözləri ", seçkili" sözü ilə əvəz edilsin;

4.15.4. 33.2.6-cı maddədən "ixtisasını artırmaq," sözləri çıxarılsın;

4.15.7. 33.3.2-ci maddəyə "proqramlarının" sözündən sonra "(kurikulumların)" sözü və "etmək" sözündən sonra ", keyfiyyətli təhsil vermək" sözləri əlavə edilsin;

4.15.8. 33.3.4-cü maddədən "şəxsi nümunəsi ilə" sözləri çıxarılsın;

4.15.9. 33.3.5-ci maddəyə "pedaqoji" sözündən əvvəl "etik davranış qaydalarına," sözləri əlavə edilsin;

4.15.10. aşağıdakı məzmunda 33.3.5-1-ci maddə əlavə edilsin:

"33.3.5-1. daxili intizam qaydalarına əməl etmək və əmək müqaviləsi ilə müəyyənləşdirilmiş əmək funksiyalarını yerinə yetirmək;";

4.15.11. 33.3.7-ci maddəyə "çəkindirmək" sözündən sonra ", təhsilalanların təhlükəsizliyinin və sağlamlığının mühafizəsində iştirak etmək" sözləri əlavə edilsin;

4.15.12. 33.3.8-ci maddəyə "aparmaq," sözündən sonra "qabaqcıl pedaqoji təcrübələri, müasir interaktiv təlim metodlarını, innovasiyaları öyrənmək və tətbiq etmək," sözləri əlavə edilsin;

4.15.13. aşağıdakı məzmunda 33.3.8-1-ci və 33.3.8-2-ci maddələr əlavə edilsin:

"33.3.8-1. valideynlərlə əməkdaşlıq etmək, təhsilalanların təlim nailiyyətləri barədə valideynləri məlumatlandırmaq;

33.3.8-2. təhsil müəssisəsinin rəhbərliyi, psixoloqu və həmkarları ilə əməkdaşlıq etmək, təhsilalanların təlimi və inkişafı ilə bağlı məsləhətləşmələr aparmaq;";

4.15.14. 33.3.9-cu maddədə "və peşə təhsili (tam orta təhsil üzrə təhsilverənlərə münasibətdə) müəssisələrində" sözləri "müəssisələrində (ümumi təhsil üzrə təhsilverənlərə münasibətdə digər dövlət təhsil müəssisələrində)" sözləri ilə əvəz edilsin;

4.16. aşağıdakı məzmunda 34.2.2-1-ci maddə əlavə edilsin:

"34.2.2-1. təhsil müəssisəsinin daxili intizam qaydalarına riayət etmək, işgüzar nüfuzunu qorumaq;";

4.17. 35.1-ci maddəyə "Dövlət" sözündən sonra "və bələdiyyə" sözləri əlavə edilsin;

4.18. 36.1-ci maddədə ikinci cümlə üçüncü cümlə hesab edilsin və aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Təhsil müəssisələrində təhsilverənlərin sosial müdafiəsi bu Qanunla, "Ümumi təhsil haqqında", "Peşə təhsili haqqında", "Məktəbəqədər təhsil haqqında" Azərbaycan Respublikasının qanunları və Azərbaycan Respublikasının digər qanunları ilə, həmçinin təhsil müəssisəsinin nizamnaməsi ilə müəyyən edilir.";

4.19. 36.4-cü maddəyə "məhdud," sözündən sonra "inklüziv təhsili həyata keçirən," sözləri əlavə edilsin;

4.20. 36.5-ci maddədə "orqanı" sözü "orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin;

4.21. 41-ci maddə üzrə:

4.21.1. adına "sahibkarlıq" sözündən sonra "və innovasiya" sözləri əlavə edilsin;

4.21.2. 41.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"41.1. Təhsil müəssisəsi öz nizamnaməsi çərçivəsində profilinə və fəaliyyət istiqamətlərinə uyğun olaraq, təhsilin prioritetliyini əsas götürməklə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi sahibkarlıq fəaliyyəti növləri ilə və innovasiya fəaliyyəti ilə məşğul ola bilər.";

4.21.3. 41.2-ci maddənin ikinci cümləsinə "təhsilin inkişafına" sözlərindən sonra ", təhsilalanların həvəsləndirilməsinə" sözləri əlavə edilsin;

4.21.4. aşağıdakı məzmunda 41.4-cü və 41.5-ci maddələr əlavə edilsin:

"41.4. Sahibkarlıq və innovasiya fəaliyyətini təmin etmək üçün təhsil müəssisəsinin nəzdində müvafiq təcrübə-istehsalat sahələri yaradıla, əlavə məşğələlər keçirilə, ödənişli əsaslarla dərnəklər, maraq kursları, sərgilər və s. təşkil oluna bilər.

41.5. Təhsil müəssisəsi işçilərinin səmərələşdirici təkliflərlə çıxış etmək və innovasiya fəaliyyəti ilə məşğul olmaq hüququ vardır.".

**Maddə 5.** "Məktəbəqədər təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 6, maddə 1012; 2019, № 6, maddə 986, № 12, maddə 1881; 2020, № 6, maddə 664, № 7, maddələr 831, 851) aşağıdakı dəyişikliklər edilsin:

5.1. 1.0.11-ci maddədə "kadr" sözü "işçi" sözü ilə əvəz edilsin;

5.2. 4.0.16-cı maddədə "kadrlarla" sözü "işçilərlə" sözü ilə əvəz edilsin;

5.3. 12.1-1-ci maddəyə aşağıdakı məzmunda üçüncü-beşinci cümlələr əlavə edilsin:

"Təsisçisi (təsisçiləri) əcnəbilər, vətəndaşlığı olmayan şəxslər və ya xarici hüquqi şəxslər olan, o cümlədən nizamnamə kapitalının və ya səhmlərinin 51 faizdən çoxu əcnəbilərə, vətəndaşlığı olmayan şəxslərə və ya xarici hüquqi şəxslərə məxsus məktəbəqədər təhsil müəssisəsinin rəhbərinin müavini Azərbaycan Respublikasının vətəndaşı olmalıdır. Bu təhsil müəssisəsinin rəhbərinin və onun müavininin namizədliyi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla) razılaşdırılır. Həmin təhsil müəssisəsinin dövlət qeydiyyatına alınması təhsil müəssisəsi rəhbərinin və onun müavininin namizədliyi razılaşdırıldıqdan sonra həyata keçirilir.";

5.4. 13.5-ci maddənin birinci cümləsində "sertifikatın" sözü "şəhadətnamənin" sözü ilə əvəz edilsin.

**Maddə 6.** "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1152; 2019, № 5, maddə 799, № 6, maddə 986, № 11, maddə 1685; 2020, № 5, maddələr 508, 514, № 7, maddələr 831, 851) aşağıdakı dəyişikliklər edilsin:

6.1. 10.10-cu maddə aşağıdakı redaksiyada verilsin:

"10.10. Peşə təhsili üzrə qeyri-formal və informal təhsil formaları vasitəsilə əldə edilmiş bilik, bacarıq, səriştə və təcrübənin qiymətləndirilməsi və tanınması "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 17.4-cü maddəsinə uyğun olaraq həyata keçirilir.";

6.2. aşağıdakı məzmunda 12.3-1-ci maddə əlavə edilsin:

"12.3-1. Təsisçisi (təsisçiləri) əcnəbilər, vətəndaşlığı olmayan şəxslər və ya xarici hüquqi şəxslər olan, həmçinin nizamnamə kapitalının və ya səhmlərinin 51 faizdən çoxu əcnəbilərə, vətəndaşlığı olmayan şəxslərə və ya xarici hüquqi şəxslərə məxsus peşə təhsil müəssisəsinin rəhbərinin müavini Azərbaycan Respublikasının vətəndaşı olmalıdır. Bu təhsil müəssisəsinin rəhbərinin və onun müavininin namizədliyi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla) razılaşdırılır. Həmin təhsil müəssisəsinin dövlət qeydiyyatına alınması təhsil müəssisəsi rəhbərinin və onun müavininin namizədliyi razılaşdırıldıqdan sonra həyata keçirilir.";

6.3. 13.7-ci maddədə "sertifikatın" sözü "şəhadətnamənin" sözü ilə əvəz edilsin;

6.4 13.8-ci maddənin birinci cümləsində "tam orta" sözləri "ümumi" sözü ilə əvəz edilsin.

**Maddə 7.** "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 7 (I kitab), maddə 1386; 2019, № 3, maddə 381, № 5, maddə 797, № 8, maddə 1382; 2020, № 7, maddə 831) aşağıdakı dəyişikliklər edilsin:

7.1. 1.0.15-ci maddəyə "digər şəxslərlə" sözlərindən əvvəl "xüsusi şərait yaratmaqla və xüsusi təlim vasitəsilə" sözləri əlavə edilsin;

7.2. 20.1-ci maddəyə "Təhsil haqqında"," sözlərindən sonra "Ümumi təhsil haqqında"," sözləri əlavə edilsin.

**Maddə 8.** "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 789; 2020, № 6, maddə 664, № 7, maddə 851) aşağıdakı dəyişikliklər edilsin:

8.1. 1.0.21-ci maddədə "yaradılması və" sözləri "yaratmaqla" sözü ilə əvəz edilsin;

8.2. 1.0.24-cü maddə ləğv edilsin;

8.3. 1.0.33-cü maddədə "sabit fiziki, psixi, əqli və ya hissiyyat pozuntuları" sözləri "fiziki çatışmazlığı, əqli və (və ya) psixi ləngimələri" sözləri ilə əvəz edilsin;

8.4. 4.0.29-cu maddədə ismin müvafiq hallarında "kadrlar" sözü ismin müvafiq hallarında "işçilər" sözü ilə əvəz edilsin;

8.5. 13.8-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Dövlət ümumi təhsil müəssisələrində günüuzadılmış qrupların təşkili qaydasını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) müəyyən edir.";

8.6. 18.2-ci maddədə "xidmət" sözü "yardım" sözü ilə əvəz edilsin;

8.7. 19.1-ci və 19.2-ci maddələrdə "orqanının" sözü "orqanının müəyyən etdiyi orqanın (qurumun)" sözləri ilə əvəz edilsin;

8.8. 20.3-cü maddəyə "Qanun," sözündən sonra "Publik hüquqi şəxslər haqqında" və" sözləri əlavə edilsin və həmin maddədə "Qanunu" sözü "qanunları" sözü ilə əvəz edilsin;

8.9. 23.2.5-ci maddədə "ixtisas dərəcəsini" sözləri "ixtisas və elmi dərəcəsini" sözləri ilə əvəz edilsin;

8.10. 31.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"31.2. Sahibkarlıq və innovasiya fəaliyyətini təmin etmək üçün təhsil müəssisəsinin nəzdində müvafiq təcrübə-istehsalat sahələri yaradıla, əlavə məşğələlər keçirilə, ödənişli əsaslarla dərnəklər, maraq kursları, sərgilər və s. təşkil oluna bilər.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 oktyabr 2020-ci il*

# "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Təhsil haqqında", "Məktəbəqədər təhsil haqqında", "Peşə təhsili haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında" və "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 6 oktyabr tarixli 185-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2001-ci il 19 iyun tarixli 540 nömrəli, "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2004-cü il 12 aprel tarixli 48 nömrəli, "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli, "Məktəbəqədər təhsil haqqında" Azərbaycan Respublikasının 2017-ci il 14 aprel tarixli 585-VQ nömrəli Qanununun tətbiqi barədə" 2017-ci il 19 iyun tarixli 1471 nömrəli, "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1071-VQ nömrəli Qanununun tətbiqi barədə" 2018-ci il 18 iyun tarixli 140 nömrəli, "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli 1189-VQD nömrəli Qanununun tətbiqi haqqında" 2018-ci il 5 iyul tarixli 164 nömrəli və "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1532-VQ nömrəli Qanununun tətbiqi barədə" 2019-cu il 27 may tarixli 711 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Təhsil haqqında", "Məktəbəqədər təhsil haqqında", "Peşə təhsili haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında" və "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 6 oktyabr tarixli 185-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikası Qanununun 1.0.17-ci və 12.3-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 1.0.17-ci və 12.3-cü maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.3. "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun 5.4.10-cu maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.4. həmin Qanunun 5.4.10-cu maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Təhsil Nazirliyi nəzərdə tutulur;

1.5. "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 19.20-ci, 32.3.13-cü, 36.5-ci və 41.1-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.6. həmin Qanunun 19.20-ci, 32.3.13-cü (ümumi təhsil pilləsində təhsilalanların yekun attestasiyası ilə bağlı biliyin yenidən qiymətləndirilməsi üzrə), 36.5-ci və 41.1-ci maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.7. həmin Qanunun 32.3.13-cü (ümumi təhsil pilləsində təhsilalanların yekun attestasiyası ilə bağlı biliyin yenidən qiymətləndirilməsi istisna olmaqla) maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Təhsil Nazirliyi nəzərdə tutulur;

1.8. "Məktəbəqədər təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 12.1-1-ci maddəsinin dördüncü cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.9. həmin Qanunun 12.1-1-ci maddəsinin dördüncü cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Təhsil Nazirliyi nəzərdə tutulur;

1.10. "Peşə təhsili haqqında" Azərbaycan Respublikası Qanununun 12.3-1-ci maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.11. həmin Qanunun 12.3-1-ci maddəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Təhsil Nazirliyi nəzərdə tutulur;

1.12. "Ümumi təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 13.8-ci maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.13. həmin Qanunun 13.8-ci maddəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Təhsil Nazirliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. "Ümumi təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 31.5-ci maddəsinə uyğun olaraq, ümumi təhsil müəssisələrinin Azərbaycan Respublikasına gətirdiyi avadanlıq, cihaz, qurğu və təhsil fəaliyyəti məqsədilə digər vasitələrə münasibətdə güzəşt və imtiyazların tətbiqinə dair təkliflərini üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Təhsil haqqında", "Məktəbəqədər təhsil haqqında", "Peşə təhsili haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında" və "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 6 oktyabr tarixli 185-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyun tarixli 540 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 477; 2012, № 12, maddə 1270; 2017, № 7, maddə 1330; 2018, № 10, maddə 2019; 2020, № 7, maddə 876) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bənddə "5.0.1-ci, 11.1-ci" sözləri "1.0.17-ci, 5.0.1-ci, 11.1-ci, 12.3-cü" sözləri ilə əvəz edilsin;

3.2. 2.2-ci bənddən "12.3-cü," sözləri çıxarılsın;

3.3. aşağıdakı məzmunda 2.2-1-ci bənd əlavə edilsin:

"2.2-1. həmin Qanunun 1.0.17-ci və 12.3-cü maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;".

4. "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 aprel tarixli 48 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 4, maddə 228; 2005, № 8, maddə 708, № 9, maddə 801, № 12, maddə 1103; 2006, № 12, maddə 1034; 2008, № 2, maddə 54; 2012, № 1, maddə 6; 2013, № 12, maddə 1529; 2014, № 2, maddə 103; 2016, № 3, maddə 465, № 9, maddə 1464, № 10, maddə 1637; 2017, № 5, maddə 846, № 9, maddə 1653, № 10, maddə 1803, № 12 (I kitab), maddə 2319; 2018, № 12, maddə 2614; 2019, № 2, maddə 211; 2020, № 8, maddə 1029) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.1-ci bəndə "5-1.1-ci " sözlərindən əvvəl "5.4.10-cu," sözləri əlavə edilsin;

4.2. aşağıdakı məzmunda 2.7-1-ci bənd əlavə edilsin:

"2.7-1. həmin Qanunun 5.4.10-cu maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Təhsil Nazirliyi nəzərdə tutulur;".

5. "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 685; 2012, № 3, maddə 197, № 4, maddə 289, № 6, maddə 532; 2016, № 1, maddə 76, № 11, maddələr 1804, 1828, № 12, maddə 2086; 2017, № 7, maddə 1360, № 10, maddə 1800, № 12 (I kitab), maddə 2313; 2018, № 2, maddə 216, № 12 (I kitab), maddə 2545; 2019, № 5, maddə 848, № 7, maddə 1229, № 8, maddə 1398; 2020, № 5, maddə 549, № 7, maddə 868) aşağıdakı dəyişikliklər edilsin:

5.1. 2.1-ci bənddə "20.2-ci maddəsində" sözləri "19.20-ci və 20.2-ci maddələrində" sözləri ilə əvəz edilsin və həmin bəndə "36-1.1-ci" sözlərindən əvvəl "32.3.13-cü, 36.5-ci," sözləri, "36-2.2-ci" sözlərindən sonra ", 41.1-ci" sözləri əlavə edilsin;

5.2. 2.2-ci bənd üzrə:

5.2.1. "32.3.13-cü (ümumi təhsil pilləsində təhsilalanların yekun attestasiyası ilə bağlı biliyin yenidən qiymətləndirilməsi üzrə), 36.3-cü, 36.5-ci, 41.1-ci maddələrində" sözləri "36.3-cü maddəsində" sözləri ilə əvəz edilsin;

5.2.2. "26.5-3-cü," sözlərindən sonra "32.3.13-cü (ümumi təhsil pilləsində təhsilalanların yekun attestasiyası ilə bağlı biliyin yenidən qiymətləndirilməsi üzrə), 36.5-ci," sözləri, "21.2-1-ci" sözlərindən əvvəl "19.20-ci maddəsində," sözləri, "36-2.2-ci" sözlərindən sonra ", 41.1-ci" sözləri əlavə edilsin;

5.2.3. "və peşə təhsili (tam orta təhsil üzrə təhsilverənlərə münasibətdə) müəssisələrində" sözləri "müəssisələrində (ümumi təhsil üzrə təhsilverənlərə münasibətdə digər dövlət təhsil müəssisələrində)" sözləri ilə, "və peşə təhsili (tam orta təhsil üzrə təhsilverənlərə münasibətdə) müəssisələrinin" sözləri "müəssisələrinin (ümumi təhsil üzrə təhsilverənlərə münasibətdə digər dövlət təhsil müəssisələrinin)" sözləri ilə əvəz edilsin;

5.3. 2.3-cü bənddən "32.3.13-cü (ümumi təhsil pilləsində təhsilalanların yekun attestasiyası ilə bağlı biliyin yenidən qiymətləndirilməsi istisna olmaqla)," sözləri çıxarılsın və həmin bəndə "36-1.3-cü" sözlərindən əvvəl "32.3.13-cü (ümumi təhsil pilləsində təhsilalanların yekun attestasiyası ilə bağlı biliyin yenidən qiymətləndirilməsi istisna olmaqla)," sözləri əlavə edilsin;

5.4. 2.12.1-ci yarımbənddə "üzrə səlahiyyətləri" sözləri ", eləcə də yenidən təşkili və ləğvi üzrə səlahiyyətlərini" sözləri ilə əvəz edilsin.

6. "Məktəbəqədər təhsil haqqında" Azərbaycan Respublikasının 2017-ci il 14 aprel tarixli 585-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 19 iyun tarixli 1471 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 6, maddə 1087; 2018, № 4, maddə 700, № 10, maddə 2018; 2020, № 5, maddə 699) aşağıdakı dəyişikliklər edilsin:

6.1. 2.1-ci bəndə "vəzifələri" sözündən sonra "və həmin Qanunun 12.1-1-ci maddəsinin dördüncü cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini" sözləri əlavə edilsin;

6.2. aşağıdakı məzmunda 2.5-1-ci bənd əlavə edilsin:

"2.5-1. həmin Qanunun 12.1-1-ci maddəsinin dördüncü cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Təhsil Nazirliyi nəzərdə tutulur;".

7. "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1071-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyun tarixli 140 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1230; 2019, № 5, maddə 841; 2020, № 7, maddə 893) aşağıdakı dəyişikliklər edilsin:

7.1. 2.1-ci bənddə "və 24.3-cü maddələrində" sözləri "maddələrində, 12.3-1-ci maddəsinin ikinci cümləsində və 24.3-cü maddəsində" sözləri ilə əvəz edilsin;

7.2. 2.2-ci bənddən "10.10-cu," sözləri çıxarılsın;

7.3. aşağıdakı məzmunda 2.3-1-ci bənd əlavə edilsin:

"2.3-1. həmin Qanunun 12.3-1-ci maddəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Təhsil Nazirliyi nəzərdə tutulur;".

8. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli 1189-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 5 iyul tarixli 164 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 7 (I kitab), maddə 1450) 3.5-ci bəndi ləğv edilsin.

9. "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1532-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 may tarixli 711 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 863; 2020, № 7, maddə 868) aşağıdakı dəyişikliklər edilsin:

9.1. 1.1.3-cü yarımbənd ləğv edilsin;

9.2. 2.1-ci və 2.4-cü bəndlərə "13.5-ci," sözlərindən sonra "13.8-ci," sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 noyabr 2020-ci il*

# Ən böyük demokrat lider İlham Əliyevdir

Demokratiyanı öldürənlər, onu təsir mexanizminə çevirib başqalarının başının üstündə qılınc kimi oynadanlar məhz demokratiyadan daha çox dəm vuran böyük dövlətlərdir. Biz bunu öz dövlətimizə, Azərbaycana uzun müddət göstərilən münasibətdə və haqq mübarizəmizə yanaşmalarda aydın görürük.



Bu gün Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin vətən, xalq, haqq-ədalət yolunda, torpaqlarımızın azadlığı uğrunda apardığı mübarizəyə, ordumuzun şanlı qələbəsinə mane olmağa çalışan qüvvələr az deyil. Bəzi dövlətlər demokratiyadan təsir vasitəsi kimi istifadə edərək müstəqil dövlətlərin daxili işlərinə qarışır, mənafeyi təmin olunmadığı halda müxtəlif yollarla qarşıdurmalar, münaqişələr yaradırlar. Bəzilərinə görə, Azərbaycan müstəqil dövlət olsa da, guya hələ də demokratik ölkə imici qazanmamışdır. Səbəbi də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müstəqil siyasət yürütməsi, heç kimin diktəsi ilə işləməməsidir.

Azərbaycandan fərqli olaraq, Ermənistan dövlətinin və ölkə vətəndaşlarının əksəriyyətinin nəzərlərində demokratiya - təcavüzdür, xəyanətdir, terrordur, öldürmək, araqarışdırmaqdır. Ermənilər və havadarları üçün bu siyasi fəaliyyət tərzidir. Əgər belə olmasaydı, uzun illər fəaliyyət göstərən və minlərlə insanı məhv edən erməni terror təşkilatlarının, siyasi partiyaların bəşəriyyətə zidd əməllərinə vaxtında qiymət verilər, bir çox sui-qəsdlərin, ölümlərin qarşısı vaxtında alınardı. Başqalarını demirəm, erməni daşnaklarının, faşistlərinin xalqımızın başına gətirdikləri faciələr - soyqırımlar, sui-qəsdlər, vəhşiliklər haqda əldə minlərlə faktlar, sənədlər vardır. Uzun illər Azərbaycan torpaqlarının 20 faizi işğal altında saxlanıldı, bir milyon soydaşımız qaçqın və köçkün həyatı yaşadı, əzab-əziyyət çəkdi. BMT Təhlükəsizlik Şurasının, ATƏT-in, Qoşulmama Hərəkatının, İslam Əməkdaşlıq Təşkilatının mühüm qərar və qətnamələrinə erməni təcavüzkarları məhəl qoymadılar, işğal etdikləri əraziləri boşaltmaq əvəzinə, əksinə, həmin torpaqlarda məskunlaşdırma siyasəti apardılar, əlavə torpaqlar işğal etmək niyyətinə düşdülər, beynəlxalq hüquq normalarını, sülh təşəbbüslərini qulaqardına vurdular. Ermənistan faşizmi, terroru dövlət siyasətinə çevirdi, insan qatillərinə heykəl ucaltdı, yazarları əsərlər yaratdı. Parlamentdə öz deputatlarını öldürdülər, dövlət çevrilişi etdilər. Azad fikirli insanlar, jurnalistlər həbs edildi, ölkədən qovuldu, intihara təhrik olundu, cərimələrə, təqiblərə məruz qaldı, ancaq Ermənistana havadarlıq edənlərin səyləri nəticəsində bu vəhşiliklər, özbaşınalıqlar pərdələndi, demokratiyadan gen-bol danışanların səsi batdı, mövqeyi eşidilmədi.

Əksinə, bir çox ölkələr "erməni demokratiyası"nı alqışladılar, əli azərbaycanlıların qanına batmışlara, yeni torpaqlar işğal etmək niyyətinə düşənlərə mötəbər kürsülərdə yer verdilər.

Ermənistanın Azərbaycana qarşı törətdiyi fəlakətlər, müharibə dövründə dinc əhalinin qadağan olunmuş silahlardan, raketlərdən atəşə tutulması, onlarca insanın qətlə yetirilməsi, yüzlərlə mülki obyektin dağıdılması və bu gün düşmən ölkədə baş verən hadisələr, qarşıdurmalar, repressiyalar, qətllər nədənsə demokratiyadan bol-bol danışan dövlətlərin, beynəlxalq təşkilatların diqqətindən kənarda qalır, beynəlxalq aləm bu faciələrə seyirçi mövqedən yanaşırlar. Cənab İlham Əliyev adi bir hadisə üstündə ölkəmizə qarşı çıxanlara kəskin mövqeyini bildirərək sual edir: "Avropa Şurası, Avropa Parlamenti, qeyri-hökumət təşkilatları, böyük Avropa ölkələri, niyə susursunuz, nədən bu diktatorların cavabını vermirsiniz?" Dövlətimizin rəhbəri qətiyyətlə bildirir ki, lazım olduqda düşmənin, işğalçının, diktatorun cəzasını biz özümüz verəcəyik və haqq mübarizəmizdə heç bir qüvvə bizə mane ola bilməz. Təcavüz etmək, yalan danışmaq, evlər yıxmaq, insanları qətlə yetirmək, xəyanət, riya demokratiyadırmı? Bu, insan haqlarını qorumaqdırmı? Bu, beynəlxalq normalara sədaqətdirmi? Bu, insanlığa, bəşəri dəyərə məhəbbətdirmi? Təcavüzkar, insan qatili, millətçi heç vaxt demokrat ola bilməz. Vəzifə şan-şöhrət qazanmaq üçün xalqını fəlakətə, bəlalara düçar edənlər insanlıqdan, demokratiyadan çox uzaqdırlar. Özünü ən demokratik dövlət hesab edən, ancaq faşizmi, nasizmi həyat amalına çevirən, soyqrımlar, sui-qəsdlər törətməklə öyünən Ermənistana daimi dəstək verən Fransanın keçmişinə nəzər salıb onun müstəmləkəçilik siyasətini, bəşəri dəyərlərə xəyanətini araşdırsaq və bugünkü mövqeyini nəzərdən keçirsək, gözlərimiz qarşısında insan faciələri, zülm və əzabları ilə zəngin bir mənzərə canlanar. Fransanın işğal edib müstəmləkəyə çevirdiyi, varını-yoxunu taladığı neçə-neçə ölkədə yaşatdığı zülm, ədalətsizlik tarixin qara səhifələridir və bu, bütün dünyaya məlumdur. Yaxın Şərqin bir neçə dövləti illərlə Fransanın əsarəti altında inləmişdir. Atlantik okeanındakı adalar, Dominikandan Qrenadaya qədər hamısı Fransa tərəfindən istismar olunmuşdur.

Tarixən elə bir qitə, materik olmayıb ki, oradakı ölkələr Fransanın istismarına, xalqları qırğına, faciələrə məruz qalmamış olsun. 1942-ci ilin iyul ayında fransızlar yəhudi olduğu üçün 4 mini uşaq olmaqla 13 min 152 insanı evlərindən çölə atmış və onların demək olar ki, hamısının (yalnız 25 nəfər sağ qalıb) məhvinə səbəb olmuşlar. XIX əsrin əvvəllərində Haitidə 100 min afrikalı köləni qazla qətlə yetirən, Birinci Dünya müharibəsində 1 ayda 900 min afrikalının ölümünə imkan yaradan, 1954-1962- ci illər Əlcəzairdə 1,5 milyon sakini öldürən, ağır işgəncələrə məruz qoyan, Buandada 600 min insanın qətlə yetirilməsinə hərbi yardım edən, Vyetnamda, Mərakeşdə, Çibutidə, Çadda, Qabonada, Tunisdə qanlı qətliyamlar törədib milyonların həyatına qıyan Fransanın demokratiyadan, insan haqlarından, bəşəri dəyərlərdən danışması, haqq-ədalət pərdəsi altında digər dövlətlərə dərs vermək cəhdi gülüş doğurur.

Bu gün hər bir dövlətin tarixi hamıya məlumdur. Fransanın terrorçuları, qaniçənləri, təcavüzkarları dəstəkləməsi başadüşüləndir. Bu dövləti Ermənistanla birləşdirən oxşar xüsusiyyətlər - işğalçılıq, müstəmləkəçilik siyasətidir. Fransa BMT Təhlükəsizlik Şurasının üzvü kimi erməni silahlı birləşmələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən çıxması ilə əlaqədar bu təşkilatın qətnamələrinə imza atıb, ATƏT-in Minsk qrupunun həmsədr ölkəsi olaraq münaqişənin nizamlanmasında bitərəf mövqe tutması barədə öhdəlik götürüb. Belə bir ölkə ədalətin bərpa olunması üçün öz səylərini artırmağa borclu olduğu halda beynəlxalq hüquq normalarını, Cenevrə Konvensiyasının müddəalarını, mötəbər təşkilatların qərar və göstərişlərini ciddi qaydada pozaraq 30 ildən çox bir müddətdə torpaqlarımızı işğal altında saxlamış təcavüzkar dövləti müdafiə edir.

Fransanın prezidenti Emmanuel Makron başda olmaqla, Parisin merinin, bəzi parlament üzvlərinin, siyasətçilərin təşəbbüsləri nəinki Qarabağ məsələsinin sülh yolu ilə nizamlanmasına, əksinə, vəziyyətin yenidən kəskinləşməsinə, müharibənin bir daha alovlanmasına hesablanmışdır. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev Vətən müharibəsi getdiyi günlərdə çoxsaylı müsahibələrində dəfələrlə xatırlatmışdır ki, "biz tarixi ədaləti bərpa edirik, biz işğal olunmuş torpaqlarımızı düşməndən təmizləyirik, BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetiririk. Bizim heç kimin torpağında gözümüz yoxdur. Mübarizəmiz haqq mübarizəsidir və biz haqq yolunda döyüşürük". Dövlətimizin başçısının fikri, məqsədi bütün dünyaya bəllidir və haqqı, ədaləti dəstəkləyən hər bir kəs bu haqq mübarizəsini alqışlayır, uğurlarımıza tərəfdar çıxır. Fransanın prezidenti Makron isə ermənipərəst mövqeyini çəkinmədən ortaya qoyaraq tezliklə atəşi dayandırmağı, ermənilərin zəbt etdiyi ərazilərdən çəkilməməsini tələb edir və heç bir əsaslı fakt olmadan Azərbaycanın ünvanına yalanlar uydurur və əhatəsində olan siyasi dairələri ölkəmizə qarşı yönəldir. Əlbəttə, bu, yaraşmayan hərəkətlərdir və Fransanın imicinə sarsıdıcı zərbədir. Bu ölkənin bəzi siyasi dairələri bunu dərindən dərk etmirlər ki, dövlətləri bir qrup erməni millətçisinin əlində oyuncağa çevrilmişdir. Hətta ölkənin senatı Makronun anti-demokratik çıxışlarından, ermənipərəst mövqeyindən ruhlanaraq qondarma "Dağlıq Qarabağ respublikası"nı tanımaq barədə qərar qəbul edir. Paris meriyasının, senatın bu barədə çağırışları və təşəbbüsləri təəssüf doğurur. Axı Fransa Rusiya və ABŞ ilə Minsk qrupunun üzvlərindən biridir. Rəsmi Paris bilməlidir ki, Dağlıq Qarabağın müstəqilliyinin tanınmasına dair göstərilən təşəbbüslər Fransa tərəfindən qəbul edilmiş beynəlxalq və ikitərəfli öhdəliklərə ziddir və onların qəbul etdikləri qərarlar beynəlxalq aləm tərəfindən hörmətlə qarşılana bilməz. Çünki BMT Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz tərkib hissəsi hesab edir və bu torpaqlar üzərində ölkəmizin suverenliyi tanınmışdır.

Belə bir halda Fransa senatının "Dağlıq Qarabağ respublikası"nı tanımasının heç bir hüquqi nəticəsi ola bilməz. Əlbəttə, bu qərar bir tərəfdən terrorçu, separatçı rejimi dəstəkləməkdirsə, digər tərəfdən Azərbaycanla dövlətlərarası əməkdaşlığa böyük zərbədir. Fransanın təcavüzkar Ermənistanı birmənalı dəstəkləməsi, faşizm ideologiyası ilə silahlanmış, uzun illər azərbaycanlıların qanını axıtmış, yurd-yuvasını dağıdıb şəhər və kəndlərini xarabazarlığa çevirmiş bir ölkəni müdafiə etməsi, qardaş Türkiyəyə qarşı kəskin mövqe tutması Cənubi Qafqazın lider dövləti olan Azərbaycanı itirmək deməkdir.

Azərbaycan xalqı hazırda özünün ən xoşbəxt, fərəhli günlərini yaşayır. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin əmri ilə müzəffər silahlı ordumuz böyük şücaət, qəhrəmanlıq göstərərək uzun illər işğal altında olan torpaqlarımızı azğın düşməndən azad etmişdir. Ölkəmizin öz ərazi bütövlüyünü təmin etməyə haqqı var. Rəsmi Paris bunu bilməmiş deyil. Qələbəmiz möhtəşəmdir, ədalətlidir. Bu, Prezidentimizin, Ali Baş Komandanın, şanlı ordumuzun, xalqımızın tarixi, unudulmaz qələbəsidir. Haqq-ədalət, cəsarət, sədaqət qalib gəlmişdir. Azərbaycan varlığını, bütövlüyünü, əyilməzliyini bütün dünyaya bir daha sübut etmişdir. Birliyimiz, həmrəyliyimiz, beynəlxalq hüquq normalarına hörmət və sədaqətimiz, humanistliyimiz, bütün millətlərə sağlam münasibətimiz, Tanrıya məhəbbətimiz dünyaya yeni, əzəmətli, mübariz bir Azərbaycan bəxş etdi. Elə bir Azərbaycan ki, onun rəhbəri və xalqı ən böyük ehtirama layiqdir. Ən böyük demokratiya insana, xalqa hörmətdir. Demokrat bəşəri dəyərlər, insanlıq, xalqların gələcəyi üçün çalışan, vuruşan, həyatını sərf edən şəxsdir.

Qanunu, qaydanı yalana, böhtana dəyişənlər, sözü ilə əməli düz gəlməyənlər demokratiyaya ləkədir. Özünə, sözünə qiymət qoymayanın demokratiyadan danışmağa haqqı yoxdur.

Şərəfinə, ləyaqətinə, cəsarətinə, insanpərvərliyinə görə Azərbaycan xalqı ən demokrat xalqdır. Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev dünyada ən böyük demokrat rəhbər, ən böyük demokrat sərkərdə, ən böyük demokrat insandır. Demokratiya insanın ədaləti, sədaqəti, vətənpərverliyi və xalqa məhəbbətidir.

***Tahir RZAYEV,***
***Milli Məclisin Aqrar siyasət komitəsinin sədri***



"Kəlbəcərin təkcə təbiəti deyil, insanları da sərvətdir".

**Heydər ƏLİYEV**

# Ulu Öndər Kəlbəcərin inkişafı üçün əhəmiyyətli qərarlar qəbul etmişdir

Xalqın özünüdərkində əvəzsiz xidmətlər göstərmiş, müstəqillik əldə edildikdən sonra demokratik dövlət quruculuğunun əsasını qoymuş Ulu Öndər Heydər Əliyev siyasətinin alternativsizliyi dünyanın nüfuzlu təşkilatları və dövlət xadimləri tərəfindən də birmənalı təsdiqlənmişdir. Çünki Ümummilli Liderin mənalı ömrünün hər anı xalqına, vətəninə bağlı olmuşdur. Bu böyük şəxsiyyətin misilsiz xidmətlərini saymaqla qurtarmaz və ən əsası isə, Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin bünövrəsini qoymuşdur.





Ötən əsrin 70-ci illərində Azərbaycanda başlamış sosial-iqtisadi, mədəni inkişafın dalğaları ucqar dağ rayonlarının da həyatında öz əksini tapmışdır. Bəzi dairələrdə perspektivsiz bölgə kimi qiymətləndirilən, hətta əhalisinin aran rayonlarına köçürülməsi və yalnız yaylaq məqsədilə istifadə olunması məsləhət bilinən Kəlbəcər üçün bu inkişaf xüsusi əhəmiyyətə malik idi. Çünki hələ ötən əsrin 50-ci illərində ermənilərin və onların Moskvadakı havadarlarının, respublikanın uzağı görmək bacarığı olmayan bəzi rəhbərlərinin Kəlbəcər əhalisini köçürmək təşəbbüsündə olmaları (təbii ki, ermənilərin təkidləri ilə) rayonun taleyini dəfələrlə təhlükə altında qoymuşdu. Yalnız o zaman Azərbaycanda siyasi hakimiyyətə gələn Heydər Əliyevin uzaqgörənliyi bu məkrli məqsədlərin həyata keçirilməsinə mane olmuşdu. 1969-cu ilə qədər bu məsələ, necə deyərlər, gündəmdə qalırdı və respublika rəhbərliyindən çoxları rayon əhalisinə göstərişlər, "məsləhətlər" verməyə çalışır, hətta bəzən dilə də tuturdular. Yalnız Ümummilli Lider Heydər Əliyev Azərbaycan KP MK-nın Birinci katibi seçiləndən sonra dağ rayonlarının, o cümlədən Kəlbəcərin də üzərinə işıq düşdü.

Həmsöhbətim, uzun illər Kəlbəcər rayon Xalq Deputatları Sovetinin sədri, məcburu köçkünlük illərində isə Kəlbəcər RİH-in başçısı vəzifələrində çalışmış, "Aşıq Şəmşir Mədəniyyət Ocağı" İctimai Birliyinin sədri Qənbər Qurbanovun təmsil olunduğu nəsil Ağdaban kəndinə iki dəfə erməni vandalları tərəfindən hücum nəticəsində 32 nəfər şəhid verib, yüzlərlə qohum-əqrəbası od-alova tutulub. O, həmin dövrü belə xatırlayır: "Ulu Öndər Heydər Əliyev Kəlbəcər RPK-nın katibinə hələ o zamanlar demişdi ki, Mərkəzi Komitədə və Nazirlər Sovetində belə söhbətlər gedirdi ki, Kəlbəcər perspektivsiz bir rayondur, özünü doğrulda bilmir. ...Yeganə yol, guya, onun əhalisini aran rayonlarına köçürmək, ərazini isə yaylaq kimi bölüşdürməkdir. Lakin bu fikir məndə həmişə şübhə doğurub. Səmimi olmasına heç vaxt inanmırdım. Odur ki, bu barədə mənə təklif olunan layihəyə də qol çəkmədim..."

Məhz o vaxtlar Azərbaycan KP MK-nın Birinci katibi Heydər Əliyev Kəlbəcərin inzibati ərazi bölgüsü kimi heç bir potensial imkanı olmadığını, yalnız yaylaq üçün yararlığını iddia edənlərin və bu barədə "layihə" hazırlayanların bütün cəhdlərini puça çıxardı. Ulu Öndər demişdi: "...Hesab edirəm ki, Kəlbəcərin imkanları genişdir, hələ bundan sonra da çox işlər görülməlidir. Əvvəllər də, indi də hiss edirdim ki, burada bir məkrli niyyət var. Əhali qətiyyən Kəlbəcərdən köçürülməməlidir!"

Qənbər Şəmşiroğlu ötənləri xatırlayaraq deyir ki, strateji cəhətdən çox əhəmiyyətli olan Kəlbəcər rayonu coğrafi mövqe etibarilə Ermənistan və Dağlıq Qarabağ arasında yerləşən səddir. Sahəsi təqribən 174 min hektara çatan ərazidən əhali köçürüləndən, 128 kənd tamamilə boşaldılandan sonra ermənilər heç bir müqavimətə rast gəlmədən, orada sərbəst qaydada məskunlaşmalı və bununla da Ermənistanla DQMV qovuşmalı idi. Faktiki surətdə Ermənistan DQMV-ni o vaxtlar ələ keçirmiş olardı: "Kəlbəcərin əsaslı inkişaf sürəti rayon partiya və icraiyyə komitələrinin təkliflər paketi əsasında hazırlanmış, Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Soveti tərəfindən 1977-ci il dekabrın 8-də qəbul edilmiş "Kəlbəcər rayonunun iqtisadiyyatını və mədəniyyətini inkişaf etdirmək tədbirləri haqqında" 428 saylı birgə qərarından sonra təşəkkül tapmışdır. Vaxtilə perspektivsiz qiymətləndirilən Kəlbəcər ötən əsrin 80-ci illərində respublika, hətta ozamankı İttifaq miqyasında sürətlə inkişaf edən bir rayona çevrildi".

1983-cü il dekabrın 14-də Kəlbəcərdə 6 bal gücündə zəlzələ oldu. 1984-cü ilin yazında isə respublikanın bir sıra rayonları təbii fəlakətə məruz qaldı. O zaman SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini kimi Heydər Əliyevin gərgin səyi ilə təbii fəlakətin nəticələrini aradan qaldırmaq üçün İttifaq büdcəsindən 28 milyon manat vəsait ayrıldı. Kəlbəcərin Azərbaycan üçün nə demək olduğunu çox dəqiq bilən, rayonun inkişafını və yerində möhkəmlənməsini daim diqqət mərkəzində saxlayan və xüsusi qayğı göstərən Ulu Öndər Heydər Əliyevin göstərişi ilə həmin vəsaitin 20 milyon manatı Kəlbəcərə ayrılmışdı.

Kəlbəcərin Ermənistan tərəfindən işğalının üçüncü ildönümü ilə əlaqədar bir qrup kəlbəcərli ziyalı ilə görüşən Ulu Öndər Heydər Əliyev o illər barədə deyirdi: "Doğrudan da, Kəlbəcər Azərbaycanın çox dəyərli bir guşəsidir. Həm təbiətinə, dağlarına, meşələrinə, çaylarına, bulaqlarına, həm də orada olan çox qiymətli yeraltı sulara, mərmər, qızıl yataqlarına, başqa əlvan metalların yataqlarına görə çox qiymətli bir yerdir. O vaxtlar, keçmişdə biz Kəlbəcərin inkişafı üçün çox səylər göstərmişdik. İstisuda böyük kompleks tikilmişdi. Bu, neçə-neçə nəsillərin yaratdığı abidələr, yaşayış binaları idi. Təəssüf ki, vaxtilə qızıl yataqlarından istifadə edilməsi ilə məşğul olmamışdılar.

Hələ o sakit dövrdə ermənilər gəlib bizim qızıl yataqlarımızı zəbt etmək istəyirdilər. Xatirimdədir, biz o barədə çox ciddi tədbirlər gördük. Dağ rayonu kimi Kəlbəcərin inkişafı üçün xüsusi qərarlar qəbul olunmuşdu və bunların həyata keçirilməsindən Kəlbəcərin əhalisi, hesab edirəm ki, çox bəhrələnmişdir..."

Beləliklə, iqtisadiyyatı çiçəklənən, 1985-ci ildən sonra sosial-mədəni quruculuğu da yeni vüsət alan Kəlbəcər rayonu nəhəng tikinti meydanına çevrildi. Şəhərin "Yuxarı düz" sahəsində XXI əsrin şəhəri adlandırılan "Yeni Kəlbəcər" massivinin tikintisinə başlanıldı. Şəhər əhalisi, idarə-müəssisə işçiləri yeni şəhərin salınması təşəbbüsünü böyük razılıqla qarşıladı. Hətta tikintidə sürət və keyfiyyəti təmin etmək məqsədilə iməciliklər keçirmək barədə təşəbbüs qaldırıldı. Qısa vaxt ərzində hər biri 32 mənzilli, dördmərtəbəli yaşayış binaları, 10 ailə üçün nəzərdə tutulmuş beşmərtəbəli yaşayış evi, 60 yerlik müasir tipli mehmanxana, mükəmməl tibb avadanlığı ilə təchiz olunmuş 280 çarpayılıq mərkəzi xəstəxana, kitabxana, musiqi məktəbi, rabitə evi, son dərəcə dəqiq cihazlar quraşdırılmış seysmik stansiya, 5 min tamaşaçı tutan stadion, 1 milyon manat smeta dəyəri olan istilik sistemi və kanalizasiya xətti, Kəlbəcər-Basarkeçər yüksəkgərginlikli elektrik xətti, şahmat məktəbi, 60 yerlik məişət evi, 147 yerlik uşaq bağçası, 7 milyon manat dəyəri olan ümumi abadlıq işləri və digər sosial obyektlərin tikilməsi məhz Ulu Öndər Heydər Əliyevin Kəlbəcərə və onun əməksevər əhalisinə doğma münasibəti, qayğısı idi.

Ümummıllı Liderin Kəlbəcərin Ermənistan silahlı qüvvələri tərəfindən işğalının 3-cü ildönümü ilə əlaqədar rayon sakinlərinin nümayəndələri ilə görüşündə təkcə onun inkişaf etmiş dağ rayonu, əhalisinin isə əməksevər olmasından deyil, bu əlçatmaz zirvənin zaman-zaman erməni məkrinin qurbanına çevrilməsinin qarşısının alınmasından da söz açdı. Kəlbəcərin işğalına aparan yoldan, satqınların vətənə xəyanətindən danışdı. O gün bir daha kəlbəcərlilərin yaddaşına əbədi olaraq həkk edildi ki, yurd-yuvası Ermənistan tərəfindən darmadağın edilən məcburi köçkünlərə Ümummilli Lider Heydər Əliyevin diqqəti və xüsusi qayğısıdır ki, onların bir qrup ziyalısı ilə görüşür, Ulu Öndər Kəlbəcərin tarixi keçmişinə və strateji əhəmiyyətinə öz münasibətini bildirirdi: "...Kəlbəcər rayonu üç il bundan əvvəl Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunduğuna görə, onun sakinləri yerlərindən, yurdlarından didərgin düşüblər və respublikanın müxtəlif şəhərlərində, rayonlarında yaşayırlar. Ermənistan silahlı qüvvələrinin 1988-ci ildən başlayaraq, Azərbaycana qarşı etdikləri hərbi təcavüz respublikamıza çox böyük zərbələr vurubdur. Təəssüflər olsun ki, həmin müddətdə ərazimizin bir qismi işğal olunmuş və orada yaşayanlar, o torpaqların sahibləri didərgin düşüblər. İşğal olunmuş rayonlardan biri də Kəlbəcərdir. Kəlbəcərin işğalından üç il keçir. İnsanlar, adətən, bayram günlərini, müsbət hadisələri qeyd etmək üçün görüşürlər, eyni zamanda, milli adət-ənənələrimizə görə, tariximizdə olan bəzi faciəvi halların da ildönümünü, yaxud həmin günləri qeyd etmək üçün görüşürlər. Ona görə bizim bu görüşümüz də birinci növbədə, Kəlbəcər rayon sakinlərinin vəziyyəti ilə mənim şəxsən tanış olmağım məqsədi daşıyır. Siz üç ildir ki, yerinizdən-yürdunuzdan olmusunuz, didərgin düşmüsünüz. Bu günü xatırlamaq lazımdır..."

Ulu Öndər ilə kəlbəcərlilərin daha geniş tərkibdə növbəti görüşü bir ildən sonra, Kəlbəcərin işğalının 4-cü ildönümündə, Bakı şəhərinin Nərimanov rayonu ərazisindəki yataqxanaların birində, aprel ayının 2-də keçirildi. Kəlbəcərin Azərbaycan üçün strateji əhəmiyyətini yüksək qiymətləndirən Ümummilli Lider Heydər Əliyev dedi: "...Mən əminəm ki, xalqımız, o cümlədən kəlbəcərlilər keçmişi təhlil edərkən ötən günləri dərin müzakirə edərək daha sıx birləşəcək, Azərbaycan torpaqlarının Ermənistanın işğalından azad olunması üçün öz səylərini göstərəcəklər.

Böyük əraziyə malik olan Kəlbəcər Azərbaycanın gözəl və qiymətli guşələrindən biridir. Respublikamızın ucqar dağ rayonu olmaqla bərabər, Kəlbəcər ölkəmiz üçün həm də strateji əhəmiyyəti olan bir rayondur. Allah Kəlbəcərə hər cür nemətlər - gözəl təbiət, zəngin sərvətlər veribdir. Kəlbəcər məğrur dağları, gözəl meşələri, otlaqları, çəmənləri, obaları, bulaqları olan, vətənimizin təbiət gözəlliyini özündə əks etdirən bir parçasıdır. Kəlbəcərin həm yeraltı sərvətləri, həm də yerüstü sərvətləri Azərbaycanın milli sərvətlərinin bir hissəsidir".

Kəlbəcərin 27 il yarımdan sonra düşməndən azad edilməsi xəbərini eşidən hər bir azərbaycanlı kimi, kəlbəcərlilərin də sevincinin həddi-hüdudu olmadı. Bu müqəddəs günü səbirsizliklə gözləyən kəlbəcərlilərin noyabrın 15-dən 25-dək olan on günün hər anını xəyalən Kəlbəcərlə yaşadılar. Doğma yurdumuzu düşmən əsarətindən xilas edən Müzəffər Ordumuzun Ali Baş Komandını, Azərbaycan Prezidenti İlham Əliyevə kəlbəcərlilərimiz adından dərin təşəkkürümü bildirirəm. Onu da qeyd edim ki, Ümummilli Liderin vaxtilə Kəlbəcər və kəlbəcərlilərə olan diqqət və qayğısını heç kim unutmayıb. Bu gün yaşından asılı olmayaraq hər bir kəlbəcərlinin yaşadığı sevinci ifadə edəcək söz tapa bilmirəm. 25 noyabr 2020-ci il tarixi kəlbəcərlilərin bugünkü nəslinin yaddaşına Qələbə ilə yazıldı. Müzəffər Azərbaycan Ordusuna təhvil verilən Kəlbəcər erməni vandalları tərəfindən tarmar edilib yandırılsa da, doğma yurdumuza qayıdışdan doğan sevinclərini əlindən ala bilməz.

Bakı şəhərində, eləcə də kəlbəcərlilərin daha çox məskunlaşdıqları ulu Gəncədə keçirilən bayram əhvali-ruhiyyyəli yürüş-tədbirləri, Şəhidlər xiyabanını ziyarət bir daha xalqımızın Ali Baş Komandan, cənab Prezident İlham Əliyevin ətrafında sıx birliyini nümayiş etdirdi. Kəlbəcərlilərin bir arzusu da Ali Baş Komandanımızın Kəlbəcəri də ziyarət edərək üçrəngli bayrağımızı orada öz əlləri ilə ucaltmasıdır. Çünki Kəlbəcər Azərbaycanın, o cümlədən Qarabağın qala qapısıdır. Axı, 30 ilə yaxındır bağlı qalan bu qalalar məskəninin qapısını məhz Ali Baş Komandanımız açdı. Qələbəmiz, Zəfərimiz mübarək! Kəlbəcər Qarabağ, Qarabağ Azərbaycandır!

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# Yaqub MAHMUDOV: "Qarabağdakı xristian abidələri qədim Azərbaycan-Albaniya mirasıdır"

"Xristian abidələrinin müdafiəçilərinə" bəyan edirəm ki, erməni vandalları keçmiş İrəvan xanlığının torpaqlarında, o cümlədən İrəvan şəhərində Azərbaycan xalqına məxsus 300-dən çox məscidi, qəbiristanlıqları, çoxsaylı tarixi abidələri yerlə yeksan ediblər. Hazırda erməni vandallarının törətdiyi vəhşilikləri işğaldan azad edilən Qarabağ torpağında da görürük. Orada məscidlərimiz və digər tarixi abidələrimiz məhv edilib, bəzi məscidlərimizdə isə donuz, inək saxlanılıb. Bu, təkcə Azəbaycan xalqına deyil, bütün islam aləminə ən ağır təhqirdir. Amma bütün bunlar bəzi Qərb dairələrini qəti maraqlandırmır və "xristianlığın müdafiəçiləri" susurlar!"



Bunu Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun direktoru, akademik Yaqub Mahmudov bildirib.

Yaqub Mahmudov deyib ki, bu günlərdə içərisində Alen Delon, Pyer Rişar, Jan Renonun da yer aldığı 120-dən çox tanınmış fransız ermənilərə dəstək üçün imza toplayıb və tarixi faktın ziddinə gedərək onların Qarabağda 2 min ildən çox yaşadıqlarını iddia ediblər. Fransa prezidenti Makron isə həyasızcasına Qarabağda guya erməni mədəni və dini irsinin olduğunu bildirir. Görünən odur ki, bəzi Qərb dairələri açıq şəkildə erməni vandallarını müdafiə edirlər. Nə qədər təəccüblü olsa da, ermənilərin quyruğunda sürünən Qrebenşikov, Spivakov kimi bir qrup rusiyalı mədəniyyət xadimi də UNESCO-ya müraciət edərək Qarabağdakı xristian abidələrinin qorunmasını xahiş ediblər. Təəssüf ki, Azərbaycana qarşı təxribatlar bitmir ki, bitmir! Və Makrondan ilhamlanan Fransa Senatında qondarma "Dağlıq Qarabağ respublikası"nın tanınmasına dair qətnamə layihəsi qəbul olunub. Beləliklə, ATƏT-in Minsk qrupunun həmsədr ölkələrindən biri olan Fransa nəhayət, ermənipərəst mövqeyini açıq şəkildə sərgilədi!

Tarixçi alim qeyd edib ki, Azərbaycanın bütün tarixi abidələri, o cümlədən kilsələr dövlət tərəfindən qorunur: "Ermənilər öz məzhəblərindən, yəni qriqorianlıqdan başqa bütün dinlərin düşmənidir. Onlar Qarabağdakı pravoslav kilsəsini də dağıdıblar. Beləliklə, UNESCO-ya müraciət edən ermənipərəst ziyalıların ad-sanı bir qara qəpiyə də dəyməz!"

"Prezident İlham Əliyev Vətən müharibəsində tarixi qələbə qazanmaqla "Dağlıq Qarabağ problemi"ni çözdü! Ali Baş Komandan ermənilərin Dağlıq Qarabağın statusu ilə bağlı iddialarını gündəlikdən çıxararaq onların "Artsax" layihəsini darmadağın etdi! Amma bəzi dairələr erməni vandallarını müdafiə edir və Azərbaycan Alban kilsələrini erməni kilsələri kimi dünyaya təqdim edirlər. Bu isə ermənilərin əsassız ərazi iddialarına yol açır. Prezidentimiz haqlı olaraq bəyan edir ki, qədim Azərbaycan dövləti olan Albaniyaya aid tarixi abidələr, kilsələr bizim tarixi-mədəni sərvətimizdir", - deyə akademik bildirib.

Yaqub Mahmudov qeyd edib ki, Qarabağdakı xristian abidələri qədim Azərbaycan-Albaniya mirasıdır: "Albaniyanın saf və əsl tarixi Kəlbəcərdədir. Kəlbəcərdəki Gəncəsər məbədinin kitabəsində Alban-Xaçın knyazı Həsən Cəlal "Uca və böyük Ərsak ölkəsinin hökmdarı, Alban vilayətinin çarı Böyük Həsənin nəvəsi, Vaxtanqın oğlu" kimi yad edilir. Bu kitabə onun əcdadlarının qədim türk boyuna mənsub olan Ərsak soyundan olmasını bir daha təsdiq edir. Təsadüfi deyil ki, XVIII əsrdə Qarabağın dağlıq hissəsində yaşayan alban xristian məlikləri də I Pyotra və II Yekaterinaya yazdıqları məktublarında özlərinin erməni deyil, alban olduqlarını təsdiq etmişlər. Bu məktublar erməni alimləri tərəfindən saxtalaşdırılaraq "alban türkləri" - "ağvan müsəlmanları", "Alban Arşaki nəsli" isə "erməni rəisləri nəsli" ifadələri ilə əvəz edilib.

Orta əsrlərdə Şərqin müsəlman dövlətlərinə qarşı məkrli siyasət yeridən Avropa xristian dövlətləri erməni-qriqorian kilsəsini himayə ediblər. 1441-ci ildə Azərbaycan hökmdarı Cahanşahın icazəsi ilə erməni katolikosluğunun mərkəzi Kilikiyanın Sis şəhərindən Azərbaycanın İrəvan şəhəri yaxınlığındakı qədim Azərbaycan-Alban monastırı Üçkilsəyə köçürüldüyü zaman Alban kilsəsinin artıq 1400 ildən çox yaşı var idi. I əsrdə Müqəddəs Yeliseyin təşəbbüsü ilə Şəkinin Kiş kəndi ərazisindəki qədim ziyarətgahın yerində Albaniyanın və bütövlükdə Qafqazın ilk xristian məbədi inşa edilib. XIX əsrin əvvəllərində Şimali Azərbaycanın digər bölgələri ilə yanaşı, Qarabağa ermənilərin kütləvi surətdə köçürülməsi ilə Alban kilsəsinin ən faciəli illəri başlandı. Və erməni-qriqorian kilsəsinin təzyiqi ilə 1836-cı ildə çar Rusiyası Alban kilsəsini ləğv etdi, kilsənin maddi-mədəni irsinə nəzarət isə qriqorian kilsəsinin ixtiyarına keçdi. Beləliklə, erməni millətçilərinin Azərbaycan torpaqlarına qarşı əsassız ərazi iddiaları qaldırmaları üçün zəmin yaradıldı.

Saxta erməni tarixini uyduran, ermənilərin tarixində dövlət rolunu oynayan məhz qriqorian kilsəsi olub. Bu kilsə erməni terror təşkilatlarının meydana gəlməsində və formalaşmasında birbaşa iştirak edib, xalqımıza qarşı soyqırımlarına, o cümlədən Xocalı soyqırımına "göz yumub". Müasir dövrdə isə bunun sübutu I Qarabağ müharibəsində azərbaycanlıları qətlə yetirən keşiş Ovannisyanın yeni yayılan əlisilahlı fotosudur.

Sübut edilib ki, ermənilər Qafqaza, o cümlədən Şimali Azərbaycana gəlmə xalqdır. Onlar buraya çar Rusiyası tərəfindən köçürülüb gətirilmişdir. Bu fakt antropoloji, yazılı və digər qrup qaynaqlarla, o cümlədən yüzlərlə arxiv sənədi ilə təkzibedilməz şəkildə sübut olunub".

# Fransa Senatında müzakirələr, yoxsa əvvəlcədən hazırlanmış teatr tamaşası

Fransa parlamentinin yuxarı palatası olan Senatda qondarma "Dağlıq Qarabağ respublikasının tanınması zərurəti" adlı qətnamə təklifi ermənipərəst senatorlar tərəfindən irəli sürüldü və qəbul olundu. Bu, adından da göründüyü kimi, müstəqilliyin tanınması yox, tanınmasının zəruri hesab olunması təklifidir.

Odur ki, bu sənəd heç bir hüquqi əsasa malik deyil, hökumət tərəfindən qəbul edilməyib, rəmzi xarakter daşıyır.

Qərəzli sənədin qəbulu Fransadakı erməni lobbisinin etimadını itirməmək baxımından da "vacib" idi. Çünki 44 günlük müharibədə Ermənistanın məğlub olması və 10 noyabr tarixli bəyanatla kapitulyasiya etməsi erməni lobbisinin də etimadına böyük zərbə oldu. Həmçinin sənəd Fransadakı erməni seçiciləri razı salmaq məqsədini də daşıyır. Xüsusilə də sənədin müəlliflərindən olan Brüno Rötayonun 2022-ci il prezident seçkilərində namizədliyini irəli sürəcəyi gözlənilir. Erməni seçiciləri əldə saxlamaq üçün indiki vəziyyətdə bu yararsız sənədin namizədə çoxlu səs gətirəcəyi gözlənilir.

Qətnamə təklifinin müzakirə olunduğu gün AZƏRTAC-ın Senatda olan xüsusi müxbiri bildirib ki, müzakirələrin aparıldığı iclas əvvəlcədən hazırlanmış teatr tamaşasını xatırladırdı. Qatı ermənipərəst senatorlar aktyorlar kimi səhnəyə qalxaraq onlar üçün hazırlanmış mətni oxuyur və tribunadan düşüb zalda yerlərini tuturdular. Ancaq senator-aktyorlar rollarını lazımi səviyyədə də oynamağı bacarmırdılar. Onlar heç Azərbaycan ərazilərinin adlarını belə düzgün oxuya bilmirdilər. Adının çəkilməsini istəməyən senator deyir ki, hətta onlardan Dağlıq Qarabağı xəritədə göstərməyi xahiş etsəniz, göstərə bilməyəcəklər. Çünki heç bilmirlər ki, Qarabağ haradadır.

Müzakirələrdə gözlənildiyi kimi, yalnız ermənipərəst senatorlar çıxış etdi və hər biri eyni iddiaları səsləndirirdi. Diqqəti cəlb edən məqamlardan biri də çıxış edənlərin Türkiyəyə qarşı hücumları idi. Onlar Türkiyənin qarşısını almağa çağırışlar edirdilər. Sonda qondarma "respublikanın tanınmasının zərurəti"nə gəldikdə, Azərbaycanın adı çəkilirdi. Çıxış edən senatorların hər biri Türkiyənin son vaxtlar güclənməsini həzm edə bilmədiklərini açıq şəkildə və aqressivliklə nümayiş etdirirdilər.

Müzakirələrin sonunda Fransa Xarici Əlaqələr və Avropa Nazirliyinin dövlət katibi Jan Batist Lö Muan çıxış edərək bu təklifin qəbul olunmasının xoşagəlməz nəticələr doğuracağını dedi. O, Fransanın Minsk qrupu çərçivəsində nüfuzunu itirəcəyini qeyd etdi.

Beləliklə "azadlıq, bərabərlik və qardaşlıq" prinsipindən, demokratiyadan dəm vuran bir ölkədə hər kəs daha bir ədalətsizliyin, qərəzliliyin, ermənipərəstliyin, ikili standartın şahidi oldu. Bu qərəzli sənədin qəbulu həm də regiondakı vəziyyətə müdaxilə xarakterli ciddi təxribat kimi də qiymətləndirilməlidir. Yoxsa heç bir ölkənin, hətta Ermənistanın özünün belə tanımadığı qondarma qurumu tanımaq təklifi başqa nəyə xidmət edə bilər?

# Baş Prokurorluğun "Facebook" səhifəsi rəsmi olaraq mavi nişan ilə təsdiqlənib

Hazırda sosial şəbəkələr informasiya mübadiləsində ən önəmli vasitələrdən birinə çevrilib. Azərbaycan Respublikası Baş Prokurorluğunun Mətbuat xidməti prokurorluq orqanlarının fəaliyyətinə dair məlumatların operativ şəkildə əhaliyə, o cümlədən kütləvi informasiya vasitələrinə çatdırılması üçün "Facebook", "Instagram", "Twitter", "YouTube", "Telegram" və "LinkedIn" sosial şəbəkələrindən istifadə edir.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, noyabrın 26-da Azərbaycan Respublikasının Baş Prokurorluğunun "Facebook" səhifəsi (https://www.facebook.com/prokurorluq/) rəsmi olaraq mavi nişan vasitəsilə təsdiqlənib. "Verified Page", yəni təsdiqlənmiş səhifə mənasını bildirən mavi nişanın köməyi ilə orijinal səhifə saxta səhifələrdən asanlıqla ayırd edilir.

Məsələ ilə bağlı Baş Prokurorluğun Mətbuat xidməti ilə əlaqə saxlayan zaman qurumdan "Facebook" səhifəsinin rəsmi olaraq mavi nişan vasitəsilə təsdiqlənməsinə Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidməti tərəfindən yardım olunduğu bildirilib.

# İlham Əliyev: “Kəlbəcər bizimdir”

**Eheyy mənim ulu yurdum, əvəzsiz məskənim, doğma ocağım, Kəlbəcərim!**

**Həsrətindən, qubarından sinəmizdə dağa dönən başıqarlı zirvələrim - Murovum, Dəlidağım, Gamışdağım...**

**Dizin-dizin sürünərək ətəyinə baş qoymağa, səcdənə gəlirəm!**

**Sən, ey mənim qibləgahım, ana Vətən, qurbanını qəbul eylə, bağrında ölməyə, torpağına qarışmağa gəlirəm!**







Heç zaman qəbul etmədik, bu fikri yaxın buraxmadıq, barışmadıq Kəlbəcərin yoxluğuyla. Harada olduqsa, hayana getdiksə, kəlbəcərliyəm dedik, qürur duyduq bu adı səsləndirməkdən, bu adı eşitməkdən...

Axı Kəlbəcər bizim üçün ev tikib, yuva qurduğumuz hansısa yaşayış yeri anlamına gəlmir, İlahinin Yer üzündə təkrarsız yaratdığı ecazkar cənnət guşəsi canlanır hafizəmizdə... Gözünü bu dünyaya kəlbəcərli kimi açan kəs vurğunu olurdu bu diyarın... Burada dağ dediyinin zirvələri göylərlə yarışır, qayaların şiş ucları buludlara meydan oxuyur, meşələri zümrüddən yaşıl, çəmənləri xalıdan əlvandır, durna gözlü bulaqların zümzüməsi sehrli nəğmə kimi qulaqları sığallayır, dumandan hörülmüş ağ örpəyi Günəşin üzünə rübənd salır...

Elə ona görədir ki, bu əsrarəngizliyi görənlərin hamısı dil açıb şair olurdu, sözlər yandırırdı dillərini, ağızlarını... Sazı basırdılar sinələrinə, Dədə Şəmşir, Məmməd Aslan, Bəhmən Vətənoğlu, Sücaət olurdular... Vəsf eyləyirdilər sıldırım qayalar üzərində səltənət quran bu məğrur Qafqaz qalasını...

Bəlkə də zirvələri Tanrıya daha yaxın olduğu üçündür, bilmirəm, amma onu dəqiq bilirəm ki, biz kəlbəcərlilər Kəlbəcəri İlahi eşqlə sevirik...

## Hər fəslin öz gözəlliyi, yaşam tərzi vardı Kəlbəcərdə

Düz 27 il əvvəldən danışıram, hafizəmdə dərin iz, kök salan və ömrümün sonrakı illərində heç zaman yadımdan çıxmayan xatirələrdən... Həyatımın 9-10 ilini əhatə edən həmin Kəlbəcərli günlər elə sonrakı 27 illik yaşantımın da şah nöqtəsində, zirvəsində özünə yer elədi. İndi Kəlbəcər, İstisu, kəndimiz Sınıq kilsə (1992-ci ildə dəyişdirilərək Hacıkənd adlandırılıb), Qoç daş yaylağı, Murov dağı ilə bağlı o qədər hadisələr, mənzərələr yaddaşımda baş qaldırır ki, hansından başlayıb, hansından qurtaracağımı bilmirəm. Hərəsi bir dastanlıq xatirələrdir, şirini də var, acısı da...

Təkcə onu deyə bilərəm ki, Kəlbəcərdə mövcud olan o adət-ənənələr, özünəməxsus toy məclisləri, yas mərasimləri, bayramlar bir də heç zaman yaşanmadı...

Hər fəslin öz gözəlliyi, öz yaşam tərzi vardı Kəlbəcərdə. Baharda qarın üzərində ala-ala talalardan boylanan ətirli bənövşələrdən müəllimlərimizə dəstə tutmaq ən böyük sevincimiz idi. Ümumiyyətlə, yaz fəsli tam mübaliğəsiz demək olar ki, Novruz bayramı ab-havasında keçərdi. Böyüyündən-kiçiyinə hər kəsin sevinclə iştirak etdiyi bir bayram olurdu. Fevraldan Kosa gəzdirmək ənənəsiylə başlayan, çərşənbələrlə davam edib “aş bayramı” ilə bitən bir şölənin iştirakçısı olurduq hamımız...

Yayda məktəblər bağlanan kimi ən sevdiyimiz məkana - Qoç daş yaylağına üz tutardıq. Bu köç karvanı ilə yol getməyin özü belə təsvirəgəlməz bir macəra idi bizim üçün... Yaylaqda qarşımıza xalı kimi sərilən rəngarəng çiçəkli çəmənliklərdə oynamaq, təbiətin ətrini duymaq, göz işlədikcə uzanan yaşıllıqda durna qatarı kimi sıralanmış alaçıqlarda göy gurultusunu dinləmək ecazkar bir hiss yaşadırdı insana.

Təbiətin zənginliyi, insan yaşamı üçün lazım olan bütün maddi sərvətlərin, naz-nemətin bolluğu kəlbəcərlilərin dünya malı üçün hansısa əlavə əmək sərf etməsinə ehtiyac yaratmırdı. Mənəvi zənginlik üçün idi bütün zəhmətləri. Bir məclisləri belə sazsız, sözsüz, şairsiz, aşıqsız keçməzdi. Ən öyündükləri dəyər isə qonaqpərvərlikləri idi. Hətta kiminsə evinə başqa eldən qonaq gələndə həmin kəsi bütün kənd bir-bir evinə qonaq edərdi. Başımızın tacı qonaqların ayağının altında toğlu, əmlik kəsilərdi. Ən gəzməli, görməli yerlərdə gəzdirər, evinə yola salanda isə balından, qaymağından, pendirindən, yağından, yunundan, ətindən, meyvəsindən, tərəvəzindən bir neçə qolu zorlu kişinin güclə daşıya biləcəyi pay tutulardı.

Sonralar, qaçqınlıq illərində isə yolu Kəlbəcərdən keçən bütün insanların dilindən “unikal Kəlbəcər qonaqpərvərliyi” barədə eşitmək hər zaman bizi qürurlandırırdı, sanki yenidən o ellərə, o illərə qaytarırdı...

Güz vaxtı, yəni payızda havalar soyuduqca el yaylaqdan nisbətən isti ərazilərə, binələrə köçərdi. Uşaq hafizəmə dumanı, çəni, çiskini ilə həkk olunan payızın ən gözəl mənzərəsi isə çadırlardan burum-burum qalxıb buludlara qoşulan ağ ocaq tüstüsüdür. İlin bu vədəsində yağ, pendir hazırlanar, motal tutulardı, meşələrdən giləmeyvələr yığılar, qış ehtiyatı görülərdi...

Kəlbəcərin qış nağılı isə bir başqa olurdu. Bu fəsil yurdumun daha bir peşəkar memarı idi...

Ətrafda başqa rəng görə bilməzdin, yer də, göy də ağappaq bərq vuran örpəyə bürünərdi. Sıldırımlar üzərindən özünü aşağı atan şəlalələr bir andaca qıvrım heykəl olur, buzların ağzında iti qılınc kimi sıralandığı mağaralar sanki qəzəbli əjdahaya çevrilirdilər....

Şaxtalı, sazaqlı qış axşamlarında çırta-çırtla yanan odun sobasının ətrafında nəvələrinə şərf, corab, əlcək toxuyan nənələr həm də onlara nağıllar danışardılar. Bu zaman isə çovğunda sovrularaq qəzəblə pəncərəyə çırpılan qar dənələri sehrli və ecazkar mənzərələr çəkərdi bizim üçün...

## 1993-cü ilin növbəti baharı isə...




1993-cü ilin növbəti baharı isə kəlbəcərlilər üçün qışa çevrildi. Hər kəs gərgin, narahat idi. Böyüklərin bu təlaşı biz uşaqları da məyus edirdi. Müharibə şəraitində yaşayırdıq. Artıq Kəlbəcər də atəşə tutulur, bombaların, raketlərin səslərini lap yaxından eşidirdik.

Bütün bunlar bir yana, heç yadımdan çıxmaz, martın 20-dən sonra idi, babamgilin bağındakı böyük armud ağacının altında bir qara toyuq banladı. Bunu eşidən nənəmin dizlərinə çırparaq əlləri ilə üzünü cırması və dəhşətli qorxu içərisində bu sözləri dediyini eşitdim: “Allah, özün saxla, toyuq banladı, göydən başımıza daş yağacaq...”

Deyə bilmərəm, nənəmin bədə yozduğu kimi bu yaşananların toyuğun banlamasıyla əlaqəsi var idi, ya yox, amma nə yazıq ki, elə həmin hadisədən bir neçə gün sonra həqiqətən də başımıza göydən həm daş, həm də bomba yağmağa başladı...

1993-cü il aprelin 2-də ərazicə ən böyük strateji rayonumuz Kəlbəcər Ermənistan tərəfindən işğal olundu. Əslində Kəlbəcər rayonu Dağlıq Qarabağ müharibəsi başlayandan iki tərəfdən mühasirədə idi, 1992-ci ildə Laçının işğalından sonra Kəlbəcərin daha bir tərəfi bağlandı və rayon 3 tərəfdən düşmən mühasirəsində qaldı. Kəlbəcərin Azərbaycanın digər bölgələri ilə əlaqəsi yalnız 3500 metr hündürlükdə olan Murov dağı vasitəsilə həyata keçirilirdi.

Qeyd edək ki, 1993-cü il mart ayının 23-dən etibarən 10 sutkadan çox gedən gərgin döyüşlərdə 701 saylı hərbi hissə, Kəlbəcər könüllüləri və helikopterçilər özlərindən 15 qat üstün olan düşmən qüvvələri ilə mühasirə şəraitində vuruşaraq mühasirədə olan 60 min kəlbəcərlinin təxliyəsinə nail olmuşdu.

Qarabağın “qala qapısı” adlanan Kəlbəcərin işğalı ilə Ermənistan qısa zamanda Azərbaycanın daha beş rayonunu da zəbt edə bildi.

1993-cü il aprelin 2-də Murovdan Gəncəyədək sıralanan köç karvanı gözlərim önündəki ən acı təsvirdir. Həmin anlar orada yaşanan ağrı-acı, insanların gözlərindən oxunan dəhşət, dillərindəki ağılar qiyamətə qədər yadımdan çıxmaz. Yaddaşıma həkk olunan hadisələrdən biri isə həmin günlər göy üzünü qara bulud kimi alan qarğa-quzğun sürüsüydü. Səs-küylərindən qulaq tutulurdu və içərisində olduğumuz bu faciəvi durumu daha da vahiməli edirdi. Bəli, biz Kəlbəcəri tərk edirdik, qarğa-quzğunlar isə ora tələsirdilər...

## Ali Baş Komandanın “Qarabağ Azərbaycandır!” haqq nidası Kəlbəcərin 27 illik əsarətinə son qoydu

Kəlbəcərdən sonrakı yaşantımız isə tamamilə rəngsiz, boz oldu. Təbii ki, aclıq, yoxluq, maddi çətinliklər bütün məcburi köçkünlər kimi, bizləri də bu zaman ərzində müşayiət etdi. Həyatdakı ən gözəl illərimiz bu cür sıxıntılarla, əziyyətlərlə bada getdi. Mənəvi məhrumiyyətlərimizi təsvir etməkdə isə acizlik çəkirəm. Təbii ki, toy da etdik, nişan da apardıq, bayramlarda bir yerə yığışdıq, qonaq da getdik, amma bütün bu məclislərin heç birində ürəkdən sevinə bilmədik. Elə bil nə isə gözləyirdik, hara isə getməyə can atırdıq, amma gedə bilmirdik...

Beləcə, düz 1993-cü ilin 2 aprelindən bu əzablar məngənəsində çırpına-çırpına yaşamağa çalışdıq...

Amma gün yetişdi, 2020-ci ilin 27 sentyabrı kəlbəcərlilərin diriliş, 25 noyabr isə Kəlbəcərin qurtuluş gününə çevrildi.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin “Qarabağ Azərbaycandır!” haqq nidası Kəlbəcərin 27 illik əsarətinə son qoydu.

## Çay üstündə qala

Ölkənin cənub-qərb bölgəsinin zirvəsi hesab olunan Kəlbəcər rayonu dəniz səviyyəsindən 1500-3800 metr yüksəklikdə Tərtər çayı vadisində Kiçik Qafqazda yerləşir. “Kəlbəcər” toponiminin mənşəyi qədim türk dilində (oykonimin ilkin forması Kevliçer kimi qəbul edilib) “çay üstündə qala” deməkdir.

Kəlbəcər ən qədim insan məskənlərindən biridir. Bu ərazidə ibtidai insanın təşəkkül tapması və formalaşması 4 milyon ildən artıq bir zamana dayanır.

1936 kvadrat kilometr ərazisi, 60 min əhalisi, 128 kəndi olan Kəlbəcər rayonu böyük tarixi keçmişi, zəngin mədəniyyəti, qədim tarixi abidələri, təbii sərvətləri ilə seçilir.

Kəlbəcər ərazisində 30 min ildən çox tarixi olan qədim yaşayış məskənləri, 6 min il yaşı olan qaya təsvirləri, çöpşəkilli qədim türk əlifbası nümunələri aşkar edilib. Buradakı daş abidələr Şimali Azərbaycanda erkən dövr türklüyün, atəşpərəstliyin, xristianlığın, VII əsrdən isə islamın yayıldığı dövrlərdə yaradılıb.

Kəlbəcərdə “Türk qəbiristanlığı” adı ilə tanınan bir neçə qədim məzarlıq var. Bunların ən böyüyü Alıbəyli, Kəlbəcər, Zar və başqa kəndlərin ərazisindədir. Qəbiristanlıqlar müxtəlif əsrlərdə yaradılmış, forma və ölçüləri ilə bir-birindən fərqlənən at, qoç, sandıq qəbirüstü fiqurlar, başdaşı və günbəzlərlə zəngindir.

Kəlbəcər ərazisindəki qayaüstü təsvirlər Qobustandakı yazılı və şəkilli daşların oxşarı - “əkiz”lərdir. “Soltan Heydər”, “Qurbağalı çay”, “Turşsu”, “Ayçınqıllı”, “Gəlinqayası”, “Böyükdəvəgözü”, “Sərçəli” və s. yerlərdəki qayaüstü təsvirlər təkcə Kəlbəcərin deyil, bütövlükdə Azərbaycan torpağının qədim insan məskəni olduğunu sübut edir.

Kəlbəcərdə alban dövrünə aid xeyli tarixi abidələr də var. Bunlardan ən məşhuru Xudavəng məbəd kompleksidir. Bu abidə kompleksi VI-VII əsrlərdə alban knyazı tərəfindən tikilib, XV əsrdə isə bu abidə alban knyazlığının dini məbədi olub. Sonralar məbəd bir neçə dəfə təmir edilib, əlavələr olunub və nəhayət, alban hökmdarı Həsən Cəlal tərəfindən yenidən inşa edilib. Həsən Cəlalın arvadı Minə Xatun bu qalada dəfn olunub. Kəlbəcərdə “Laçınqaya”, “Lev”, “Uluxan”, “Qalaboynu”, “Comərd” adlı digər qədim alban abidələri də var.

Təəssüf ki, erməni vandalları buranı işğal etdikdən sonra bu tarixi abidələrin əksəriyyətini məhv ediblər.

## Bu dünyanın xəzinə sandığı Kəlbəcərdədir

Kəlbəcəri təkcə Azərbaycanın deyil, dünyanın Yer üzündəki xəzinəsi adlandırsaq, qətiyyən yanılmarıq. Bu qədim yurd yeraltı və yerüstü təbii sərvətlərlə zəngindir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin məlumatına görə, Kəlbəcər rayonu ərazisində sənaye əhəmiyyətli ehtiyatları 112,5 ton olan və istismar olunan Söyüdlü (Zod) və ehtiyatları 13 tondan çox olan Ağduzdağ və Tutxun qızıl yataqları var. Sənaye əhəmiyyətli ümumi ehtiyatları 1000 tondan çox olan civə yataqları da buradadır. Həmçinin tuf, gil, perlit, üzlük daşı, qum-çınqıl qarışığı, gözəl dekorativliyə malik 4 mərmər oniksi, nefroid, 1 obsidian (dəvə gözü), 1 listvenit yataqları var.

Kəlbəcər Yuxarı İstisu, Aşağı İstisu, Keşdək, Qarasu, Tutxun, Mozçay, Qoturlusu kimi çox böyük müalicə-balneoloji təsirə malik mineral su yataqları ilə də dünyada şöhrət qazanıb.

İstisu bulağı üstündə 1980-ci illərdə iri kurort və mineral sudoldurma zavodu tikilmişdi. Həmin zavod sutkada 800 min litr su istehsal edirdi.

Rayonun İstisu qəsəbəsində ümumittifaq əhəmiyyətli 1 və 2 nömrəli İstisu sanatoriyaları fəaliyyət göstərirdi. Hər il orada 50 min nəfər müalicə olunur və istirahət edirdi.

Murovdağ, Şahdağ, Vardenis, Mıxtökən, Qarabağ silsiləsinin və Qarabağ yaylasının bir hissəsinin əhatəsində yerləşən Kəlbəcər şəhərinin ən yüksək zirvələri Gamış dağı (3724 m) və Dəlidağdır (3616 m). Ən böyük çayı Tərtər (yuxarı axını) və onun qolları Lev çayı, Tutqunçay və başqalarıdır.

Sərsəng su anbarı da 1976-cı ildə Tərtər çayı üzərində inşa edilib. Onun ümumi su tutumu 560 milyon kubmetr, bəndinin hündürlüyü 125 metrdir. Tərtər çayının yığıldığı bu nəhəng su anbarının sağ və sol sahilindən çıxan magistral kanallar vasitəsilə Tərtər, Bərdə, Yevlax, Ağcabədi, Ağdam və Goranboy rayonlarının ümumilikdə 79000 hektar əkin sahəsini suvarmaq mümkündür.

Kəlbəcər rayonunun Ala göllər, Zalxa gölü və s. kimi saf sulu gölləri var.

## 4 mindən artıq müxtəlif növ bitkidən 200-ə qədəri dərman bitkisidir

1988-ci ildə aparılmış son meşə quruluşu işlərinə əsasən, Kəlbəcər meşə təsərrüfatının ərazisi 32774 hektar təşkil edirdi. Bundan əlavə, rayonda 8676 hektara yaxın kolxoz və sovxoz meşələri, qiymətli balıq növləri olan çayların ətrafında yerləşmiş 13471 hektar qoruq meşələri, 15531 hektar ətraf mühitin mühafizəsi əhəmiyyətli meşələr, 274 hektar yaşıllıq, 80 hektar meşə-park zonası var idi.

Meşələrdə bitən ağac və kolların bir neçəsi Azərbaycan Respublikasının “Qırmızı Kitabı”na daxil edilmişdir. Kəlbəcər rayonunda dəniz səviyyəsindən 1500-2100 m hündürlükdə bitən ayıfındığı və ya ağacvarı fındıq bunlardan biridir. Bəzi ayıfındığı ağacının hündürlüyü 25 metrə, diametri 48-120 santimetrə çatırdı.

Kəlbəcər rayonu ərazisində 4 mindən artıq müxtəlif növ bitkidən 200-ə qədəri dərman bitkisidir.

Rayon işğal olunarkən 140 iri və orta müəssisə, 90 məktəbəqədər uşaq müəssisəsi, 115 ümumtəhsil məktəbi, 1 texniki peşə məktəbi, 107 xəstəxana və tibb müəssisəsi, 214 mədəniyyət ocağı ermənilər tərəfindən yandırılıb, darmadağın edilib. Kəlbəcərin 60 min əhalisi ölkənin 61 rayon və şəhərində məskunlaşıb.

## Siz də Kəlbəcərə qonaq gəlin və görün ki, yurdumun nə cah-cəlalı var...

Bəli, uşaqlığım, nağıl dünyam keçib bu diyarda... O dağların zirvəsinə, dar keçidlərinə, dolanbac cığırlarına, dik aşırımlarına bələdəm... Göz-gözü görməyən çənində o qədər azmışam, yarpızlı, baldırğanlı bulaqlarından o qədər su içmişəm ki...

Amma bircə dəfə də olsun ağlıma gətirməmişəm ki, haçansa bu ucalığa, bu qüdrətə, bu ecazkarlığa həsrət qalacam...

Elə buna görə də Kəlbəcəri heç zaman yox saymamışam, xatirələrimdə, varlığımda yaşatmışam. İndi isə yenidən doğma yurduma qovuşmağa, torpağına qarışmağa gedirəm. Əslində, Tanrının qüdrətindən var etdiyi bu misilsiz diyarı insan övladı sözlə təsvir etməkdə acizdir. Yaxşısı budur ki, siz də Kəlbəcərə qonaq gəlin və görün ki, yurdumun nə cah-cəlalı var...

*Payız axşamında meşə sakit, lal,*
*deyəsən meşənin yuxusu gəlir.*
*Buralar bənzəyir bizim yerlərə,*
*bu yerdən Kəlbəcər qoxusu gəlir...*

***Yasəmən MUSAYEVA,***
***“Azərbaycan”***



















# Arxa cəbhə



## Qələbə Azərbaycan kəndlisini torpağa daha möhkəm bağlayıb

COVID-19-un yaşatdığı bütün məhrumiyyətlərə baxmayaraq, bu il ölkəmizin tarixində böyük Qələbə ili kimi əbədi qalacaq. 44 günlük Vətən müharibəsində düşmən üzərində dünya hərb tarixinə yazılacaq zəfər qazandıq. İşğal altında qalan torpaqlarımızı azad etdik. Həmin torpaqlarda ermənilərin törətdikləri vəhşiliklərə bütün dünya şahid oldu.



Prezident İlham Əliyev Füzuli, Cəbrayıl və Ağdam rayonlarına səfəri zamanı bəyan etdi ki, işğaldan azad olunmuş ərazilərimizdə geniş bərpa-quruculuq işləri görüləcək, doğma yurdlarından didərgin düşən insanlara əvvəlkindən də yaxşı şərait yaradılacaq. Buna şübhə yoxdur. Çünki Azərbaycan dövlətinin nəyə qadir olduğunu bilirik. Üstəlik, İlham Əliyev sözünün üstündə duran lider, xalqımız isə qurubyaradan, əzmkardır.

Müharibənin getdiyi günlərdə bunun bir daha şahidi olduq. Döyüş yerlərinə yaxın ərazilərdə, eləcə də erməni vandallarının gecə-gündüz atəşə tutduğu cəbhədən kənardakı bölgələrdə Azərbaycan kəndlisi imkan daxilində torpağı əkib-becərir, yetişdirdiyi məhsulu yığmaqda davam edirdi. Baxmayaraq ki, xislətindən doğan bütün rəzilliklərə qadir olan düşmən tarlada əkin-biçinlə məşğul olan dinc sakinləri atəşə tutub qətlə yetirməkdən çəkinmirdi.

Azərbaycan Ordusunun möhtəşəm qələbəsi sayəsində düşmənin bu naqis əməllərinə son qoyuldu. İndi cəbhəyanı bölgələrdə qalan məhsulun itkisiz yığılması işləri sürətlə davam edir. Ağdam rayonunun müharibədən əvvəl təmas xətti hesab edilən ərazisindəki Mirəşelli kəndində olduğu kimi. Pambıqçı Eldar Qasımov deyir ki, ötən il sahədən 407 sentner məhsul götürmüşdü. Bu il məlum səbəblərdən yığım prosesi bir qədər ləngidi. Bu səbəbdən ilk yığımda 40 sentnerdən çox məhsul əldə edib. İkinci yığımda bu göstərici yəqin ki, əvvəlkindən daha çox olacaq. Pambıqçı torpağı rahat şəkildə əkib-becərməklə gələn ildən daha yüksək məhsul götürəcəyinə əmindir. Dövlətin pambıqçılığın inkişafına verdiyi dəstək də əkinçini daha bol məhsul yetişdirməyə sövq edir.

Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsinin müdiri Vüqar Hüseynov bildirib ki, bu il pambıqçılıqda ölkə üzrə orta məhsuldarlıq göstəricisi yüksəkdir: “Fermerlərimiz hələlik sahələrdən 310 min tona yaxın məhsul yığaraq qəbul məntəqələrinə təhvil veriblər. Halbuki ötən il pambıq mövsümünün yekununda ölkə üzrə 295 min ton məhsul yığılmışdı. Hazırda pambıq üzrə orta məhsuldarlıq 31 sentnerdir. Pambıq əkilmiş 21 rayondan 9-da orta məhsuldarlıq 30 sentneri keçib. Yığım hələ davam edir. Mövsümün yekununda Azərbaycan pambıqçılıq tarixində nadir qeydə alınan yüksək orta məhsuldarlıq göstəricisi əldə edəcəyimizi gözləyirik”.

Nazirlik rəsmisi həmçinin bildirib ki, sentyabrın 27-dən başlayaraq erməni hərbi birləşmələrinin təmas xəttinə yaxın əraziləri mütəmadi atəşə tutması, mülki əhalini, aqrar infrastrukturu, kənd təsərrüfatı texnikasını hədəfə alması həmin yerlərdə pambıq yığımında çətinliklər yaratmışdı. Ötən il yüksək məhsuldarlıq qeydə alınmış Tərtər və Ağdam rayonlarında, Füzuli, Ağcabədi və Bərdənin təmas xəttinə yaxın ərazilərində pambıq yığımını həyata keçirmək üçün maneələr olmuşdu. Bu səbəbdən həmin rayonlarda pambıq yığımına noyabrın 10-dan sonra başlanılıb. Yığım gecikdiyindən məhsulun itkisiz toplanması üçün bu rayonlara əlavə kənd təsərrüfatı texnikası göndərilib.

Dövlət taxılçılığın inkişafına da xüsusi diqqət yetirir. Çünki bu sahə ölkənin ərzaq təhlükəsizliyinin təminatında mühüm yer tutur. Bu məqsədlə dövlət taxılçılıqla məşğul olan fermerlərə yanacaq və sürtkü yağlarına görə güzəştlər edir, buğda istehsalçılarına son məhsula görə subsidiya verir. Hacıqabul əkinçiləri bundan lazımınca bəhrələnməyə çalışırlar. Rayon fermerləri artıq 9 min hektardan çox sahədə payızlıq səpin (4 min 895 hektarda arpa, 4 min 246 hektarda buğda) aparıblar.

Bu il Ağcabədi taxılçıları 28 min 324 hektardan 105 min 49 ton məhsul əldə ediblər. Məhsulun 77 min 150,9 tonu buğda, 28 min 343,1 tonu arpadır. Məhsuldarlıq hər hektardan orta hesabla 37,2, o cümlədən buğda üzrə 38,6, arpa üzrə 34 sentner olub. Rayon taxılçıları gələn il də bol məhsul yetişdirmək üçün səylə çalışırlar. Cari il 28 min hektardan çox sahədə taxıl səpini nəzərdə tutulub. İndiyədək 26 min 929 hektar sahədən çox payızlıq şumu aparılıb, 10 min 450 hektara buğda, 5 min 60 hektara arpa səpilib.

Bir sözlə, böyük Qələbədən güc alan, torpağa daha möhkəm bağlanan Azərbaycan kəndlisi öz işində-gücündə, yeni nailiyyətlər qazanmaq əzmindədir.

***Rüstəm KAMAL,***
***“Azərbaycan”***

## COMCEC-in 36-cı sessiyasının açılış mərasimi keçirilib

İslam Əməkdaşlıq Təşkilatının (İƏT) İqtisadi və Ticarət Əməkdaşlığı üzrə Daimi Komitəsinin (COMCEC) 36-cı sessiyasının videokonfrans formatında açılış mərasimi təşkil olunub. Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın sədrliyi ilə keçirilən tədbirdə İƏT üzvü olan dövlətlərin nümayəndə heyətləri, İƏT-in ixtisaslaşmış institutlarının və müxtəlif beynəlxalq təşkilatların nümayəndələri iştirak ediblər.

Mərasimdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan açılış nitqi ilə çıxış edib. İslam Əməkdaşlıq Təşkilatının baş katibi Yusef bin Ahmad Al-Osaymi, Asiya, Ərəb və Afrika regional qrupları üzrə Banqladeş, Küveyt və Nigeriya rəsmiləri İƏT-ə daxil olan dövlətlər arasında qardaşlıq və həmrəylik əlaqələrinin genişləndirilməsinin önəmini qeyd edərək, iqtisadi və ticarət əməkdaşlığının gücləndirilməsi yolları barədə fikirlərini diqqətə çatdırıblar.

Sonra Azərbaycana xüsusi çıxış üçün söz verilib. Azərbaycan nümayəndə heyətinin rəhbəri, iqtisadiyyat naziri Mikayıl Cabbarov İƏT-in islam dünyasında rifahın yaxşılaşdırılması və problemlərin həllində əhəmiyyətli rolunu vurğulayıb, üzv dövlətlərin qurumun müxtəlif platformaları vasitəsilə əməkdaşlıq etdiyini, birgə layihələr icra olunduğunu qeyd edib. Bildirilib ki, Azərbaycan COMCEC-in COVID-19 pandemiyası ilə bağlı xüsusi proqramında iştirak edir.

Azərbaycanın İƏT üzvü olan ölkələrlə ikitərəfli iqtisadi-ticarət əməkdaşlığı barədə məlumat verən Mikayıl Cabbarov 2020-ci ilin 10 ayında COMCEC ölkələrinin Azərbaycanın xarici ticarətindəki payının 22 faiz təşkil etdiyini, ticarət əlaqələrinin daha da genişləndirilməsi üçün İƏT qurumları arasında tərəfdaşlıq layihələrinin artırılmasının önəmini vurğulayıb. Qeyd edilib ki, İslam İnkişaf Bankı ilə Azərbaycan uğurlu əməkdaşlıq həyata keçirir, indiyədək bank tərəfindən ölkəmizdə müxtəlif sahələrə 1 milyard dollaradək maliyyə vəsaiti ayrılıb. Azərbaycan üçün İƏT-in siyasi baxımdan da xüsusi önəmini qeyd edən iqtisadiyyat naziri diqqətə çatdırıb ki, ölkəmiz müstəqilliyini bərpa edəndən sonra ilk üzv olduğu beynəlxalq qurum məhz İƏT-dir.

COMCEC-in 36-cı sessiyasında Mikayıl Cabbarov 27 sentyabrda Ermənistan silahlı birləşmələrinin ölkəmizə qarşı növbəti hərbi təxribatı barədə məlumat verib, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun qələbəsini və torpaqlarımızın işğaldan azad edildiyini vurğulayıb, İƏT və onun alt qurumları tərəfindən Azərbaycanın haqlı mövqeyini dəstəkləyən çoxsaylı qətnamələr qəbul edildiyini, bəyanatlar verildiyini və xalqımız tərəfindən yüksək qiymətləndirildiyini bildirib. Bütün münaqişə boyu və 44 günlük müharibə müddətində Türkiyə dövlətinin və xalqının Azərbaycana göstərdiyi böyük dəstəyin ölkəmizə və xalqımıza əlavə güc və ruh yüksəkliyi verdiyini vurğulayan nazir bu dəstəyə görə Azərbaycan Hökuməti adından təşəkkürünü bildirib. Ulu Öndər Heydər Əliyevin dediyi kimi, “biz bir millət, iki dövlətik”.

Eyni zamanda şərəfli və haqq yolumuzda Azərbaycana dəstək olan digər ölkələrə də minnətdarlıq ifadə edilib.

İslam dünyasında əməkdaşlığın bariz nümunəsi sayılan COMCEC-in 36-cı sessiyasının işinə uğurlar arzulayan Azərbaycanın iqtisadiyyat naziri işğaldan azad olunmuş Qarabağ regionunda yeni infrastruktur və tikinti layihələrinin həyata keçirilməsinin ölkəmizin qarşısında duran əsas vəzifələrdən olduğunu, investisiya qoyulması üçün geniş imkanlar yaradılacağını vurğulayıb, İƏT-ə üzv olan ölkələri işğaldan azad olunmuş ərazilərimizdə həyata keçiriləcək layihələrdə əməkdaşlığa dəvət edib.

## Azərbaycan yolların keyfiyyətinə görə 141 ölkə arasında 24-cü yerdə qərarlaşıb

Dünya İqtisadi Forumu 2019-cu il üzrə “Yolların keyfiyyəti” (Quality of roads) göstəricisinə dair hesabatını açıqlayıb.

AZƏRTAC xəbər verir ki, Azərbaycan 5,20 ballıq göstərici ilə 141 ölkə arasında 24-cü yerdə qərarlaşıb.

Qeyd edək ki, 2006-2019-cu illər arasında Azərbaycan üzrə orta bal 4,08 olub (2006-cı ildə minimum 3,32 bal, 2019-cu ildə maksimum 5,2 bal).



Müqayisə üçün bildirək ki, 141 ölkə əsas götürülməklə 2019-cu ilə dair dünya üzrə orta bal 4,07 olub.

## Özünüməşğulluq proqramı indi də Kəlbəcərdə

30 ilə yaxındır davam edən Kəlbəcər həsrəti də bitdi - ölkəmizin bir parçası olan Kəlbəcər rayonu da erməni işğalından azad olundu.

Hər birimizin qəlbində Kəlbəcər sevinci hökm sürür, Kəlbəcər sakinlərinin bu sevinci, fərəhi isə sonsuzdur. Kəlbəcərdən olan özünüməşğulluq proqramı iştirakçıları nəinki onların, gələcək nəsillərin də bu şanlı zəfəri, doğma yurd yerlərimizin azad edildiyi bu günləri heç zaman unutmayacaqlarını, daim qürurla xatırlayacaqlarını vurğulayırlar. Öz rayonlarına qayıtmağa hazırlaşan həmin vətəndaşlar artıq məcburi köçkün olmadıqlarını fərəhlə qeyd edirlər. Dövlətin daha bir qayğısı kimi özünüməşğulluq proqramının dəstəyi ilə qurduqları ailə bizneslərini də Kəlbəcərə aparacaqlarını bildirirlər.




Təbiətin minbir gözəllik bəxş etdiyi, torpağı barlı-bərəkətli Kəlbəcərdə öz ailə təsərrüfat və müəssisələrini uğurla inkişaf etdirəcəklərini əminliklə söyləyirlər.

## Daha üç rayonda şəhid ailələri və Qarabağ müharibəsi əlilləri mənzil və fərdi evlərlə təmin edilib

Qələbə sevincini yaşadığımız günlərdə şəhid ailələrinin, müharibə əlillərinin mənzillə, fərdi evlərlə təminatı tədbirləri də davam edir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən daha 3 rayonda 19 mənzil və fərdi ev (Lənkəranda 10 mənzil, Sabirabad və Salyanda 9 fərdi ev) həmin kateqoriyalardan olan vətəndaşlara təqdim olunub.

Lənkəran şəhərində mənzillərin təqdim edilməsi tədbirində əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Vüsal Nəsirli və Lənkəran şəhər icra hakimiyyətinin başçısı Taleh Qaraşov iştirak ediblər.

V.Nəsirli vurğulayıb ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimiz 30 ilə yaxın Ermənistanın işğalı altında qalan ərazilərimizi cəmi 44 gün ərzində işğaldan azad etməklə güclü ordular sırasında olduğunu bir daha nümayiş etdirdi. Eyni zamanda Azərbaycan düşmənə qarşı mübarizədə sarsılmaz milli birliyin yenilməz nümunəsini ortaya qoydu. Bu parlaq Qələbə ilə məcburi köçkünlərimizin 30 illik yurd həsrətinə son qoyuldu. İşğaldan azad edilmiş ərazilərimizdə geniş miqyasda quruculuq və abadlıq, habelə sosial infrastrukturun qurulması işləri çərçivəsində sosial xidmətlər və reabilitasiya müəssisələri də yaradılacaq.

Nazir müavini şəhid ailələrinin, ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərdə sağlamlığını itirmiş vətəndaşların mənzillə təminatı işlərindən bəhs edib. O, dövlət başçısının tapşırığı ilə bu işlərin ildən-ilə geniş vüsət aldığını diqqətə çatdırıb.

Bildirib ki, 2018-ci ildə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən şəhid ailələrinə və müharibə əlillərinə 626, ötən il bundan 50 faiz çox olmaqla 934 mənzil və fərdi ev verilib. 2020-ci ildə isə rekord həcmdə - azı 1500 mənzil və fərdi evin şəhid ailələri və müharibə əlillərinə verilməsi işləri aparılır. Onlardan artıq böyük əksəriyyəti təqdim edilib.

Ümumilikdə, ötən dövrdə 8423 mənzil və fərdi ev bu kateqoriyadan olan vətəndaşlara verilib. Dövlət başçısının tapşırığına uyğun olaraq, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Vətən müharibəsində şəhid olmuş insanların ailələrinə, müharibə əlillərinə dəstəyin göstərilməsi, həmçinin onlara mənzillərin, evlərin verilməsi üçün də müvafiq işləri aparacaq.

T.Qaraşov sosial sahəyə dövlət qayğısının daim artmaqda olduğunu, Lənkəran rayonunda da sosial müdafiə tədbirlərinin geniş miqyasda davam etdirildiyini bildirib.

Evlərlə təmin olunan şəhid ailələrinin üzvləri, Qarabağ müharibəsi əlilləri düşmən üzərində böyük Qələbənin əldə olunmasının onlar üçün ən böyük hədiyyə olduğunu, işğaldan azad olunan torpaqlarımızda üçrəngli Azərbaycan bayrağının dalğalanmasından böyük qürur hissi keçirdiklərini qeyd ediblər. Xalqımıza sonsuz zəfər sevinci bəxş etdiyinə və bu qələbə ovqatlı günlərdə onlara mənzillər təqdim olunduğuna görə Prezident, Ali Baş Komandan İlham Əliyevə dərin minnətdarlıqlarını bildiriblər.

## *Ağdam iqtisadiyyatı:* reallıqlar, perspektivlər

Ağdam rayonu Qarabağın mərkəzində - eyniadlı dağ silsiləsinin şimal-şərq ətəklərində, Kür-Araz ovalığının qərbində yerləşir. Yuxarı Qarabağ regionuna daxil olan Ağdam rayonu 1930-cu il avqustun 8-də yaranıb. Rayonda 1 şəhər, 2 qəsəbə (Quzanlı, Açarlı), 123 kənd var. Dövlət Statistika Komitəsinin 1 yanvar 2020-ci il tarixə olan məlumatına görə, Ağdamın əhalisi 204 min, rayonun işğal olunmayan kəndlərində yaşayan əhalinin sayı isə 46,6 min nəfərdir.

Ağdam işğaldan əvvəl ağır, yeyinti və yüngül sənayeyə, inkişaf etmiş kənd təsərrüfatına malik rayon olmuşdur. Rayon ərazisinin 1700 hektarı meşəlik, 91,3 hektarı kənd təsərrüfatına yararlı torpaqlardan ibarət idi. Bitkiçilik məhsulları üzrə tərəvəz, dənli və dənli paxlalılar, o cümlədən buğda, eləcə də şəkər çuğunduru, pambıq, üzüm, meyvə və giləmeyvə, dən üçün günəbaxan, kartof və bostan, heyvandarlıq məhsulları üzrə isə ət, süd, yumurta və yun istehsalı geniş vüsət almışdır.

Ağdamda dəzgah avadanlıqları, aerokosmik və rabitə cihazları və s. istehsal olunurdu. Rayonda traktor və avtomobil təmiri, asfalt, konserv, yağ-pendir, barama toxumu, pambıq, şərab və mexanikləşdirilmiş çörək zavodları, xalça fabriki, taxıl məhsulları emalı ilə bağlı müəssisələr var idi. Həmçinin 39 tikinti təşkilatı, 29 kənd təsərrüfatı və 27 sənaye müəssisəsi, 13 kolxoz və 12 sovxoz, eləcə də onlara xidmət edən 4 təşkilat olmuşdur. Ağdam Dəzgahqayırma Zavodunda 950 nəfər çalışmışdır. Zavodun məhsulları keçmiş SSRİ-nin 125 şəhərinə göndərilirdi. Rayonda 2 dəmir yolu vağzalı və aeroport, avtomobillərə texniki xidmət stansiyaları, məişət xidməti kombinatı, kənd təsərrüfatının mexanikləşdirilməsi və elektrikləşdirilməsi müəssisəsi mövcud idi. Rayondakı taxıl məhsulları kombinatı ildə 80 min ton məhsul istehsal edirdi.



Ağdam əhalisinin milli tərkibi 2009-cu il siyahıyalınmasına əsasən, 99,9 faizi azərbaycanlı, digər 0,1 faizi isə rus, ləzgi, tatar, türk və başqa millətlərdən ibarət olmuşdur. Təhsil müəssisələrində oxuyanların sayı 36.600 nəfər olmaqla, əhalinin 18,1 faizini əhatə etmişdir. Ali məktəblərdəki tələbələrin sayı isə 2431 nəfər olmuşdur ki, bu da ümumilikdə təhsil alanların 6,6 faizi idi.

Digər sosial-iqtisadi göstəricilərə gəldikdə isə, rayon üzrə 2018-ci ildə istehsal edilən sənaye məhsullarının dəyəri müvafiq ilin qüvvədə olan faktiki qiymətləri ilə 12,6 milyon manat olmuşdur. Həmin dövr pərakəndə ticarət dövriyyəsinin dəyəri isə 43,3 milyon manata çatmışdır.

Ağdamın 27 il işğalda qalmış ərazisinin azad edilməsi rayon iqtisadiyyatının bərpa işlərindən sonra inkişafını sürətləndirəcəyi şübhəsizdir. Çünki rayon ərazisi bitkiçilik və heyvandarlıq üzrə fermer təsərrüfatlarının və aqroparkların yaradılması, sənaye məhəlləsinin formalaşdırılması, müalicəvi və idman turizminin inkişafı istiqamətində geniş perspektivlər vəd edir. Ağdam rayonu ticarət mərkəzinin formalaşması üçün də unikal perspektivə malikdir. Topdan və pərakəndə ticarət məntəqələrinin fəaliyyətə başlaması ilə rayon əhalisinin geniş məşğulluğunu təmin etmək mümkündür. Habelə rayon tikinti materiallarının istehsalında keçmiş təcrübəyə malikdir. Şahbulaq yüksəkliyində yerləşən daş karxanasının işinin bərpa edilməsilə sözügedən sektorda canlanmanı bərpa etmək olar.

***“Azərbaycan”***

## Yeni elektron xidmət vergiödəyicilərinin işini asanlaşdırır

Xəbər verildiyi kimi, Dövlət Vergi Xidmətinin portalında yeni “Qüvvədə olan “ASAN imza” ilə yeni sertifikatın alınmasına dair müraciət” bölməsi vergiödəyicilərinin istifadəsinə verilib.

AZƏRTAC Dövlət Vergi Xidmətinin İctimaiyyətlə əlaqələr şöbəsinə istinadla xəbər verir ki, xidmətin portalından mütəmadi olaraq istifadə edən vergiödəyiciləri üçün sistemə giriş səhifəsindəki yeni “Qüvvədə olan “ASAN imza” ilə yeni sertifikatın alınmasına dair müraciət” bölməsindən istifadə qaydaları ilə bağlı təlimat artıq vergiödəyicilərinin poçt qutularına göndərilib. Biznes sertifikatının müddətinin bitməsinə 30 gündən az olmamaq şərti ilə həmin sertifikatla portalın yeni bölməsinə daxil olaraq yeni sertifikatın alınması üçün anket forması doldurulur və göndərilir. Bundan sonra, vergiödəyicisi sertifikatın müddətinin bitməsini gözləyir və “ASAN imza” təqdim edən provayderinə müraciət edib nömrənin dublikatını alır. Həmin dublikatda artıq yeni sertifikat da mövcud olacaq. Yeni bölmədən oxşar qaydada şəxsi “ASAN imza”ya biznes sertifikatının alınması üçün də istifadə etmək olar.

Maliyyə üzrə mütəxəssis Vüqar Mirheydərov yeni bölmənin yaradılmasını vergiödəyicilərinə xidmətin təkmilləşdirilməsi istiqamətində mühüm addım kimi qiymətləndirib. O, böyük razılıq hissi ilə bildirib ki, artıq portala daxil olmaq üçün istifadə olunan “ASAN imza” sertifikatının vaxtını uzatmaq və ya yeni biznes sertifikatı almaq üçün “ASAN xidmət” və vergiödəyicilərinə xidmət mərkəzlərində növbədə durmağa ehtiyac qalmır.

# Azərbaycanın haqq savaşı xarici mətbuatda



"France-24" kanalı Kəlbəcər rayonunun işğaldan azad edilməsi haqqında reportaj yayımlayıb.

AZƏRTAC xəbər verir ki, reportajda Kəlbəcərin rəsmi Bakı ilə əldə edilmiş razılaşmaya əsasən Ermənistanın Azərbaycana təhvil verməli olduğu üç rayondan ikincisi olduğu bildirilir. Altı həftəlik döyüşlərdən sonra Azərbaycanın öz mövqelərini möhkəmləndirdiyi vurğulanır.

Kanalın Azərbaycandakı çəkiliş heyəti Azərbaycan Ordusunun ermənilərin işğalı altında olmuş Kəlbəcər rayonuna girməsi ilə bağlı məlumat verir. Qeyd edilir ki, 27 ildən sonra ilk dəfədir Azərbaycan Ordusu rayona daxil olur və bu, əldə edilmiş razılaşmaya uyğun olaraq həyata keçirilir.

Reportajda Müdafiə Nazirliyinin Mətbuat xidmətinin rəisi Vaqif Dərgahlının fikirlərinə də yer verilib. O bildirir ki, bu gün bütün Azərbaycan xalqı, Azərbaycan Ordusu üçün sevindirici gündür. Düşmən qüvvələrinin Kəlbəcərdən çıxarılması üçtərəfli bəyanata əsasən həyata keçirilir.

Kəlbəcər sakini Aslan Kərimoğlu deyir: "Kəlbəcərdə keçirdiyim günləri heç vaxt unuda bilmərəm. Bu gün mənim həyatımda ən xoşbəxt gündür. Çünki mən 43 il yaşadığım torpağa yenidən qayıtmaq ümidindəyəm. Ümid edirəm ki, tezliklə oraya qayıdacağıq".

Reportajda qeyd edilir ki, 1993-cü ildə Ermənistan silahlı qüvvələri Kəlbəcər rayonunu işğal edib. Nəticədə 10 minlərlə azərbaycanlı rayonu tərk etməyə məcbur olub. Bu gün həmin məcburi köçkünlər Kəlbəcərə qayıtmağa və orada yaşamağa ümid edirlər.

❖❖❖


LAVANGUARDIA
Internacional
Directo
Coronavirus: estado de alarma, toque de queda y restricciones en España
AZERBAIYÁN ARMENIA
Tropas azerbaiyanas entran en el segundo distrito bajo el acuerdo del Karabaj
REDACCIÓN
25/11/2020 08:57
Bakú, 25 nov (EFE).- Las tropas azerbaiyanas entraron este miércoles en la región de Kalbajar, en la frontera entre Armenia y Nagorno Karabaj, en virtud del acuerdo sobre

İspaniyanın EFE informasiya agentliyi, ölkənin qocaman qəzetlərindən biri olan "La Vanguardia", həmçinin Latın Amerikasının "Diariolibre" onlayn nəşri Rusiya, Azərbaycan və Ermənistan liderləri tərəfindən imzalanan üçtərəfli bəyanata müvafiq olaraq, bu gün Azərbaycan Silahlı Qüvvələrinin Kəlbəcər rayonuna daxil olması barədə xəbər dərc ediblər.

AZƏRTAC xəbər verir ki, nəşrlər bundan əvvəl ermənilərin Kəlbəcərdən çıxarılması tarixinin 10 gün - noyabrın 15-dən 25-dək uzadılmasına Azərbaycan hakimiyyətinin razılıq verməsini qeyd edirlər.

İspan mətbuatı diqqətə çatdırır ki, 44 günlük müharibə Ermənistanda ciddi siyasi böhran yaradıb, ölkədə hökumətin istefası tələbi ilə iki həftədir etiraz aksiyaları keçirilir.

İspan KİV-i ötən cümə günü - noyabrın 20-də Azərbaycan Ordusunun Ağdam rayonuna - regionda döyüş əməliyyatlarının dayandırılması barədə razılaşmaya uyğun olaraq, Azərbaycana qaytarılan daha bir əraziyə daxil olmaları barədə yazıb.

❖❖❖


ahramonline
Azerbaijani troops enter further territory ceded by Armenia


Misirin ən nüfuzlu qəzeti olan "Əl-Əhram" Müzəffər Azərbaycan Ordusunun Kəlbəcərə daxil olması haqqında geniş xəbər yayıb.

AZƏRTAC xəbər verir ki, qəzetin saytında yerləşdirilmiş xəbərdə 30 ilə yaxın Ermənistanın işğalı altında qalan Kəlbəcər rayonunun əsl sahibinə - Azərbaycana qaytarıldığı qeyd olunur. Bildirilir ki, noyabrın 10-da imzalanmış bəyanatın şərtlərinə əsasən, Azərbaycan Ordusu noyabrın 15-də bu əraziyə daxil olmalı idi, lakin humanizm prinsipindən çıxış edən rəsmi Bakı ermənilərə işğal etdikləri rayonu boşaltmaq üçün daha 10 gün vaxt verib.

Xəbərdə Azərbaycan Müdafiə Nazirliyinin işğaldan azad olunan Kəlbəcər rayonundan ilk görüntüləri yaydığı qeyd edilir. Vurğulanır ki, bundan əvvəl Azərbaycan Ordusu ermənilərin kapitulyasiyasının şərtlərinə əsasən boşaldılan Ağdam rayonuna da daxil olub. Həmçinin vurğulanıb ki, ermənilər tərk etdikləri Kəlbəcərdə evləri və meşələri yandırıblar.

❖❖❖



Özbəkistanın "tnews.uz" və "fikr.uz" portallarında Kəlbəcərin işğaldan azad olunması münasibətilə Azərbaycan Prezidenti İlham Əliyevin xalqa müraciəti haqqında materiallar yerləşdirib.

AZƏRTAC xəbər verir ki, materiallarda Kəlbəcərin işğalından və orada erməni vandalları tərəfindən dağıdılan tarixi abidələrdən söz açılır.

Portallar yazır ki, Prezident müraciətin əvvəlində Kəlbəcər rayonunun 1993-cü il aprelin 2-də işğal edildiyini bildirib. Dövlət başçısı vurğulayıb ki, günahsız insanlar öz dədə-baba torpağından vəhşicəsinə qovulub. Kəlbəcərin tarixi abidələrinə, təbiətinə böyük ziyan vurulub.

Saytlar dövlət başçısının müraciətindən sitat gətirib: "Kəlbəcərin tarixi abidələri bizim böyük sərvətimizdir. Həm məscidlər, həm kilsələr bizim tarixi sərvətimizdir. Azərbaycan xalqı onu yaxşı bilir və bütün dünya bilməlidir ki, Kəlbəcərdə mövcud olan kilsələr qədim Qafqaz Albaniyası dövlətinə məxsusdur. Bunu təsdiqləyən bir çox tarixi sənədlər var. Bu, heç kəsə sirr deyil. Sadəcə olaraq, erməni "tarixçiləri" və saxtakarlar qədim alban kilsələrini saxtakarlıqla erməniləşdiriblər, öz yazılarını oraya əlavə ediblər və bu kilsələri özününküləşdiriblər".

Portallar dövlət başçısının müraciətinə istinadla yazır ki, 1830-cu illərdə çar Rusiyası alban kilsəsini ləğv etdi, alban kilsəsinin bütün mülkiyyətini erməni Qriqorian kilsəsinə verdi və erməni keşişləri, onların havadarları bu kilsələri mənimsəməyə başladılar.

Prezident vurğulayıb ki, Qafqaz Albaniyasının tarixini silmək, unutdurmaq onların başlıca vəzifəsi idi. Amma biz imkan vermədik.

❖❖❖


УКРИНФОРМ

Армения покинула уже второй район вблизи Карабаха
25.11.2020 05:42
Армия Армении, как и было условлено, до 25 ноября полностью покинула Кельбаджарский район Азербайджана.

Ukraynanın aparıcı KİV-i Azərbaycanın Kəlbəcər rayonunun işğaldan azad olunmasına və Prezident İlham Əliyevin bununla bağlı xalqa müraciətinə dair xəbərləri geniş işıqlandırıb.

AZƏRTAC xəbər verir ki, Ukrinform, UNİAN, "RBK-Ukrayna" informasiya agentlikləri, "Segodnya", "Gordon", "Dialog" və digər portalların yaydıqları informasiyalarda Azərbaycan Silahlı Qüvvələrinin ordu birləşmələrinin Kəlbəcər rayonuna daxil olması barədə məlumat verilib.

Qeyd edilib ki, Azərbaycan Prezidenti, Ermənistanın baş naziri və Rusiya Prezidentinin imzaladıqları üçtərəfli bəyanata əsasən Azərbaycan Ordusunun bölmələri noyabrın 25-də Kəlbəcər rayonuna daxil olub.

Bundan başqa, məqalələrdə Prezident İlham Əliyevin Kəlbəcər rayonunun işğalçılardan azad olunması ilə bağlı xalqa müraciətində Ermənistanın ünvanına səsləndirdiyi sərt fikirlər də işıqlandırılıb.

❖❖❖


الوطن
الرئيس إلهام علييف..كنا نحارب عدوا بربريا متوحشا وانتصارنا لا يقتصر على تحرير أراضينا فقط بل على تدمير الفاشية الأرمينية

Misirin "Əl Vatan əl xəbər" informasiya portalı Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin Kəlbəcər rayonunun işğaldan azad edilməsi münasibətilə xalqa müraciətinin əsas məqamlarını yayıb.

AZƏRTAC xəbər verir ki, portalın xəbərində dövlət başçısının Azərbaycanın qədim torpağı olan Kəlbəcərin 28 il əvvəl Ermənistan silahlı qüvvələri tərəfindən işğalı və bunun səbəbləri, ermənilərin bu ərazidə zəngin təbii sərvətləri talan etməsi, dövlətimizin milli sərvətimiz olan Qafqaz Albaniyasına məxsus kilsələri və məscidlərimizi qoruduğu, düşmənin isə müsəlman məbədlərində donuz və inək saxlaması, ölkəmizin Vətən müharibəsində həm döyüş meydanında, həm də informasiya və siyasət meydanında qələbə qazanması barədə fikirləri yer alıb.

Diqqətə çatdırılıb ki, Azərbaycan Prezidenti Kəlbəcərin və işğaldan azad edilmiş digər rayonların bərpa ediləcəyini, bu torpaqlarda inkişaf və tərəqqiyə nail olunacağını da vurğulayıb.

Xəbərdə vurğulanıb ki, Azərbaycanın dövlət başçısı ordumuzun düşməni məğlub etməsi ilə yanaşı, həm də erməni faşizmini darmadağın etdiyini söyləyib.

❖❖❖


Президент Азербайджана поздравил народ с освобождением Кельбаджара от оккупации

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Kəlbəcər rayonunun işğaldan azad edilməsi ilə bağlı xalqa müraciəti Gürcüstan KİV-inin diqqət mərkəzindədir. AZƏRTAC xəbər verir ki, report.ge, gaxa.ge, dalgatv.ge, 24news.ge informasiya agentlikləri, eləcə də yerli televiziyalar Prezident İlham Əliyevin xalqa müraciətində söylədiyi nitqdən xəbərlər yayıblar.

Materiallarda Qarabağda əldə olunan qələbənin təkcə Ermənistan üzərində deyil, erməni faşizmi üzərində də bir qələbə olması, Kəlbəcərin yenidən qurulması ilə əlaqədar baş planın hazırlanması, eləcə də Qafqaz Albaniyasına aid olan tarixi abidələrin, kilsələrin tarixi-mədəni sərvət olması ilə bağlı Prezidentin fikirləri diqqətə çatdırılır.

Dövlət başçısının bu fikirləri oxuculara təqdim edilib: "Kəlbəcərin tarixi abidələri bizim böyük sərvətimizdir. Həm məscidlər, həm kilsələr bizim tarixi sərvətimizdir. Azərbaycan xalqı onu yaxşı bilir və bütün dünya bilməlidir ki, Kəlbəcərdə mövcud olan kilsələr qədim Qafqaz Albaniyası dövlətinə məxsusdur. Bunu təsdiqləyən bir çox tarixi sənədlər var. Bu, heç kəsə sirr deyil. Sadəcə olaraq, erməni "tarixçiləri" və saxtakarlar qədim alban kilsələrini saxtakarlıqla erməniləşdiriblər, öz yazılarını oraya əlavə ediblər və bu kilsələri özününküləşdiriblər. Tarixə baxmaq kifayətdir, hər kəs görsün ki, 1830-cu illərdə çar Rusiyası alban kilsəsini ləğv etdi, alban kilsəsinin bütün mülkiyyətini erməni Qriqorian kilsəsinə verdi və erməni keşişləri, onların havadarları bu kilsələri mənimsəməyə başladılar. Qafqaz Albaniyasının tarixini silmək, unutdurmaq onların başlıca vəzifəsi idi. Amma biz imkan vermədik. Azərbaycanda bu məsələ ilə bağlı kifayət qədər böyük elmi baza var, əsərlər var. Bu əsərlər nəinki elm ictimaiyyətinə, bütövlükdə dünya ictimaiyyətinə çatdırılır və çatdırılmalıdır. Qafqaz Albaniyası böyük dövlət olub. Onun paytaxtı Qəbələ şəhəri olub. Qafqaz Albaniyasına aid olan tarixi abidələr, kilsələr bizim tarixi-mədəni sərvətimizdir".

Materiallarda ermənilərin tərk etdikləri ərazilərdəki vəhşiliklərdən də bəhs olunur: "Onlar evləri yandırırlar, hansı ki o evləri onlar tikməyiblər. Onlar kəlbəcərlilərin evlərinə giriblər, soxulublar, orada yaşayıblar. Məktəbləri yandırırlar, apara bilmədikləri ev heyvanlarını öldürürlər. Görün, biz kimlərlə, hansı vəhşilərlə üz-üzə idik! Mən bir daha deyirəm və hər dəfə də deyəcəyəm, bizim Qələbəmiz təkcə Ermənistan dövləti üzərində əldə edilmiş qələbə deyil, biz erməni faşizmini məhv etdik".

❖❖❖


Посол: "За все нужно платить"

Армения должна Азербайджану более 1 триллиона долларов за то, что 30 лет армяне разрушали мечети, храмы, кладбища,

Ermənilər 30 il müddətində Azərbaycan ərazilərində qanunsuz yaşayıblar, məscidləri, məbədləri, qəbiristanlıqları, evləri, binaları və abidələri dağıdıblar.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycanın Moldovadakı səfiri Qüdsi Osmanovun bu ölkənin "NOİ.md", "AVA.md", "İPN.md" və digər informasiya portallarında dərc olunan məqaləsində yer alıb.

Məqalədə səfir bildirib ki, müzəffər Azərbaycan Ordusuna işğal edilmiş torpaqları geri qaytarmaq, Ermənistanın ölkəmizin mədəni irsindən və təbii sərvətlərindən sui-istifadəyə son qoymaq üçün 44 gün kifayət etdi. İndi digər vacib məsələ var - ermənilər hər şeyə görə cavab verməlidir!

Q.Osmanov qeyd edib ki, ermənilərin artıq bütün dünyanın öyrəndiyi kimi, qiymətli ağac növlərini kəsməklə yanaşı, bu illər ərzində işğal altındakı ərazilərdəki qiymətli metalları, xüsusən də qızılı qanunsuz olaraq Ermənistana ixrac etdiklərini xatırlatmaq lazımdır. Ermənistanda işləndikdən sonra Azərbaycanın qızıl ehtiyatları üçüncü ölkələrin bazarlarına çıxarılıb və orada satılıb. Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən Cinayət Məcəlləsinə uyğun olaraq qanunsuz sahibkarlıq fəaliyyəti faktları ilə uzun müddətdir ki, erməni mənşəli xarici vətəndaşlara qarşı 192.2.3 (qanunsuz sahibkarlıq) və 318.2 (dövlət sərhədini qanunsuz keçmə) maddələri ilə cinayət işləri açılıb. İstintaq orqanı tərəfindən beynəlxalq axtarışa verilən "Vallex Group"un maliyyə investorlarına, İsveçrə vətəndaşı Vartan Sirmakes, "Vallex Group"un rəhbəri Valeri Meclumyan və "Base Metals"ın icraçı direktoru Artur Mkrtumyana qarşı ittihamlar irəli sürülüb.

Əlbəttə ki, Ermənistanın dəymiş zərəri öz iradəsi və vicdanı ilə ödəməsinə ümid yoxdur. Ermənistan məcbur olmasa, heç nə ödəməyəcək. Onu buna beynəlxalq təşkilatlar məcbur etməlidir. Qaydalara əsasən, Ermənistanın vurduğu ziyanın tam və dəqiq qiymətləndirilməsindən sonra borcun qaytarılmasının bütün şərtlərini, habelə ödəmədiyi təqdirdə ona tətbiq ediləcək sanksiyaları özündə birləşdirən sənəd yaxın gələcəkdə hazırlanmalıdır. Bununla əlaqədar olaraq, Azərbaycan artıq beynəlxalq təşkilatlara, xüsusən də BMT və Dünya Bankına müraciət edib.

❖❖❖



Azərbaycan dövlət müstəqilliyini elan edəndə - 1991-ci ildə onun ərazisi Dağlıq Qarabağ da daxil olmaqla, ətrafdakı yeddi rayonla birlikdə tanınıb. Ermənistan bu torpaqların 20 faizini sonrakı illərdə işğal edib. Bütün bunlar beynəlxalq hüquqi sənədlərdə əksini tapıb.

Bu fikirləri Türkiyənin Azərbaycandakı sabiq səfiri Hulusi Kılıç AZƏRTAC-a müsahibəsində Fransa parlamentinin yuxarı palatası olan Senatın məlum qərarını şərh edərək bildirib.

Qəbul edilən qərarı hüquqi əsası olmayan kağız parçası kimi dəyərləndirən səfir Hulusi Kılıç deyib ki, ümumiyyətlə, bu cür müzakirələr və qəbul olunan qərarlar siyasi təzyiq vasitəsidir.

Beynəlxalq təşkilatların, dünya birliyinin Azərbaycanın ərazi bütövlüyünü işğal altında olan torpaqlar, o cümlədən Dağlıq Qarabağın da daxil olduğu sərhədlər çərçivəsində tanığını diqqətə çatdıran səfir deyib ki, Fransa Azərbaycanın ərazi bütövlüyünü tanıyan beynəlxalq sənədlərin qəbuluna səs verən ölkədir. İndi Senatda erməni lobbisinin təsiri ilə hüquqi əsası olmayan tövsiyə xarakterli belə bir qətnamə qəbul etmək bu ölkəyə ancaq utanc gətirəcək.

❖❖❖


COMUNE DI LIVERI
(Città Metropolitana di Napoli)
VERBALE DI DELIBERAZIONE DELLA GIUNTA COMUNALE

İtaliyanın Neapol şəhərinin Ottaviano bələdiyyəsi "Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 nömrəli qətnamələri dərhal icra edilməlidir" adlı sənəd qəbul edib. Eyniadlı sənəd habelə şəhərin Liveri bələdiyyəsi tərəfindən də qəbul olunub.

AZƏRTAC xəbər verir ki, sənədlərdə Ermənistanın Azərbaycana qarşı təcavüzü və etnik təmizləmə siyasəti nəticəsində Dağlıq Qarabağ və ətraf 7 rayon da daxil olmaqla, Azərbaycan ərazisinin 20 faizinin işğal olunduğu, 1 milyondan çox azərbaycanlının qaçqın və məcburi köçkün vəziyyətinə düşdüyü, azərbaycanlılara qarşı müharibə cinayətləri və Xocalı soyqırımının törədildiyi bildirilir.

BMT Təhlükəsizlik Şurasının və Baş Assambleyasının münaqişə ilə bağlı qətnamələrinin Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinə dəstək verərək Qarabağı Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi tanıdığı, Ermənistan silahlı qüvvələrinin işğal olunmuş həmin ərazilərdən dərhal çıxarılmasını tələb etdiyi vurğulanır.

Avropa İnsan Hüquqları Məhkəməsinin 2015-ci il tarixli "Çıraqov və digərləri Ermənistana qarşı" işi ilə bağlı qərarında da Azərbaycanın Qarabağ bölgəsinin Ermənistan tərəfindən işğalının təsdiqləndiyi bildirilir.

Sənədlərdə həmçinin rəsmi İtaliyanın davamlı olaraq Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyinə diqqət çəkilir və bu xüsusda, Azərbaycan Respublikası Prezidentinin cari ilin fevralında İtaliyaya dövlət səfəri zamanı imzalanmış "İtaliya Respublikası ilə Azərbaycan Respublikası arasında Çoxölçülü Strateji Tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamə"yə istinad edilir.

Münaqişə ilə bağlı mövcud hüquqi əsaslara və 30 ilə yaxındır ATƏT-in Minsk qrupunun həmsədrliyi çərçivəsində aparılan danışıqlara baxmayaraq, Ermənistanın destruktiv siyasəti nəticəsində danışıqların dayandırıldığı, Azərbaycan xalqının böyük ədalətsizliklə üzləşdiyi, 1 milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkünün öz yurd-yuvalarına qayıda, ailə üzvlərinin məzarlarını belə ziyarət edə bilmədikləri vurğulanır.

Sənədlərdə sentyabrın 27-dən başlayaraq Ermənistanın yeni hərbi təcavüzü zamanı mülki obyektləri, mülki şəxsləri qəsdən hədəfə alaraq Gəncə və Bərdə şəhərlərini bombalaması pislənilir. Bu xüsusda, Gəncə və Bərdə şəhərlərinin sakinləri, bütünlükdə Azərbaycan xalqı ilə həmrəylik ifadə edilir.

Sənədlərdə aidiyyəti bələdiyyələrin beynəlxalq hüququn norma və prinsiplərini daim dəstəklədiyi, Ermənistanın təcavüz siyasətini pislədiyi, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş bütün ərazilərindən dərhal, qeyd-şərtsiz və tamamilə çıxarılmalı, münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının və Baş Assambleyasının müvafiq qətnamələrinin dərhal yerinə yetirilməli, eləcə də azərbaycanlı qaçqın və məcburi köçkünlərin öz doğma yurdlarına qayıtmaq hüququnun təmin edilməli olduğu vurğulanır.

❖❖❖


THE JEWISH PRESS
America's Largest Independent Jewish Weekly
'We Love Israel And We Pray For You'
Evangelicals From Around The World Show Their Support

Azərbaycan dünyada yeganə ölkədir ki, burada yəhudilər özlərini təhlükəsiz hiss edir, antisemitizm Azərbaycan xalqına yaddır.

AZƏRTAC xəbər verir ki, bu fikir siyasi analitik Raxel Avraamın nüfuzlu "Jewish Press" informasiya agentliyinin yaydığı məqaləsində yer alıb.

Raxel Avraamın fikrincə, bəzi ermənipərəst ekspertlər arabir yazdıqları məqalələrdə bildirirlər ki, İsrailin Azərbaycanı dəstəkləməsi strateji səhvdir. Bu ermənipərəst ekspertlər deyirlər ki, guya Azərbaycan Dağlıq Qarabağda ermənilərə qarşı "soyqırımı" törətməyə cəhd edib və Holokostu yaşamış yəhudi xalqı bunu dəstəkləməməlidir. Lakin bu "ekspertlər" başa düşmürlər ki, belə uydurma iddialar faktiki olaraq nasistlər tərəfindən törədilmiş vəhşiliyin azaldılmasına işləyir, çünki Azərbaycan heç bir soyqırımı törətməyib. Bu ermənipərəst ekspertlər həmçinin bəyan edirlər ki, guya Dağlıq Qarabağ tarixən Ermənistanın bir hissəsi olub. Lakin BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 nömrəli dörd qətnaməsində təsdiqlənib ki, Dağlıq Qarabağ regionu Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan və ayrılmaz hissəsidir və Ermənistan öz qoşunlarını bu ərazilərdən qeyd-şərtsiz, dərhal çıxarmalıdır. Bununla belə, son 30 il ərzində Ermənistan qanunla ona məxsus olmayan bu regiona məskunlaşdırılma üçün maliyyə yardımı edib.

İsrailli analitik xatırladır ki, 1992-ci ilin fevralında Xocalıda törədilən soyqırımı aktı bəşəriyyətə qarşı dəhşətli və müdhiş cinayət idi. Ovaxtkı müharibə zamanı ən dəhşətli etnik təmizləmə aktlarından birində Ermənistan bir müdhiş fevral gecəsində Azərbaycanın Xocalı şəhərində soyqırımı aktı törətdi. Nəticədə bu amansız etnik təmizləmə aktında Ermənistan silahlı qüvvələri tərəfindən bir gecədə aralarında 63 uşaq, 106 qadın və 70 ahıl şəxsin olduğu 613 nəfər qətlə yetirilib, bundan əlavə, 487 nəfər şikəst edilib, 1275 nəfər əsir götürülüb. Bu insanların belə qəddarlığa məruz qalmasının yeganə "səbəbi" onların azərbaycanlı olması idi.

"Məcburi köçkün azərbaycanlılar bu yaxınlaradək öz doğma torpaqlarına qayıda bilmirdilər. "Lakin 1993-cü ildən bəri Dağlıq Qarabağa köçmək istəyən ermənilərə əkinçilik və heyvandarlıqla məşğul olmaqdan ötrü "onların yaşayışları üçün maliyyə dəstəyi" təqdim olunurdu. Bu, müharibə zamanı işğal edilən ərazilərdə mülki əhalinin yerləşdirilməsinin qadağan edildiyini nəzərdə tutan Cenevrə Konvensiyasının birbaşa pozulmasıdır. Lakin Ermənistan bu mühüm beynəlxalq qanunu açıq şəkildə pozub və bu yaxınlaradək milyondan çox azərbaycanlı qaçqına öz evlərinə qayıtmağa imkan verməyib, bilərəkdən onların yerinə diaspordan və elə Ermənistanın özündən olan erməniləri yerləşdirib.

Sentyabr ayından başlayaraq sülh razılaşması imzalanana qədər Ermənistan Azərbaycanın yaşayış məntəqələrinə günahsız vətəndaşlara zərər vurmaq məqsədilə artilleriya zərbələri endirib ki, bu da müharibə cinayətidir", -deyə Avraam öz məqaləsində vurğulayır.

Faktiki olaraq "Human Rights Watch" hətta təsdiqləyib ki, Ermənistan azərbaycanlıları kasetli döyüş sursatlarının köməyi ilə qətlə yetirib. Azərbaycanın Baş prokuroru Kamran Əliyevin bu yaxınlarda BMT-nin insan haqları Şurasına yazdığı məktubda deyilir: "Ermənistan silahlı qüvvələri tərəfindən yarım milyon əhalisi olan, münaqişə zonasından 100 kilometrdən artıq məsafədə yerləşən Azərbaycanın ikinci böyük şəhəri Gəncənin oktyabrın 4-də, 5-də, 8-də, 11-də və 17-də Ermənistan ərazisindən ballistik raket atəşinə məruz qalması nəticəsində 6-sı uşaq, 10-u qadın olmaqla 26 mülki şəxs həlak olub, 32-si uşaq, 57-si qadın olmaqla 142 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın strateji obyektləri olan Mingəçevir Su və İstilik Elektrik stansiyaları, Bakı-Tbilisi-Ceyhan və Bakı-Novorossiysk neft kəmərləri, Oğuz-Qəbələ-Bakı su kəməri hədəfə alınmaqla müxtəlif tarixlərdə raket atəşlərinə məruz qalıb.

Azərbaycan hökumətinin məlumatına görə, sentyabrın 27-dən sülh razılaşması imzalananadək olan dövrdə 93 dinc sakin öldürülüb, daha 407 nəfər yaralanıb. Bundan başqa, Ermənistanın mülki əhalinin sıx yaşadığı yerləri hədəf götürməsi nəticəsində Azərbaycanda 504 mülki obyekt, 3326 şəxsi ev və 120 çoxmənzilli ev zərər çəkib.

Müəllif yazır: "Bəzi ekspertlər antisemitizmin Ermənistanda problem olduğunu inkar edirlər, təsdiqləyirlər ki, bu, Azərbaycan təbliğatının məhsuludur. Lakin sözün düzü, erməni icmaları məni, sadəcə, Azərbaycana dəstək məqalələri yazdığıma görə "sionist terrorçu" və riyakar adlandırıblar. Necə ki, insan haqları üzrə beynəlxalq hüquqşünas, yəhudi əsilli İrina Sukerman Azərbaycanı dəstəklədiyinə görə bir sıra antisemit təhqirlərə məruz qalıb". O qeyd edir ki, əslində, "Yediot Ahronot"un erməni ordusunun baş qərargah rəisinin müşaviri Vladimir Poqosyanın İsraili 1933-cü il nasist Almaniyası ilə müqayisə edərək hədələməsi barədə xəbərindən o qədər də çox vaxt keçməyib. Ermənilər ilk dəfə deyil bu cür iyrənc iftiraları və digər antisemit hücumları törədirlər. Efrat Avivin özünün kitabında yazdığı kimi, XV-XVI əsrlərdə ermənilərin yəhudilərə nifrəti dini və maliyyə motivlərindən irəli gəlirdi, yəqin ki, buna görə də olduqca güclü idi. Yəhudilər xristian erməni məhəllələrindən keçərkən bəzən fiziki hücumlara məruz qalırdılar, bəzən yəhudiləri mərasim qətllərində təqsirləndirirdilər. Nəticədə yəhudilər adətən müsəlman məhəllələri ilə yanaşı və yaxud yaxınlığında yerləşməyə üstünlük verirdilər. Sonralar 1918-ci ildə erməni daşnak millətçiləri qrupu tərəfindən Qubada qanlı soyqırımı zamanı 3 minə yaxın dağ yəhudisi məhv edilib. Bundan məqsəd etnik cəhətdən təmiz Ermənistan üçün mühitin yaradılması idi. Qubada baş verən soyqırımına qədər 15036 dağ yəhudisi yaşayırdı. Onların 20 faizi öldürülmüşdü. Professor Rövşən Mustafayev öz tədqiqatında bu vəhşiliklər barədə yazaraq bildirir ki, öldürülmüş günahsız yəhudilərin adlarının aşkarlanmasını təkcə A.Xasməmmədovun sədrliyi altında fövqəladə istintaq komissiyasının topladığı materiallar sübut etmir. XX əsrin əvvəllərində dəhşətli faciəni yaşamış yəhudilərin şəxsi arxivlərindəki mötəbər faktlara uyğun materiallar da dağ yəhudilərinə qarşı daşnak dəstələrinin cinayətlərindən xəbər verir.

Dünya Yəhudi Konqresi qeyd edir ki, Holokostdan canını qurtaran və Sovet İttifaqı daxilində dini münasibətdə daha dözümlü kimi tanınan Sovet Azərbaycanında məskunlaşan avropalı yəhudilər var. Bundan başqa, Qızıl Orduda xidmət edən azərbaycanlı hərbçi Həmzə Sadıqov yəhudi uşaqları üzərində sınaqlar aparan nasist generalı İohann fon Roddenburqu ələ keçirib. Məlumdur ki, Qızıl Ordunun bu igid azərbaycanlı zabiti 30 yəhudi ailəsini xilas edib. Məhz azərbaycanlı Həmzə Sadıqov yəhudi uşaqlarının xilaskarı olub, onun sayəsində onlarca yəhudi uşaq labüd ölümdən xilas edilib. Hazırda bu qəhrəmanın məzarı Azərbaycanın işğaldan azad etdiyi ərazidə yerləşir və yəhudi uşaqlarını faşistlərdən xilas edən qəhrəmanın özünün alman faşistlərindən heç nə ilə fərqlənməyən erməni faşistlərinin tapdağı altında olmasını düşünmək ürək ağrıdır. Bu erməni faşistləri Azərbaycanın Xocalı şəhərində və digər işğal edilmiş Azərbaycan rayonlarında uşaqları məhv ediblər. Sadıqovun məzarına gəlincə, bu məzarın erməni vandalları tərəfindən dağıdılması barədə məlumatlar var.

Sonda Avraam yazır: "KİV-də bəzi ekspertlərin bəyanat haqqında mənfi rəyinə baxmayaraq, mən Azərbaycanı onun imzaladığı yeni sülh razılaşmasında dəstəkləməkdə davam edəcəyəm. Mən bunu ona görə edirəm ki, həddən çox sayda erməninin antisemit olduğu bir vaxtda Azərbaycan antisemitizmin sıfır səviyyəyə bərabər olduğu tolerant, multikultural, çoxmədəniyyətli ölkədir.

Mən bunu ondan ötrü edirəm ki, beynəlxalq hüquq Azərbaycanın tərəfindədir, BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi isə Ermənistandan Dağlıq Qarabağın işğalının dayandırılmasını və işğalçı qüvvələrin həmin torpaqlardan dərhal çıxarılmasını tələb edir. Bütün bu səbəblərə görə mən bundan sonra da Azərbaycanın haqq işini açıq şəkildə müdafiə edəcəyəm".

❖❖❖


Lessons in pragmatism for Pakistan in the Nagorno-Karabakh conflict

Pakistanlı politoloq, Birminhem Universitetinin Yaxın Şərq və Mərkəzi Asiya ölkələri üzrə tədqiqatçı doktoru Omar Kərim "Arabnews" qəzetinə yazdığı "Pakistanın Qarabağ münaqişəsindən praqmatizm dərsləri" sərlövhəli analitik məqalədə işğalçı Ermənistanı dövlət kimi tanımayan Pakistanın daim Azərbaycanı dəstəklədiyini qeyd edib.

AZƏRTAC xəbər verir ki, politoloq Ermənistanın 1994-cü ilədək Azərbaycanın ərazilərini işğal etdiyini, ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə 27 ildən çox davam edən danışıqlarda təcavüzkar ölkənin yalnız status-kvonu qoruyub saxlamaq istədiyini diqqətə çatdırıb. O əlavə edib ki, sülh prosesinin nəticəsiz qalması müharibənin yenidən alovlanması təhlükəsini də artırıb. Uzun illər öz havadarlarına arxalanaraq qeyri-konstruktiv mövqe nümayiş etdirən Ermənistan son müharibədə məğlub olub və əvvəllər irəli sürdüyü iddialardan da əl çəkməyə məcbur edilib. Bu yeni reallıq əsl geosiyasət dərsi oldu.

Birinci Qarabağ müharibəsindən sonra Azərbaycanın əsas diqqəti transmilli neft-qaz layihələrinin həyata keçirilməsi vasitəsilə iqtisadi gücünü artırmağa yönəltdiyini bildirən politoloq qeyd edib: "Avropanın enerji bazarlarına daxil olan Azərbaycan, eyni zamanda, strateji qüdrətini də artırıb. Ölkənin istər regional, istərsə də ekstra-regional müttəfiqlərinin sayı çoxalıb. Azərbaycan Türkiyə ilə daha yaxın münasibətlər qurub. Cənubi Asiyada isə onun ən yaxın müttəfiqi Pakistandır. Rəsmi İslamabad Ermənistanı dövlət kimi tanımamaqla yanaşı, həm də Qarabağ münaqişəsinin nizama salınmasında Bakıya diplomatik dəstəyini göstərib. Türkiyə ilə müttəfiqlik sayəsində Azərbaycan əsgərləri NATO-nun ikinci ən böyük ordusu olan türk silahlı qüvvələrində təlimlər keçiblər. Bundan başqa, Azərbaycan Ordusu ən yüksək hərbi texnologiyalara malikdir".

Müəllif diqqətə çatdırıb ki, Azərbaycan Pakistanla da hərbi-texniki sahədə əməkdaşlığı inkişaf etdirib, azərbaycanlı əsgərlərin bir hissəsi dost ölkədə təlimlərdə iştirak ediblər. "Bütün bu addımların nəticəsində Azərbaycan Ermənistanın sonuncu hərbi təxribatına layiqli cavab verdi və torpaqlarını işğaldan azad etdi. Ermənistan silahlı qüvvələri Azərbaycan Ordusunun hava hücumları və taktiki planlarına ciddi müqavimət göstərə bilmədi", -deyə politoloq qeyd edib.

Pakistanlı ekspert vurğulayıb ki, Azərbaycanın iqtisadi gücünü və hərbi qüdrətini artırmaqla öz torpaqlarını işğaldan azad etməsi ayrıca tədqiqat mövzusu ola bilər.

# Azərbaycan İlahiyyat İnstitutunda akademik Vasim Məmmədəliyevin xatirəsinə həsr olunmuş respublika elmi konfransı işə başlayıb

Azərbaycan İlahiyyat İnstitutunun (AİI) təşkilatçılığı ilə şərqşünas alim, Əməkdar elm xadimi, akademik Vasim Məmmədəliyevin xatirəsinə həsr olunmuş respublika elmi konfransı işə başlayıb. "Akademik Vasim Məmmədəliyevin ilahiyyat və şərqşünaslıq elmlərinə verdiyi töhfələr" mövzusunda konfrans "Zoom" proqramı üzərindən keçirilir.



Bu barədə AZƏRTAC-a institutdan məlumat verilib. Bildirilib ki, konfransda AİI-nin rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Aqil Şirinov Vasim Məmmədəliyevin dünya və Azərbaycan elminə bəxş etdiyi töhfələr və yüksək xidmətləri barədə ətraflı söz açıb. Onun tərcümə etdiyi "Qurani-Kərim"in Azərbaycan dilində mükəmməl tərcümə olduğunu xüsusi vurğulayıb. Rektor mərhum akademikin həyatı və elmi fəaliyyəti barədə geniş məlumat verib. AİI-nin yaranmasında onun mühüm xidmətləri olduğu və Bakı Dövlət Universiteti İlahiyyat fakültəsinin rolunu xüsusi vurğulayıb.

Onlayn tədbirdə Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Hacı Allahşükür Paşazadə V.Məmmədəliyevlə bağlı xatirələrini danışıb. Vasim Məmmədəliyevlə birlikdə çalışmalarının İslam dininə yeni ruh verdiyini xüsusi vurğulayan Şeyxülislam AİI-yə konfransın təşkil edilməsinə görə təşəkkür edib. Pandemiya dövründən sonra akademik Vasim Məmmədəliyevə həsr olunacaq beynəlxalq və yerli konfransların təşkil olunacağını xüsusi qeyd edib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı qeyd edib ki, özündən sonra böyük irs qoymuş Vasim Məmmədəliyevlə hər ünsiyyətdən sonra onun necə dərin fəhm və zəkaya sahibliyinin şahidi olub. Komitə sədri vurğulayıb ki, akademiklə birlikdə iştirak etdikləri dövlət tədbirləri, konfranslar və başqa tədbirlərdə onun vətənpərvər və azərbaycançılıq ideologiyasının təbliğatçısı olduğu aydın görünürdü. Mübariz Qurbanlı konfrans təşkilatçılarına təşəkkürünü bildirərək AİI-nin Vasim Məmmədəliyevin irsini layiqincə davam etdirəcəyinə ümidvar olduğunu vurğulayıb.

Milli Məclisin deputatı, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədov çıxışında V.Məmmədəliyevin mükəmməl ərəb dili mütəxəssisi olduğunu vurğulayıb. O qeyd edib ki, akademik şəriəti bütün təfsilatı ilə izah edə bilirdi. Bunun illərlə akademikin aparıcısı olduğu "Haqqın dərgahı" verilişində də əyani surətdə göründüyünü xüsusilə qeyd edən deputat "Qurani-Kərim"in tərcüməsinin elm aləmi üçün xüsusi önəmi olduğunu vurğulayıb. İlahiyyat İnstitutunun pedaqoji heyətinin məhz onun tələbələri olmasının böyük əhəmiyyət kəsb etdiyini qeyd edib.

Bakı Dövlət Universitetinin beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Şahin Pənahov akademikin universitetdə tələbə olduğu vaxtdan vəfatınadək keçdiyi dövrlər barədə ətraflı danışıb. Prorektor Vasim Məmmədəliyevin islam dininin təbliği sahəsində gördüyü işləri yüksək qiymətləndirərək BDU-nun tarixində onun şərqşünas, ilahiyyatçı, elm xadimi kimi əbədi yaşayacağını vurğulayıb.

Xalq artisti, professor Vamiq Məmmədəliyev qardaşı Vasimin bir alim kimi formalaşmasında ailəsinin - ata və anasının xüsusi rolu olduğunu vurğulayıb. Azərbaycan Prezidentinin və birinci xanım Mehriban Əliyevanın Vasim Məmmədəliyev irsinə verdiyi dəyəri xüsusi qiymətləndirib.

V.Məmmədəliyevin qızı, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Bakı Musiqi Akademiyası Musiqi nəzəriyyəsi kafedrasının dosenti Turan Məmmədəliyeva tədbirə həm ailə üzvü, həm də iştirakçı kimi qatılmasından məmnunluğunu ifadə edib.

Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov akademikin tələbəsi kimi danışmaqdan fəxarət hissi keçirdiyini qeyd edib. Vasim Məmmədəliyevlə bağlı tələbəlik illərinin xatirələrini bölüşərək onun bütün təhsilalanlara ata qayğısı ilə yanaşdığını xüsusi vurğulayıb.

Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun elmi işlər üzrə direktor müavini, filologiya elmləri doktoru, dosent Paşa Kərimov Vasim Məmmədəliyevlə tanışlığı, onun alim və pedaqoq kimi fəaliyyəti barədə danışıb.

Azərbaycan İlahiyyat İnstitutunun elm və innovasiyalar üzrə prorektoru, fəlsəfə üzrə fəlsəfə doktoru Mirniyaz Mürsəlov akademik haqqında həm elmi rəhbəri, həm dekanı, həm də müəllimi kimi xatirələrini bölüşüb.

BDU-nun Şərqşünaslıq fakültəsinin dekanı, filologiya elmləri doktoru, professor Elxan Əzizov Vasim Məmmədəliyevlə birlikdə illərlə olan dostluq və əməkdaşlığından söz açıb.

Azərbaycan İlahiyyat İnstitutunun İlahiyyat fakültəsinin dekanı, ilahiyyat üzrə fəlsəfə doktoru, dosent Elnurə Əzizova çıxışında hörmət və ehtiramla anılan akademikin həm müəllimlərə, həm də tələbələrə münasibətində səbir və tolerantlıq nümunəsi göstərdiyini qeyd edib.

Konfrans mövzu ətrafında məruzələrlə davam etdirilib.

## Azərbaycanda koronavirus infeksiyasına daha 3705 yoluxma faktı qeydə alınıb, 1609 nəfər sağalıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 3705 yoluxma faktı qeydə alınıb, 1609 nəfər müalicə olunaraq sağalıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 32 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 106 min 101 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 68 min 572 nəfər müalicə olunaraq sağalıb, 1256 nəfər vəfat edib. Aktiv xəstə sayı 36273 nəfərdir.

Ötən müddət ərzində 1 milyon 665 min 832 test aparılıb. Dünənki test sayı isə 19178-dir.




# Bayden əsas vəzifələrə namizədləri elan etdi

## Tramp hakimiyyəti təhvil vermək qərarına gəlib

ABŞ-ın seçilmiş 46-cı Prezidenti Co Bayden öz administrasiyasında əsas vəzifələrə namizədlərin siyahısını təqdim edib. Son 20 ili Baydenlə birgə işləmiş 58 yaşlı Entoni Blinken Dövlət Departamentinin rəhbəri olacaq. 2015-ci ildən 2017-ci ilədək o, Barak Obama administrasiyasında dövlət katibinin müavini vəzifəsində çalışıb.



Bayden özünün milli təhlükəsizlik üzrə köməkçisi vəzifəsinə Ceyk Sallivanın təyin olunmasını təklif edib. O, 2013-cü ildə Bayden vitse-prezident olanda onun beynəlxalq məsələlər üzrə baş məsləhətçisi, habelə Hillari Klintonun köməkçilərindən biri olub. 2015-ci ildə Sallivan İranla nüvə razılaşmasının hazırlanmasında mühüm rol oynayıb.

Daxili Təhlükəsizlik Nazirliyinə Alexandro Mayorkas rəhbərlik edəcək. O, bu vəzifədə ilk latın amerikalı olacaq.1959-cu ildə Kubada yəhudi ailəsində dünyaya gəlmiş Mayorkas Obama administrasiyası dövründə İmmiqrasiya Xidmətinin direktoru və Milli Təhlükəsizlik nazirinin müavini vəzifələrində çalışmışdır.

Milli Təhlükəsizlik müşavirinin müavini Avril Heyns isə Milli Kəşfiyyata rəhbərlik edəcək və o, bu vəzifədə ilk qadın olacaq.

ABŞ-ın keçmiş dövlət katibi Con Kerri də vəzifəsiz qalmayacaq. O, iqlim məsələləri üzrə prezidentin xüsusi elçisi kimi fəaliyyət göstərəcək. CNN telekanalı qeyd edir ki, Kerri Paris İqlim sazişinin tərəfdarıdır (2017-ci ildə Tramp sazişdən çıxıbred). ABŞ-ın BMT-dəki səfiri isə Obamanın dövründə Afrika məsələləri üzrə Dövlət katibinin köməkçisi vəzifəsində çalışmış Linda Tomas-Qrinfeld olacaq.

Co Bayden öz administrasiyasında əsas vəzifələrə namizədləri ictimaiyyətə təqdim edərkən bildirib ki, Amerika dünya liderinə çevrilməyə hazırdır.

Bu arada Donald Tramp təslim olub və hakimiyyəti Baydenə təhvil vermək qərarına gəlib. O, administrasiyanın Ümumi Xidmətlər İdarəsinin (GSA) rəhbəri Emiliya Mörfiyə ölkədə hakimiyyəti Co Baydenə ötürmək prosesinə başlamağı tövsiyə edib. Tramp, "sarsılmaz sədaqətinə görə" Mörfiyə təşəkkür edərək onun təqiblərə, təhdidlərə və qəddar rəftara məruz qaldığını bildirib. "Mən onunla, ailəsilə və ya GSA işçiləri ilə bağlı belə hadisələrin baş verməsini istəmirəm", deyə o, Twitterdə də yazıb.

Bundan bir gün əvvəl "The Vaşinqton Post" qəzeti xəbər vermişdi ki, respublikaçılardan olan nüfuzlu ekspertlər Konqresdəki partiyadaşlarından Donald Trampı noyabrın 3-də keçirilmiş prezident seçkilərində məğlubiyyətini etiraf etməyə və işlərin ötürülməsi prosesinə başlamağa razı salmağı xahiş ediblər. Qəzet milli təhlükəsizlik məsələləri ilə məşğul olan 100-dən artıq mütəxəssisin müvafiq məktubundan çıxarışlar vermişdir.

"Prezident Trampın hakimiyyətin ötürülməsi prosesinə icazə verməkdən imtina etməsi ABŞ-ın qlobal müxaliflər, terror qruplaşmaları və digər qüvvələr, eləcə də pandemiya və ciddi təhdidlərlə üzləşdiyi bir vaxtda milli təhlükəsizliyimiz üçün əhəmiyyətli risklər yaradır", - deyə ekspertlər vurğulayıblar. Onların sırasında Pensilvaniya ştatının eks-qubernatoru, sabiq Daxili Təhlükəsizlik naziri Tom Ric və Milli Kəşfiyyatın keçmiş direktoru Con Neqroponte var.

Bütün bunlara baxmayaraq, ABŞ Prezidenti komandasının seçkilərin nəticələri uğrunda mübarizəni məhkəmələrdə davam etdirəcəyini də bəyan edib. Bundan bir gün əvvəl Donald Tramp bildirib ki, o, səsvermənin nəticələrini dəyişdirmək üçün kifayət qədər seçki saxtakarlığının sübutuna malikdir. "Mənim silahdaşlarım yüz minlərlə saxta səs tapan zaman niyə Co Bayden kabinetini belə tez formalaşdırır?" - deyə o, sual verir.

Xatırladaq ki, ABŞ-da prezident seçkiləri noyabrın 3-də keçirilib. Co Bayden seçkiçilərin 306, hazırkı Prezident Donald Tramp isə 232 səsini qazanıblar.

***Rizvan HİLALOĞLU,***
***"Azərbaycan"***

# iPhone 12 Pro Max və iPhone 12 Mini Azercell Eksklüziv mağazalarında

## Lider mobil operator iPhone pərəstişkarları üçün yeni kampaniya təqdim edir

"Azercell Telekom" MMC noyabr ayının 20-dən etibarən Azercell Eksklüziv mağazalarında iPhone 12 Pro Max və iPhone 12 Mini telefonlarının satışına start verib. Lider mobil operator internetin inanılmaz sürətini dünyanın ən güclü performansına malik smartfonları vasitəsilə hiss etmək imkanı yaradıb. "Apple" brendi ilə birgə əməkdaşlıqda abunəçilərini növbəti kampaniya ilə sevindirən "Azercell" iPhone smartfonlarının yeni modellərini alan hər bir abunəçiyə 3 ay ərzində hər ay 50 GB həcmində internet paket hədiyyə edir.




Xatırladaq ki, Azərbaycanda "Apple" şirkətinin yeganə rəsmi telekom tərəfdaşı olan "Azercell" noyabr ayının 6-dan etibarən eyni şərtlər ilə iPhone 12 və iPhone 12 Pro telefonlarının da satışına başlayıb.

Yeni iPhone smartfonlarının açdığı sərhədsiz imkanları "Azercell" ilə kəşf edin!

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi DOST Agentliyinin "DOST İş Mərkəzi" MMC 2020-ci il üçün kotirovka sorğusu elan edir

Aşağıda göstərilən xidmətlər üzrə qiymətlərin elan olunması:
- portretlərin və qapı üstü şüşə lövhələrin hazırlanmasının satın alınması üzrə.

Kotirovkalar sorğusunda iştirak etmək üçün tələb olunan sənədlər 03 dekabr 2020-ci il saat 13:00-dək qəbul olunur.

Tələb olunan sənədlər:
- nizamnamənin surəti (notarial qaydada təsdiq olunmuş);
- kommersiya hüquqi şəxsinin rekvizitləri (möhürlənmiş və imzalanmış şəkildə);
- azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında məlumat (malgöndərən təşkilatın uçotda olduğu vergi orqanından);
- vergi uçotu haqqında arayış (ƏDV ödəyicisi olmayan təşkilatlar üçün);
- satınalma müqaviləsini bağlamaq səlahiyyəti olması (malgöndərən təşkilatın kommersiya qurumunun dövlət reyestrindən çıxarışlarının və vergi uçotunda olduğunu təsdiq edən sənədin surəti);
- satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin olması barədə məlumat (malgöndərən təşkilat tərəfindən hazırlanır);
- öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması (malgöndərən təşkilatın uçotda olduğu vergi orqanından);
- müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması (malgöndərən təşkilatın uçotda olduğu vergi orqanından).

Ünvan: AZ1005, Bakı şəh., Səbail rayonu, H.Z.Tağıyev küç., ev 13. Əlaqələndirici şəxs Nəsimi Kərimzadə.Telefon: (+99451) 207-59-12, (+99412) 497-41-70.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi inventarların kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan təşkilatlar (012) 596-44-09 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 01 dekabr 2020-ci il saat 15:00-dək Bakı şəhəri, Səlatın Əsgərova küçəsi, 85 ünvanında qəbul olunur.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu tərəfindən "Fondun Aparatı və struktur bölmələrinin istifadəsində olan xidməti minik avtomobillərinin cari təmir işləri"nin satın alınması məqsədilə keçirilmiş kotirovka sorğusunda iddiaçılardan daxil olmuş təkliflərin qiymətləndirilməsi həyata keçirilmişdir. Qiymətləndirmənin nəticəsində "My Auto" MMC qalib müəyyən edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

# Beynəlxalq aləm

## Sudanın keçmiş Baş naziri Sadıq Mehdi koronavirusdan öldü

Sudanın sabiq Baş naziri, "əl-Ümma" Partiyasının lideri Sadıq Mehdi 85 yaşında koronavirus infeksiyasından dünyasını dəyişib.

Bu barədə "əl-Ümma" Partiyasının "Facebook" səhifəsində məlumat verilib.



Mehdi BƏƏ xəstəxanalarından birində vəfat edib. Eks-baş nazirin dəfn mərasimi noyabrın 27-də Xartumda keçiriləcək.

Partiyada qeyd edilib ki, yas mərasimi iştirakçıları koronavirus epidemiyası ilə bağlı məhdudiyyətlərə riayət etməlidirlər.

## İlin əvvəlindən Türkiyədə PKK-nın 215 terrorçusu təslim olub

Türkiyə təhlükəsizlik qüvvələrinə son sutka ərzində PKK terror təşkilatının beş yaraqlısı təslim olub. Bu barədə "Anadolu" agentliyi xəbər verir.

Məlumata görə, təslim olan terrorçular 2011-2015-ci illərdə Suriya və İraqda fəaliyyət göstəriblər.



Ümumilikdə ilin əvvəlindən PKK-nın 215 üzvü könüllü olaraq silahı yerə qoyub və hakimiyyətə təslim olub.

PKK terrorçuları ölkədə sabitliyi pozmaq və Türkiyəni parçalamaq üçün qanlı terror aktları törədirdilər.



## Diyeqo Maradona həyatdan getdi

Argentinada əfsanəvi futbolçu, 1986-cı ildə dünya çempionu adını qazanmış Diyeqo Armando Maradona 60 yaşında dünyasını dəyişib.

Argentina yığmasının və İtaliyanın "Napoli" klubunun sabiq ulduzu ürəktutmasına görə vəfat edib.

Oktyabrın 30-da Maradona xəstəxanalardan birinə gətirilmiş və müayinə zamanı onda subdural hematoma aşkar edilmişdi. Daha sonra əməliyyat keçirilmiş və noyabrın 11-də o, xəstəxanadan buraxılmışdı. Lakin noyabrın 25-də nahar vaxtı özünü pis hiss etmiş və təcili yardım briqadası çağırılmışdı. Təəssüf ki, həkimlər onun həyatını xilas edə bilməmişlər.

Argentina yığmasının heyətində Maradona 1986-cı ildə dünya çempionu olmuş, 1990-cı il mundialında isə gümüş medal qazanmışdır. O, milli komandanın heyətində 91 matç keçirib və 34 qol vurub.

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı:**
**www.azerbaijan-news.az**

# “Azərenerji” əhəmiyyətli layihə reallaşdırır

“Azərenerji” ASC-nin Mətbuat xidmətindən verilən məlumata görə, “Azərenerji” reaktiv gücün kompensasiyası istiqamətində əhəmiyyətli layihə gerçəkləşdirərək Qarabağ və ətraf rayonları əhatə edən 330 kilovoltluq “Goranboy” Paylayıcı Məntəqəsində və respublikanın şimal-şərq rayonları, eləcə də Abşeron yarımadasını əhatə edən 330 kilovoltluq “Yaşma” yarımstansiyasında idarəolunan şuntlayıcı reaktorlar quraşdırır.



Azərbaycanın enerji sisteminin 2 əsas düyün nöqtəsində qoyulan şuntlayıcı reaktorlar yüksəkgərginlikli 330 kilovoltluq elektrik verilişi xətlərinin tutum reaktiv gücünü qəbul edərək tənzimləməklə yanaşı, rejim imkanlarını yaxşılaşdıracaq və bununla da reaktiv yükün kompensasiyasını təmin edəcək. İdarəolunan şuntlayıcı reaktorlar xətlərin ötürmə qabiliyyətini artırmaqla bərabər texniki itkiləri azaldacaq və bununla yükün keyfiyyətini yüksəltməyə, böyük miqdarda elektrik enerjisinə və maliyyə vəsaitlərinə qənaət etmiş olacaq.

Bununla yanaşı, idarəolunan şuntlayıcı reaktorun quraşdırıldığı strateji əhəmiyyətli 330, 220, 110, 10 kilovoltluq “Yaşma” yarımstansiyası əsaslı şəkildə yenidən qurulur. Respublikanın şimal-şərq rayonlarının, eləcə də Abşeron yarımadasının enerji təchizatında mühüm əhəmiyyət kəsb edən, Rusiya və Azərbaycan enerjisistemləri arasında yük mübadiləsini həyata keçirən mühüm düyün nöqtəsi olan “Yaşma” yarımstansiyası 50 il əvvəl tikildiyindən istismar müddətini başa vurub və buna görə də tez-tez qısaqapanmalara, enerjisistemdə qəza vəziyyətinin yaranmasına səbəb olurdu. Bunun üçün müasir tələblərə cavab verən yeni avadanlıqlar quraşdırılmaqla avtotransformatorlar daha güclüləri ilə əvəz edilir, açıq paylayıcı qurğular genişləndirilir. Yarımstansiyada müasir avadanlıqlarla təchiz ediləcək yeni inzibati idarəetmə binası tikilir. Onu da qeyd edək ki, “Yaşma” yarımstansiyasına yeni tikilən “Qobu” yarımstansiyasından 330 kV-luq hava xəttinin çəkilməsinə başlanılıb.

# Özün də yanacaqsan



Çıxırsan torpağımdan,
Çıxa-çıxa
yandırırsan.
Gör nə qədər
mənfursan,
cılızsan!
Nə günahı,
Nə suçu var
O cansız şəhərlərin,
Binaların, evlərin,
Körpülərin, yolların,
O dilsiz-ağızsız
Meşələrin, ağacların?
Axı, axı sən onların
Heç birini
əkməmisən,
Kərpic-kərpic
tikməmisən.
Ürəyimdə qoy qalmasın,
deyim bunu.
Bunlar sənin xislətindir.
Lap ulundan, həm
dədəndən,
Həm babandan
sənə qalan
Mirasındır, qismətindir.
Yaxşı bil ki, yandırdığın
nə varsa da,
Onlardan da yaxşısını
Tikəcəyik, quracağıq.
Cənnətməkan o Qarabağ
Əsl cənnət olacaqdır.
Dünyanın hər yerindən -
şəhərindən, kəndindən
Bura insan
gələcək.
Bu ölkənin rəhbərinə -
əsgərinə,
Ali Baş Komandanına
-Yaşa, var ol! - deyəcək.

Yandırılan meşələrin,
ağacların
yerində, bil
Yeniləri pöhrə verib
göyərəcək,
ucalacaq.
Bax, beləcə hər şey,
hər şey
Dəyişəcək, düzələcək.
Amma sənin içindəki
O paxıllıq,
o namərdlik,
o xəbislik
Yenə, yenə,
Əsrlərlə, fəsillərlə,
nəsillərlə
yaşayaraq
Hey alışıb, hey yanacaq.
Yana-yana öz içini
qovuracaq,
yandıracaq.

**Seyran CAVADOV**


# OXUCULARIN NƏZƏRİNƏ
# “AZƏRBAYCAN”

***qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası başlayıb!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *“Azərmətbuatyayımı” ASC* | *(012) 440-46-94, (070) 244-17-34* |
| *“Azərpoçt” ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *“Qaya” firması* | *(012) 566-77-80, (050) 212-40-53* |
| *“Kaspi” MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *“Region Press” MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *“Səma-M” MMC* | *(012) 594-09-59* |
| *“Ziya” LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *“Pressinform” MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *“City press” MMC* | *(055) 819-09-26* |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


## Azercell abunəçilərinin nəzərinə

“Azercell Telekom” MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 01.12.2020-ci il saat 23:00-dan etibarən 02.12.2020-ci il tarixi səhər saatlarınadək bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi DOST Agentliyinin “DOST İş Mərkəzi” MMC 2020-ci il üçün kotirovka sorğusu elan edir

Aşağıda göstərilən xidmətlər üzrə qiymətlərin elan olunması:
- Dirəkli məkan bayraqlarının satın alınması üzrə.

Kotirovka sorğusunda iştirak etmək üçün tələb olunan sənədlər 03 dekabr 2020-ci il saat 13:00-dək qəbul olunur.

Tələb olunan sənədlər:
- nizamnamənin surəti (notarial qaydada təsdiq olunmuş);
- kommersiya hüquqi şəxsinin rekvizitləri (möhürlənmiş və imzalanmış şəkildə);
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında məlumat (malgöndərən təşkilatın uçotda olduğu vergi orqanından);
- vergi uçotu haqqında arayış (ƏDV ödəyicisi olmayan təşkilatlar üçün);
- satınalma müqaviləsini bağlamaq səlahiyyəti olması (malgöndərən təşkilatın kommersiya qurumunun dövlət reyestrindən çıxarışlarının və vergi uçotunda olduğunu təsdiq edən sənədin surəti);
- satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığın, təcrübənin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin olması barədə məlumat (malgöndərən təşkilat tərəfindən hazırlanır);
- öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması (malgöndərən təşkilatın uçotda olduğu vergi orqanından);
- müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması (malgöndərən təşkilatın uçotda olduğu vergi orqanından).

Ünvan: AZ1005 Bakı şəhəri. Səbail rayonu, H.Z.Tağıyev küç., ev 13, Əlaqələndirici şəxs: Nəsimi Kərimzadə.Telefon: (+99451) 207-59-12, (+99412) 497-41-70.

***Tender komissiyası***

## Azərbaycan Dövlət Pedaqoji Universiteti Mətbəə mallarının kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan təşkilatlar +99412 493-15-01 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 26.11.2020-ci il saat 13:15-dən 27.11.2020-ci il saat 13:15-dək qəbul olunur.

Ünvan: Üzeyir Hacıbəyov, 68
Telefon: +99412 493-15-01
E-mail: maliye.adpu@gmail.com

***Tender komissiyası***


**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**


# ALLAH RƏHMƏT ELƏSİN!

Məzahir Pənahov ailə üzvləri ilə birlikdə

**MƏMMƏD ƏHMƏD OĞLU MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Elmar Məmmədova atası

**MƏMMƏD ƏHMƏD OĞLU MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyi və kollektivi agentliyin İşlər və Komplektləşdirmə İdarəsinin rəisi Cavanşir Quliyevə əzizi

**MƏMMƏD MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Milli Elmlər Akademiyası Mərkəzi Nəbatat Bağının rəhbərliyi və kollektivi bağın elmi işlər üzrə direktor müavini, biologiya elmləri doktoru Şakir Qasımova bacısı

**ALMAZ QASIMOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının maliyyə naziri Samir Şərifov Yeni Azərbaycan Partiyasının sədr müavini Əli Həsənova bacısı

**DİLBƏR ƏHMƏDOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının maliyyə naziri Samir Şərifov qocaman bank və maliyyə işçisi

**MƏMMƏD MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Agentliyin rəhbərliyi və kollektivi professor, Əməkdar elm xadimi

**MƏMMƏD CÜMŞÜD OĞLU MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Elçin, Namiq, Zakir Quliyevlər Elmar və Əhməd Məmmədovlara ataları

**MƏMMƏD ƏHMƏD OĞLU MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

“Aqrarkredit” Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının İdarə Heyəti və kollektivi YAP sədrinin müavini Əli Həsənova bacısı

**DİLBƏR XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

“Aqrarkredit” Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Azərbaycan Dövlət İqtisad Universitetinin Riyaziyyat və statistika kafedrasının məsləhətçi professoru, Əməkdar elm xadimi

**MƏMMƏD CÜMŞÜD OĞLU MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Dövlət Sığortası Kommersiya Şirkətinin İsmayıllı rayon filialının direktoru Zenfira Əhmədova və filialın kollektivi Qəndab, Sevinc, Elmar və Əhməd Məmmədovlara əzizləri

**MƏMMƏD ƏHMƏD OĞLU MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 7466
Sifariş 2651
Qiyməti 40 qəpik